www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 iyul 2017-ci il Cümə № 147 (6761) Qiyməti 60 qəpik

## Xəbər

**Xırdalanda 6 yaşlı uşağa təcavüz edən manyakla bağlı yeni məlumatlar var**

yazısı səh.3-də

# İCRA BAŞÇILARININ SON PAYIZI - “ƏLVİDA, VƏZİFƏ!..”

Prezident İlham Əliyev onlara 4 ay vaxt verərək fəaliyyətlərində dönüş yaratmalarını tələb etdi; büdcə pullarına və rayonlara ayrılmış dotasiyaya göz dikən icra başçıları gedəcək...

yazısı səh.5-də




## Bakının “Ağ evi”ndən Moskvaya “Ağ Ev” ismarışı

“Rusiya əbədi tərəfdaşımız deyil!”; Rusiya üçün rəsmi Bakının etibarını qazanmağın tək yolu Qarabağdan keçir

yazısı səh.8-də

## Gündəm

**Erməni və havadarlarına son xəbərdarlıq: “Azərbaycan sakitləşməyəcək!..”**




Danışıqların davamını istəyənlər öncə işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılmasını təmin etməlidir

yazısı səh.12-də

**Zəhra üçün susub erməniyə sevgi göstərən xalq artisti ictimai qəzəbə gəldi - rəylər**

yazısı səh.5-də

**“Exchange”lərin “bəxtini bağlayan” səbəblər**

yazısı səh.10-da

*Vahid Əhmədov:*

**“Məmurlar başa düşməlidirlər ki...”**

yazısı səh.6-da

**Azərbaycanla Macarıstan arasında böyük iqtisadi əməkdaşlığın təməlini qoyan adam**

yazısı səh.7-də

**Azərbaycanda qısa zamanda necə zəngin olmaq olar? - iqtisadçıdan maraqlı şərh**

yazısı səh.6-da

**Məmur övladlarının harınlığı niyə azalmır? - sosioloq və psixoloq səbəbləri sıraladı**

yazısı səh.13-də

**Sağlığında özünə qəbir qazdıranlar - dini ekspertlər deyir ki...**

yazısı səh.10-da

**ANS-in qapadılmasından 1 il ötür... Açılmaq şansı varmı?**

yazısı səh.3-də



*Vüqar Səfərli:*

**“Mənzil veriləcək 255 jurnalistin adı müəyyənləşib”**

yazısı səh.3-də



*Üzeyir Cəfərov:*

**“Ermənistan üçün bu dəfə daha fəlakətli nəticələr olacaq”**

yazısı səh.9-da



*Partiya sədrindən çağırış:*

**“Tağı Əhmədov təcili həbs olunmalıdır”**

yazısı səh.4-də

# Kişinyovdan sonra Kremlin hədəfi Bakıdır?


Tofiq Abbasov

**"Azərbaycanın hazırkı mərhələdə Avrasiya İttifaqına üzv olmaq kimi bir planı yoxdur". Bu sözləri axar.az-a açıqlamasında politoloq Tofiq Abbasov deyib. Onun fikrincə, Avrasiya İttifaqı yenidən aktivləşərək, Moldovanı öz sıralarına qatmaq istəməsi məsələsini Bakıya da aid etmək olmaz.**

"Moldova prezidenti İqor Dodonun Avrasiya İttifaqına üzv olmaq istəməsi ilə Azərbaycanı müqayisə etmək olmaz. Çünki iki ölkənin iqtisadi vəziyyəti eyni deyil. Ümumiyyətlə, geosiyasi bloklara qoşulmaq məsələsi ölkənin iqtisadi səmərəliliyinin öndə olmasını tələb edir. Əgər iqtisadi səmərəlilik olmasa, bu haqda danışmaq mənasız olardı. Azərbaycan bu prosesdə siyasi motivlərdən yox, iqtisadi proyektlərdən gələn məqamları nəzərə alır. Azərbaycanın hazırkı mərhələdə Avrasiya İttifaqına üzv olmaq kimi bir planı yoxdur", - deyə politoloq qeyd edib.

Ekspert Şərqi Avropa dövlətlərinin bir qisminin kor-koranə qərbləşmək siyasətinin onlar üçün problemlər yaratdığını söyləyib. Onun sözlərinə görə, Azərbaycan bu ölkələrdən fərqli olaraq bütün bloklarla xoş münasibət yaradır və bundan faydalanır: "Moldova və Ukrayna vaxtilə MDB bazarından uzaqlaşmaqla özlərinə problemdən başqa heç nə yaratmadılar. Bu proseslərdə daha çox Ukrayna zərər çəkdi. İqtisadi və siyasi proseslər stabilliyi pozdu. Moldova onlara nisbətən stabil vəziyyətdədir. Bu səbəbdən o, çalışacaq ki, MDB bazarına giriş nöqtələrini bərqərar etsin. Moldova MDB ilə yenidən xoş əlaqələri Avrasiya İttifaqına qoşulmaqda görür. Azərbaycan üçün isə belə bir zərurət yoxdur. Hər bir ittifaqda üzv dövlətlər, sabit ölkələr, iqtisadi potensialı ümidverici olan məmləkətlərin olması onların müsbət potensialından xəbər verir. Ermənistanın Avrasiya İttifaqında olması ora heç bir pozitiv qazanclar gətirmir. Ümumilikdə isə Azərbaycan ittifaqda olan Belarus, Qazaxıstan, Rusiya üçün daha önəmlidir".

Qeyd edək ki, Moldova prezidenti İqor Dodon ölkəsinin Avrasiya İttifaqına qoşulmaq istədiyini vurğulayıb. Rusiyayönlü siyasətçi olan Dodon bununla da Kişinyovun Avropa Birliyindəki assosiativ üzvlüyünə son qoymağı planlaşdırır. Dodonun hələlik niyyəti qərbyönlü parlamentin kəskin müqaviməti ilə qarşılaşır. Avrasiya İttifaqının aparıcı üzvü olan Rusiya isə Dodonun niyyətini alqışlayıb. Kremlin fikrincə, Moldova ilə yanaşı, keçmiş postsovet ölkələri də Avrasiya İttifaqında birləşməlidir. Qərb mətbuatı artıq Rusiyanın bununla bağlı digər MDB ölkələrinə təzyiqləri artırdığını bildirir.

# Bu gün ölkə ərazisində yağmursuz hava olacaq

**Azərbaycanda bu günə olan hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında iyulun 14-də hava şəraitinin dəyişkən buludlu. Əsasən yağmursuz olacaq. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 21-24° isti, gündüz 31-36° isti, Bakıda gecə 22-24° isti, gündüz 33-35° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 759 mm civə sütunu. Nisbi rütubət gecə 70-75%, gündüz 50-55 % təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 22-23°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 23-24°,Türkan, Hövsan, Sahil, Şıxda 25-26° isti təşkil edəcək.

Əksər rayonlarda hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 33-38° isti, dağlarda gecə 11-16° isti, gündüz 20-25° isti olacağı gözlənilir.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Dağlıq Qarabağda "seçki" təyin olundu

**Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki işğalçı rejimin "parlamenti" iyulun 19-da "prezident seçkisi" keçirəcək. Qərar iyulun 13-də qəbul olunub. Novator.az-ın məlumatına görə, "prezident postuna" iki namizəd var: rejimin indiki başçısı Bako Saakyan və müxalifətçi Eduard Aqabekyan. Qələbə üçün 33 "deputatın" 21-nin səsini toplamaq gərəkdir.**



İşğalçı rejimin bu il fevralın 20-də qəbul etdiyi yeni "konstitusiya" ilə Dağlıq Qarabağ "prezident respublikası"na çevrilib. "Ümumxalq seçkisi"ndə 5 il müddətinə seçilən "prezident" icra hakimiyyətinə rəhbərlik edəcək. Prezident və parlament "seçkiləri" eyni gündə keçiriləcək. Bako Saakyanın səlahiyyət müddəti bu ay başa çatır. Növbəti "parlament seçkisi" isə 2020-ci ildə olmalıdır. Bu məqama görə işğalçı rejim "ana qanun"da keçid müddəası nəzərdə tutub. Keçid müddəasına əsasən, "prezidenti" "parlament" seçəcək və onun səlahiyyət müddəti 3 il olacaq. 2020-ci ildə isə "prezident" və "parlament" seçkilərini eyni gündə keçirmək nəzərdə tutulur.

52 yaşlı Bako Saakyan 2007 və 2012-ci illərdə "prezident" seçilib.

# Deputatlara veriləcək məzuniyyət vəsaitinin miqdarı məlum olub

**Azərbaycan Milli Məclisi iyulun 15-dən yay tətilinə çıxır. APA-nın məlumatına görə, parlamentin məzuniyyəti avqustun 30-da başa çatır. Parlamentin sədri, sədr müavinləri, komitə sədrləri və deputatlar üçün məzuniyyətlə bağlı veriləcək vəsaitlərin miqdarı artıq müəyyənləşib.**




Builki məzuniyyət müddətində sədrdən sıravi deputata qədər hər kəsə iki aylıq vəzifə maaşı miqdarında vəsait veriləcək. Hazırda Milli Məclisin sədri 2250 manat, sədrin birinci müavini bunun 90 faizi, digər müavinlər 85 faizi, komitə sədrləri 80 faizi, komitə sədrlərinin müavinləri 75 faizi, qalan deputatlar isə 70 faizi qədər maaş alırlar. Eyni zamanda onlara maaşlarından əlavə, maaşlarının 25 faizi qədər vergi tutulmayan vəsait ödənilir.

Qeyd edək ki, "Deputatın statusu haqqında" Qanuna görə, vitse-spikerlərin, komitə sədrlərinin (müavinlərinin) və deputatların maaşları spikerin maaşına əsasən hesablanır. Parlamentin payız sessiyası sentyabrın 30-da başlayacaq.

# Ağacları kəsən "JEK" rəisinin işi Baş Prokurorluğa göndərildi

**Ekoloji qanunvericiliyin tələblərinə riayət olunmasını yoxlamaq məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Ətraf Mühitin Mühafizəsi Departamentinin əməkdaşları tərəfindən növbəti araşdırma aparılıb. Bu barədə nazirliyin mətbuat xidmətindən məlumat verilib.**

Məlumata görə, aparılan araşdırma zamanı Xətai rayonu, Əbilov küçəsi 12 ünvanında, yaşayış binasının yan tərəfindəki yaşıllıq sahəsində yaşköküstə 12-24 sm diametrliyində tut, dəfnə, zeytun, ən cinsli 4 ədəd ağacın və 6 ədəd nar kolunun qanunsuz kəsildiyi aşkar edilib. Ağacların ərazidə tikinti aparan Xətai rayon Mənzil Kommunal Təsərrüfat Birliyi 85 saylı Mənzil Kommunal İstismar Sahəsinin rəisi Zahid Bədəlov tərəfindən kəsildiyi məlum olub. Lakin o, yaşıllıq sahəsində aparılan tikinti ilə bağlı hansısa bir sənəd təqdim etməkdən imtina edib. Faktla bağlı qanun pozucusu barəsində akt tərtib olunaraq ağac və kolların məhv edilməsinə görə ona 6600 manat məbləğində ziyan tətbiq edilib.

Qanun pozuntusu ilə bağlı məsələyə hüquqi qiymət verilməsi və Z.Bədəlov barəsində qanunamüvafiq tədbirlərin görülməsi məqsədilə toplanmış materiallar Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

Qeyd edək ki, hər hansı bir obyektin tikintisi ilə bağlı torpaq sahəsi ayıran orqan tərəfindən ərazidə yaşıllıq olub-olmaması nəzərə alınmalı, qanunvericiliyə uyğun olaraq həmin torpaq sahəsinin mövqe planı ETSN ilə əvvəlcədən razılaşdırılmalıdır. Lakin bu tələbə riayət edilmədən torpaq mülkiyyətçiləri tərəfindən torpaq sahələrinin ayrılması və tikinti aparılması nəticəsində yaşıllıqların məhvinə şərait yaradılır.



# İmtahana girən abituriyentlərə 8 məsləhət

**Bu gün 2-ci və 3-cü qrup üzrə ali məktəblərə qəbul imtahanı keçiriləcək. İmtahandan əvvəl abituriyentlər müəyyən gərginlik yaşayırlar və bu da suallara cavab zamanı onlara psixoloji təsir edir.**

Axar.az xəbər verir ki, təhsil eksperti Pərviz Ağalarov abituriyentlərə bu çətinliklərin öhdəsindən gəlmək üçün 8 məsləhət verib:

1. İmtahana sərbəst gedin, unutmayın, dünya 2012-ci il, 21 dekabrda dağılmadısa, hər hansı uğursuzluq olsa belə, həyat davam edəcək.
2. Heç bir halda cavab kartlarınızı kiməsə etibar etməyin.
3. Heç kimə düzgün cavab deməyin, unutmayın, siz rəqibsiniz.
4. Test suallarını diqqətlə oxuyun, tələsməyin.
5. Yaxşı bildiyiniz fəndən başlayın.
6. Bilmədiyiniz və şübhəli qaldığınız suallar üzərində baş sındırmayın ("vaxt qızıldır", sonra bu suallara qayıdarsınız).
7. Sürüşdürmələrə yol verməmək və vaxt qazanmaq üçün tapdığınız, düzgün hesab etdiyiniz variantı sual nömrəsinin yanında böyük hərflə qeyd edin.
8. Kodlaşdırmada diqqətli olun, ümumiyyətlə, diqqət və məsuliyyət uğurlarınızın açarı olacaq.

# Tiflisdən İrəvana sərt cavab: "Ümidinizi kəsin..."

**Tiflis İrəvan-Tiflis-Suxumi-Moskva dəmir yolunun açılması məsələsini nəzərdən keçirmir. Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Gürcüstan baş nazirinin Rusiya üzrə xüsusi nümayəndəsi Zurab Abaşidze söyləyib. Onun sözlərinə görə, Rusiya-Gürcüstan danışıqlarında Ermənistana tranzit dəhlizinin açılacağı ilə bağlı ümid verə biləcək məqam yoxdur.**

Qeyd edək ki, Ermənistanın nəqliyyat naziri Vaan Martirosyan tezliklə İrəvan-Tiflis-Suxumi-Moskva dəmir yolunun açılacağına ümid etdiyini bildirmişdi.

YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017

# ANS-in qapadılmasından 1 il ötür... Açılmaq şansı varmı?

## Mais Məmmədov: "ANS-in nəyə görə bağlandığını başa düşə bilməmişəm"

**İyulun 18-də ANS TV-nin qapadılmasının 1 ili tamam olacaq. Kanalın fəaliyyətinin dayandırılmasından ötən bir il ərzində keçirilən məhkəmə prosesləri də bir nəticə vermədi. Telekanal rəhbərliyinin iddiaları təmin edilmədi. Qeyd edək ki, ANS TV ilə yanaşı, ANS ÇM radiosu, anspress.az saytı və bu qurumun tərkibində olan digər media orqanlarının da fəaliyyəti dayandırıldı.**



Telekanal rəhbərliyi istipress.az saytını təsis etsə də, bu sayt öncəki uğurları təkrarlaya bilmədi. Çünki ANS TV-nin kollektivi də telekanalın fəaliyyəti bərpa edilməyincə digər kanallara üz tutmaq məcburiyyətində qaldı.

Hazırda ANS TV-nin tanınmış simaları Azərbaycan mediasının dörd bir yanına dağılıblar. Əfsanə Mehdiyeva, Aytən Abdulova və Natəvan Babayeva Azərbaycan Televiziyasında, Afət Telmanqızı və Ayşəm Rüstəmova Space TV-də, Kəmalə Əliisgəndərqızı və Rəşad Abbasov "İnteraz" telekanalında, Natiq Nailoğlu ARB TV-də, Vəfa Şəhlayi CBC TV-də, Rita Ömərova "Nar mobile" şirkətində PR menecer vəzifəsində, İlkin Kərimov "ASAN radio"da, Ləman Ələşrəfqızı "Azərxalça" ASC-nin mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışır.

Bəs görəsən, ANS telekanalının açılmasına ümid qalıbmı? Hazırda bununla bağlı danışıqlar gedirmi? Keçmiş ANS rəhbərliyinin bu barədə düşüncəsi necədir? ANS-in texnikası, arxivi ilə bağlı durum nə yerdədir?

Bu sualları "Yeni Müsavat"a açıqlamasında fəaliyyəti dayandırılan ANS Şirkətlər Qrupu prezidentinin müşaviri Mais Məmmədov cavablandırdı: "Biz ANS-in açılmasını istəyirik. Bunu kim istəmir ki? Xalq da istəyir. Sıravi vətəndaşlar da yolda məni görəndə soruşur ki, ANS açılacaqmı? Ancaq mən bu haqda bir söz deyə bilmərəm. Mən heç ANS-in nəyə görə bağlandığını da başa düşə bilməmişəm. Bizim terrorizmi təbliğ etdiyimiz doğru deyil. Bunu müəyyən etmək üçün təhlükəsizlik orqanları tərəfindən araşdırma aparılmalıdır. Biz ömür boyu jurnalist işləmişik. Bütün cəbhəni gəzmişik. Biz demirik ki, qəhrəmanıq. Mən 20 il idi ki, informasiya verirdim, çalışırdım. Ancaq indi heç nə edə bilmirəm. Məndən inciməyin, ancaq mətbuat da bu məsələdə susdu. Bizdə olan arxiv heç bir şirkətdə yoxdur. Həmin arxiv indi də durur. Bu bütün Azərbaycanın arxividir. Elə vaxt olacaq ki, o lazım olacaq. Biz televiziya idik, müharibə vaxtı biz kameramızla hər yerə gedirdik, real vəziyyəti çəkirdik".

**M.Məmmədov bildirdi ki, artıq əvvəlki kollektivdən çox az adam qalıb:** "Hərəsi bir yerdə işləyir, işləməlidirlər də. Hamının ailəsi var, uşağı var, xərcləri var. Hamının krediti var, gündəlik xərcləri var. Onları ödəmək üçün işləməlidirlər. Ancaq hamısının ürəyi ANS-lədir. Mənin ad günümdə hamısı zəng etmişdi, hamısı soruşur ki, nə isə müsbət xəbər varmı... And içirlər ki, biz ANS-in açılmasını gözləyirik, bu xəbəri eşidən kimi ANS-ə qaçacağıq. Ancaq hələ ki müsbət bir işartı yoxdur. Bizim də heç bir çıxış yolumuz yoxdur".

Xatırladaq ki, MTRŞ Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə Azərbaycan Respublikası Baş Prokurorluğunun 18 iyul 2016-cı il tarixli müraciətini, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 11, 23, 32-ci maddələrinin tələblərini rəhbər tutaraq "ANS Müstəqil Yayım və Media" Şirkətinin yayımının 18 iyul 2016-cı il tarixdən saat 18:30-dan etibarən 1 ay müddətinə dayandırılması barədə qərar qəbul edib. Həmin zamandan etibarən kanalın fəaliyyəti dayandırılıb.

❑ **Nərgiz LİFTİYEVA**

# Xırdalanda 6 yaşlı uşağa təcavüz edən manyak əvvəllər də bənzər əməllər törədibmiş

## Vəkili onun ruhi xəstə olduğunu deyir...

**Azyaşlı uşaqlara təcavüz etməkdə təqsirli bilinən şəxsin şizofreniya xəstəliyindən əziyyət çəkməsi ilə bağlı sənədlər üzə çıxıb. Həbs edilən şəxs sonuncu dəfə Xırdalan şəhərində azyaşlı qıza qarşı seksual hərəkətlər edərkən sakinlər tərəfindən yaxalanmışdı. Onun barəsində həbs-qətimkan tədbiri seçilib. Həbs edilən İbrahim Buqumovla bağlı bəzi yeni məlumatlar üzə çıxıb.**



Musavat.com-a danışan İ.Buğumovun vəkili Namiq Hacıyev hadisə barədə məlumat verib. O, müdafiə etdiyi şəxsin xəstə olması ilə bağlı sənədlər təqdim edib. Vəkil N.Hacıyev deyib ki, onun müdafiə etdiyi şəxsin psixoloji problemləri var və uzun illərdir ki, müalicə alır.

Onun sözlərinə görə, İ.Buğumovda şizoferiniya paranold forma, fasiləsiz gedişli, dərin paranold xəstələyi var. O, dəfələrlə 1 saylı Respublika Psixiatriya Xəstəxanasında stasionar müalicə alıb. Sonuncu dəfə isə bu il mayın 24-də xəstəxanadan çıxıb. N.Hacıyevin dediyinə görə, həbs edilən Buğumovun bəzi yaxın ailə üzvləri də eyni xəstəliklərdən əziyyət çəkir. Vəkil müdafiə etdiyi şəxsin xəstəliyi ilə bağlı müvafiq qurumlardan aldığı sənədləri də təqdim edib.

Vəkil bildirib ki, müdafiə etdiyi şəxs barəsində sonuncu hadisədən sonra Abşeron Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Xatırladaq ki, Xırdalan şəhərində altı yaşlı uşağa təcavüz etmək istəyərkən tutulan İ.Buğumov sakinlər tərəfindən döyülüb. Polis onu güclə xilas edib. Buğumovun fotoları sosial şəbəkələrdə paylaşılıb. Bu hadisədən sonra məlum olub ki, İ.Buqumov eyni əməlinə görə qısa müddət əvvəl də cinayət məsuliyyətinə cəlb edilbmiş. Belə ki, 1979-cu il təvəllüdlü Buğumov İbrahim Xankərəm oğlu əvvəllər məhkumluq həyatı yaşayıb.

Buğumovla bağlı Abşeron Rayon Polis İdarəsinə Xırdalan sakini olan 3 nəfər tərəfindən edilən müraciət araşdırılıb. Sakinlər müraciətində manyakın 7-8 yaşlı uşaqların köməksiz vəziyyətdə olmasından istifadə edərək onlara qarşı seksual xarakterli zorakılıq hərəkətləri etdiyini bildirmişdilər.

Hökməli qəsəbə sakini İbrahim Buğumov 15 may 2015-ci il tarixdə, saat 20:45-də sərxoş vəziyyətdə Binəqədi rayonu, Azadlıq prospekti 185 saylı ünvanda binanın liftində 2009-cu il təvəllüdlü qıza qarşı seksual xarakterli hərəkətlər etmişdi.

Cinayət Məcəlləsinin 150.3.3-cü (təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində seksual xarakterli hərəkətlər etmək) maddəsi ilə ittiham elan edilən Buğumov Bakı Ağır Cinayətlər Məhkəməsinin 26 aprel 2016-cı il tarixli hökmü ilə 9 il müddətinə azadlıqdan məhrum edilmişdi.

Hökmdən narazı qalan İbrahim Buğumov apelyasiya şikayəti vermişdi. Bakı Apelyasiya Məhkəməsinin 22 iyul 2016-cı il tarixli qərarı ilə İbrahim Buğumovun əməli Cinayət Məcəlləsinin 153-cü (əxlaqsız hərəkətlər etmək) maddəsinə tövsiv edilərək cəzası 1 il 6 aya endirilmişdi. Ona təyin edilmiş cəza həbsdə yatdığı günlə hesablanıb və məhkəmə zalından azadlığa buraxılmışdı.

Amma bu qərardan da prokuror narazı qalmışdı. Prokurorun protesti ilə Ali Məhkəmə apelyasiya instansiyasının Buğumov barədə qərarını ləğv edərək işin yenidən apelyasiya instansiyasında araşdırılması barədə qərar qəbul etmişdi. İş materialları baxılması üçün yenidən Bakı Apelyasiya Məhkəməsinə qaytarıldığı ərəfədə Buğumov yenidən eyni əmələ görə həbs edilib.

Buğumovun davam edən məhkəmə prosesi ilə bağlı hakimlər kollegiyası təcavüz faktı ilə bağlı ekspertiza təyin edib. Ekspertiza rəyi açıqlanana qədər proses qeyri-müəyyən vaxtadək təxirə salınıb.

❑ **İ.MURADOV**

# "Mənzil veriləcək 255 jurnalistin adı müəyyənləşib"

## Vüqar Səfərli: "Açıqlanacaq siyahı media ictimaiyyəti üçün xeyli sürpriz vəd edir"



Vüqar Səfərli

**"KİV əməkdaşlarına mənzillərin verilməsi ilə bağlı yaradılmış komissiyaya daxil olmuş müraciətlərin araşdırılması artıq başa çatıb". Bunu APA-ya açıqlamasında Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru, KİV əməkdaşlarına mənzillərin verilməsi ilə bağlı yaradılmış komissiyanın sədri Vüqar Səfərli deyib.**

V.Səfərli bildirib ki, meyarlara tam uyğun gəlməyən şəxslər, əsasən jurnalistikaya aidiyyəti olmayan müxtəlif peşə sahibləri siyahıdan çıxarıldıqdan sonra qalmış 1000-ə yaxın şəxsin namizədliyi müzakirə edilib və ilkin olaraq 255 iddiaçının adı müəyyənləşib.

"Komissiya dövlət başçısının jurnalistlərə hədiyyəsi olan mənzillərin bölgüsündə hər hansı subyektivliyə yol verilməməsi üçün əvvəlcədən bəyan edilmiş şərtlərə ciddi riayət olunmasına qərar verib. Bunun nəticəsi olaraq üzərində həbs olan, rəhbərlik etdiyi və ya çalışdığı KİV-in adı Mətbuat Şurasının "qara siyahı"sında keçən, Baş Prokurorluq tərəfindən xəbərdarlıq almış KİV əməkdaşlarının müraciətləri nəzərə alınmayıb. Eyni zamanda regionlarda işləyən, sənədlərində ciddi çatışmazlıqlar olan və digər səbəblərə görə şərtlərə uyğun gəlməyən şəxslər müzakirədən kənarlaşdırılıb", - deyə V. Səfərli qeyd edib.

Həmçinin aidiyyəti orqanların xəbərdarlıqlarının müddət limitinin müəyyən olunması, həmin dövr ərzində qanunun tələblərini təkrar pozmayan KİV-lərin siyahıdan çıxarılması barədə qərar qəbul olunub.

Komissiya sədri onu da deyib ki, eyni yerdə 3 il fasiləsiz iş stajı kriteriyası redaksiyalardan daxil olan təqdimatlara aid edilib: "Fərdi qaydada olan müraciətlərə isə bu tələb şamil olunmayıb".

**V. Səfərlinin sözlərinə görə, açıqlanacaq siyahı media ictimaiyyəti üçün xeyli sürpriz vəd edir:** "Siyahıda çoxlu sayda medianın inkişafında danılmaz əməyi olan qocaman jurnalistlərin, müasir jurnalistikanın tanınmış qələm sahiblərinin, jurnalist ailələrinin, vəfat etmiş KİV nümayəndələrinin ailə üzvlərinin adları var".

**Komissiya sədri deyib ki, bir sıra hallarda daxil olmuş sənədlərdə zəruri məlumatların saxtalaşdırılmasına da rast gəlinib:** "Onların sırasında iş stajının süni şəkildə artırılması və bu məqsədlə əmək kitabçasına yanlış məlumatların daxil edilməsi, mənzil şəraiti və ailə tərkibi barədə düzgün məlumatların verilməməsi və s. məsələlər var. Belə hallar da müşahidə olunub ki, müraciət müəllifləri müxtəlif illərdə, o cümlədən 2017-ci ildə özünün və ailə üzvlərinin adına olan mənzillərlə bağlı alqı-satqı və bağışlama əməliyyatları keçiriblər və hazırda evsiz olduqlarını göstərməyə çalışıblar. Belə hallar müəyyən edildikdə həmin şəxslər siyahıdan çıxarılıb".

**V.Səfərli ölkə başçısının jurnalistlərin mənzil məsələsi ilə bağlı xüsusi tapşırıqlarının olduğunu da deyib:** "Cənab prezident jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər zamanı subyektiv yanaşmaya, xüsusilə də qeyri-qanuni əməllərə yol verilməməsi barədə ciddi tapşırıq verib. Tapşırığa əsasən, təqdimat verən şəxslərin - KİV-lərin, dövlət orqanlarının və s. qurumların rəhbərlərinin şəxsi mənafedən çıxış etməsi və neqativ əməllərə yol verməsi təsdiqini taparsa, onların təqdimatları ləğv ediləcək və özləri barədə ciddi cəza tədbirləri görüləcək".

**Qeyd edilib ki, prezident İlham Əliyev siyahıda dövlət orqanlarından daxil olan təqdimatların kəskin azaldılmasını və həmin mənzillərin ehtiyacı olan KİV əməkdaşları arasında bölünməsini də tapşırıb:** "Ümumilikdə isə gərgin iş nəticəsində bütün namizədlər hərtərəfli araşdırılıb və ən layiqli şəxslər seçilərək siyahıya daxil edilib".

Komissiya sədri bildirib ki, bu siyahı həqiqətən də jurnalist ictimaiyyətinin müsbət qiymətləndirməsinə layiqdir.

YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017

# Bakıda zibil çəninin ardından Göyçayda avtobus partladı

## İlham İsmayıl: "Bütün baş verənlər bizi bir qədər də diqqətli olmağa çağırır..."



**Bakının Nəsimi rayonunda zibil çənində güclü partlayışın ardından Göyçay rayonunda sərnişin avtobusunda yanğınla müşayiət olunan partlayış baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə iyulun 12-də 23:30 radələrində Göyçay şəhərindəki "Göyçay-Avtonəqliyyat" ASC-nin həyətində baş verib.**

Rayon sakini, 1963-cü il təvəllüdlü Bəhram Ağatalıb oğlu Səfərəliyevə məxsus Az 23 BJ 593 dövlət nömrə nişanlı, "Mercedes" markalı 50 yerlik sərnişin avtobusunun mühərrik yeri və salonu tamamilə yanaraq yararsız hala düşüb. Şəxsi avtobusu ilə Göyçay-Bakı marşrutu üzrə sifarişlər əsasında sərnişin daşıyan Bəhram Səfərəliyev bildirib ki, onun nəqliyyat vasitəsini qəsdən yandırıblar.

Hadisə yerinə FHN-in Göyçay Dövlət Yanğından Mühafizə Hissəsinin 3 yanğınsöndürən avtomaşını və canlı qüvvəsi cəlb edilib. Şəhərin mərkəzində baş verən yanğın söndürülüb və ətrafdakı avtobuslar, inzibati bina, ticarət mərkəzi və evlər yanğından mühafizə edilib. Faktla bağlı araşdırma aparılır.

Bakıda və Göyçayda baş verən partlayışlar arasında hər hansı bir əlaqə ola bilərmi? 2 gün fərqlə zibil çənində və avtobusda partlayışın baş verməsi təsadüf hesab edilməlidir, yoxsa partlayışlar xəbərdarlıq siqnalı kimi qəbul olunmalıdır?

**Sabiq təhlükəsizlik zabiti İlham İsmayıl hesab edir ki, zibil çənində və avtobusda baş verən partlayışları terror xəbərdarlığı kimi qəbul etmək düzgün deyil:** "Mümkündür ki, zibil çəninə idarələrdə, iş yerlərində istifadə olunan qaz balonunu atıblar. Terror etmək istəyənlər daha ciddi addımlar atarlar. Vaxtilə Biləsuvar rayonunda eyni gündə neft bazasında və yolda hərəkətdə olan həmin bazanın neft məhsulu daşıyan nəqliyyat vasitəsində partlayış olmuşdu. Hamı elə bilirdi ki, bu hadisələr terrordur. O vaxt bildirmişdim ki, bu hadisələr təsadüfdür. İndiki məsələlər də çox xırda məsələlərdir və terror deyil. Terror etmək istəyən sonucu çox təhlükəli olan addımlar atar. Hesab etmirəm ki, ard-arda baş verən partlayışlar xəbərdaredici partlayışlar olub. Kimi xəbərdar etmək istəyiblər? Hədəf kim olub? Dövləti xəbərdar etmək istəyibilər ki, bir qədər ayıq-sayıq olun? Hesab edirəm ki, hər iki partlayış təsadüfüdür. Amma bütün baş verənlər bizi bir qədər də diqqətli olmağa çağırır".

**İ.İsmayıl deyir ki, Yaxın Şərqdə İŞİD-in sıxışdırılması ümumilikdə regionumuz üçün böyük təhlükə yaradır:** "İŞİD ard-arda məğlub olmaqdadır. Mosuldan çıxdı, Raqqa yarımühasirə vəziyyətindədir. Sabah Suriyadan çıxmaq məcburiyyətində qalan İŞİD-çilər Şimali Qafqaza üz tutacaqlar. Şimali Qafqaza qayıdanlar arasında azərbaycanlıların olacağı da birmənalıdır. Onlar da gizli yollarla vətənə dönəcəklər. Biz buna hazır olmalıyıq. Çünki döyüşlərdən keçmiş, təlim görmüş yaraqlılar hansısa zibil qabından, rayon avtobusundan istifadə etməyəcək. Buna daha ciddi hazırlaşmaq, daha ciddi önəm vermək lazımdır. Çünki İŞİD-çilərin ölkəyə dönmə ərəfəsindəyik".

**İ.İsmayıl deyir ki, 2 gün fərqlə baş verən partlayışlar istənilən halda əməliyyat yolu ilə araşdırılır:** "Hərtərəfli yoxlamalar aparılır. Bəzən məsələlərə təbii baxmaq lazımdır. Aydındır ki, bütün dünyanı terror bürüyəndə balaca bir şar da partlayanda elə təsəvvür yaranır ki, kimsə partlayış törətdi. Bakıda qara çadrada qadınları görəndə belə ehtiyat edib kənara çəkilənlər var ki, bəlkə canlı bombadır, haranısa partladacaq. Belə şəxsləri də qınamıram. Amma bəzi hallarda məsələlərə təbii yanaşmaq və ayıq-sayıq olmaq vacibdir".

**İ.İsmayıl deyir ki, Azərbaycanın xüsusi xidmət orqanları ölkəyə qayıdacaq İŞİD terrorçularını qarşılamağa hazırdırlar:** "Bunu xüsusi xidmət orqanlarının bir-birinin ardınca keçirmiş olduqları əməliyyat tədbirləri də təsdiq edir ki, baş verə biləcək təhlükələrə hazırdırlar. Amma dünyanın heç bir ölkəsi terrordan sığortalanmayıb. Dünyanın heç bir ölkəsi, ümumiyyətlə, bütün təhlükələrin qarşısını almaq iqtidarında deyil. Bu gün Rusiyada çox ciddi şəkildə İŞİD-çilərin geriyə dönmə ehtimalı müzakirə olunur. İŞİD-in tərkibində Şimali Qafqazdan olanların xüsusi çəkisi var. Rus mətbuatında hətta həmin geri dönən İŞİD-çilərdən Rusiyaya qarşı istifadə oluna biləcəyi ehtimalı da yer alıb. Ona görə də Azərbaycan hədəf göstərilməsə də, qonşuluğumuza qayıdacaq İŞİD-çilər ölkəmiz üçün də təhlükə mənbəyidir. Bu mənada baş verə biləcək təhlükələrə hazırlıqlı olmaq vacibdir".

❑ E.MƏMMƏDƏLİYEV

# Partiya sədrindən çağırış: "Tağı Əhmədov təcili həbs olunmalıdır"

## "Bu adam Azərbaycan xalqından 200 milyon dollar oğurlayıb, həmin məbləğ ondan alınıb büdcəyə yönəldilməlidir"

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarov Bakı Metropoliteninin keçmiş rəisi Tağı Əhmədovun son dərəcə ilginc korrupsiya cinayəti haqda faktları sadalayıb. Bildirib ki, ölkə rəhbərliyinin tapşırığı əsasında Tağı Əhmədov nəzarətə götürülüb, fəaliyyəti araşdırılıb. Məlum olub ki, T.Əhmədov büdcədən metropolitenə ayrılan milyonlarla manat pulu oğurlayıb və Xarici İşlər Nazirliyində çalışan oğlu Ruslan Əhmədov vasitəsilə offşor hesablara köçürüb.**

Metro stansiyalarının giriş-çıxışındakı ticarət obyektlərindən T.Əhmədovun hakim olan oğlu Rauf Əhmədov adamları vasitəsilə hər üç ayda 5 milyon dollara yaxın vəsait toplayıb, həmin vəsaitin çox cüzi bir hissəsi-ildə 120 min manat T.Əhmədovun cibinə getməyib. Pulların böyük hissəsi isə T.Əhmədovun Dubaydan Moskvada qədər səpələnən biznes obyektlərinə, çoxsaylı əmlakların, bağ evlərinin, şadlıq saraylarının alınmasına xərclənib, ölkə daxilindəki bank hesablarına köçürülüb. A.Çovdarov deyib ki, T.Əhmədovun korrupsiya cinayətləri araşdırılarkən onun ümumilikdə 200 milyon dollara yaxın vəsaiti ələ keçirdiyini müəyyən ediblər. Həbsdəki general böyük büdcə pullarını mənimsəyən T.Əhmədovun həttə büdcədən və metropolitenin elektrik enerjisinə görə ödənməli olan 4 milyon manata da əl uzatdığını, həmin məbləği də oğurladığını deyib.

**"Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayev "Yeni Müsavat"ın sorğusuna cavab olaraq deyib ki, hazırda metropolitenin hər hansı bir dövlət qurumuna borcu yoxdur:** "2014-cü ildə cənab prezident Zaur Hüseynovu metropolitenə sədr təyin etdi. Tapşırdı ki, vəzifəsinin öhdəsindən layiqincə gəlsin. Ümumilikdə metropolitenin problemləri vardı və cənab prezident dəyişiklik etməklə həmin problemlərin həllinə nail oldu. Hazırda metropolitenin heç bir dövlət qurumuna borcu yoxdur".



Tağı Əhmədov



Hafiz Hacıyev

**A.Çovdarovun məhkəmədə açıqladığı korrupsiya faktlarına T.Əhmədovun həyat yoldaşı Salatın Əhmədova münasibət bildirib. S.Əhmədova azvision.az-a deyib ki, həbsdə olan generalın Tağı Əhmədovun xaricdə mülklərinin və milyonlarla dollar dəyərində sərvətinin olması haqda məhkəmədə səsləndirdiyi fikirlər şər-böhtandır:** "Bütün bu məlumatlar yalandır və həqiqəti əks etdirmir. Nə qədər şər-böhtan demək olar..."

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev isə deyir ki, A.Çovdarov həbsdə olsa da, onun söylədikləri həqiqətdir və araşdırılmalıdır:** "Akif Çovdarov sıradan bir şəxs deyil. Onun uzun illər rəhbərlik etdiyi idarə nəqliyyat sahəsində baş verənləri araşdırmaq səlahiyyətində olub. Tağı Əhmədovun həyat yoldaşının, özünün, 2 oğlunun nə deməsindən asılı olmayaraq Akif Çovdarovun məhkəmədə dedikləri dərhal cinayət işi başlanmaqla araşdırılmalıdır. Əlbəttə ki, Tağı Əhmədov çıxıb deməyəcək ki, 200 milyon dolları Azərbaycan xalqının cibindən oğurlamışam. Əslində faktlar ortalıqdadır. Qalır bir qovluq götürüb həmin faktları çap edib cinayət işinin vərəqləri kimi qovluğa yığıb təsdiqlətmək. Məhkəmə Tağı Əhmədovun barəsində həbs qərarı verməlidir. O vəzifədən çıxarıldı, maskalandı və getdi Yeni Azərbaycan Partiyasına, oldu Yasamal təşkilatının sədri. Həmin post ona zireh, həbs olunmamaq üçün lazım idi. Bu gün dövlət başçısına xəyanət edənlərin əksəriyyəti YAP üzvləridir. Məsələn, "Rabitə işi"ni götürək. Məlum oldu ki, YAP-ın Mərkəzi Nəzarət Təftiş Komissiyasının sədri, "Aztelekom"un sabiq rəisi Məhəmməd Məmmədov böyük korrupsiya ilə məşğul olub, büdcə pullarını oğurlayıb. Məhəmməd Məmmədov bu gün həbsdədir. Tağı Əhmədovu da təcili olaraq onun yanına göndərmək lazımdır. Əgər YAP-ın İdarə Heyəti varsa, təcili şəkildə onun məsələsini qoyub hakim partiyadan çıxarmalıdırlar. Bu adam Azərbaycan xalqından 200 milyon dollar oğurlayıb, bu məbləğ ondan alınıb büdcəyə yönəldilməlidir".

**H.Hacıyev deyib ki, T.Əhmədovun mənimsədiyi büdcə pulları ilə təqaüdçülərin böyük qisminin təqaüdünü artırmaq olardı:** "Yaltaqlana-yaltaqlana ölkəni talan ediblər, iqtisadiyyatı çökdürüblər. Düşünürəm ki, Tağı Əhmədov haqda deyilənlər yalan ola bilməz. Akif Çovdarov deyir ki, Tağı Əhmədovun mütəşəkkil cinayətkar dəstəsinin üzvləri metropolitendə büdcə pullarını oğurlayanda videolarını çəkiblər. Bundan yaxşı sübut, fakt ola bilərmi? Gedib Rusiyada köhnə vaqonları "kraskalayıb" Azərbaycan dövlətinə yeni vaqon adı ilə satıblar. Köhnə vaqonla yenisi arasında fərqi Baş Prokurorluğun qapısında dayanan polis işçisi də müəyyən edə bilər. Tağı Əhmədovun oğurladığı 200 milyon dolları manata çevirsək və sosial layihələrə yönəltsək, təqaüdçülərin, aztəminatlı ailələrin gəlirlərini artırmaq olar. Azərbaycan həmin 200 milyon dollara nə qədər müasir tank, silah-sursat ala bilər. Məsələyə çox ciddi yanaşılmalıdır. Tağı Əhmədov həbs edilməsə, onun kimi vəzifədə olub oğurlamaq imkanı olan hər kəs ürəklənəcək, iştahlanacaq, deyəcək ki, Tağı Əhmədova nə etdilər ki, mənə də etsinlər və başlayacaq büdcə pullarını oğurlamağa. 200 milyon dollar böyük vəsaitdir. Azərbaycanın indiki durumunda həmin pullarla ölkədə turizm sektorunu qaldırmaq olar. Bu günə qədər Azərbaycanın büdcəsindən oğurlanan 150 milyard pulun 200 milyon dollarının yeri bilinib - Tağı Əhmədovun cibində imiş!"

**H.Hacıyev deyir ki, həbs edilməli olan təkcə Tağı Əhmədov deyil:** "Akif Çovdarov açıq-aşkar deyir ki, 18 milyon dollar pulu Tağı Əhmədovun Xarici İşlər Nazirliyində çalışan oğlu Ruslan Əhmədov xaricdəki offşor hesablara köçürüb. Metropolitendəki ticarət köşklərindən gələn pulları Tağı Əhmədovun hakim oğlu Rauf Əhmədov yığıb, toplayıb. Deməli, Tağı Əhmədov özünün korrupsiya cinayətlərinə hər iki oğlunu da şərik edib, mütəşəkkil cinayətkar dəstə yaradıb. Həmin dəstənin vasitəsi ilə büdcə pullarını mənimsəyib, büdcəyə yönəlməli olan pulları ələ keçirib. Buna görə də Tağı Əhmədovla yanaşı onun iki oğlu da korrupsiya cinayətlərinə görə həbs olunmalıdırlar. Tağı Əhmədov YAP-dan daldalanacaq kimi istifadə edir. Düşünürəm ki, mənim əziz qardaşım cənab prezident bu məsələdə qətiyyətli mövqeyini ortaya qoyacaq, xalq arasında danışılanları tamamilə təsdiq edəcək, deyəcək ki, qanun hamı üçündür. Bu gün Azərbaycanda qanun kasıblar üçündür. Akif Çovdarov Tağı Əhmədovun var-dövlətini, pul-parasını sadaladıqca adamın başının tükləri qalxır. Bu qədər mal-mülkü Tağı Əhmədov 1500-2000 manat maaşla yığıb toplaya bilməzdi axı! Oğurlayıb! Cənab prezident müşavirədə dedi ki, məmurlar nümunə olmalıdırlar. Tağı Əhmədov çox pis nümunədir. Büdcəni oğurlayan məmur kimi cinayət məsuliyyətinə cəlb edilməlidir. Biz dövlət başçısının yanındayıq, onun siyasi kursunu müdafiə edirik. Məhz buna görə də bu həqiqətləri deyirik".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017

**Xalq artisti Brilliant Dadaşova daha bir səs-küylü qalmaqalın cənginə düşüb. Belə ki, onun erməni qarmon ifaçısı Varujan Şahbazyanla isti münasibətləri ortaya çıxıb. Əvvəlcə xalq artistimizin erməni ifaçısının qarmonda ifasını bəyənib, rəy bölməsinə "super" yazmağı aşkarlanıb. Qarşılığında erməni ifaçısı da ona cavab olaraq "Çox sağ ol, əzizim" yazıb. Daha sonra isə məlum olub ki, bu, xalq artistinin həmin erməni sənətçi ilə ilk yazışmaları deyilmiş.**



# Zəhra üçün susub erməniyə sevgi göstərən xalq artisti ictimai qəzəbə gəldi

**Baloğlan Əşrəfov:** "O haqda heç danışmaq istəmirəm"
**Aftandil İsrafilov:** "Erməni İrəvandan yanıma gəlmişdi ki, ona qarmon ifaçılığını öyrədim..."
**Akif Nağı:** "Tamamilə biabırçılıq, rüsvayçılıqdır!"
**Azad İsazadə:** "Ermənilər üçün türk düşmən obrazı 100 ildən artıqdır ki, var"



Sən demə, bundan əvvəl də Brilliant Dadaşova erməni ifaçısının statuslarını bəyənib, qısaca da olsa şərhlər bildirib, paylaşımların altına əl və ürək işarələri düzüb. Sənətçinin bu davranışı həm sosial şəbəkə istifadəçilərinin, həm də ictimaiyyət nümayəndələrinin qəzəbinə tuş gəlib. Əksəriyyət bir neçə gün bundan əvvəl erməni mərmisi ilə dünyasını dəyişən 2 yaşlı Zəhra və onun nənəsi üçün heç nə yazmayan və heç nə paylaşmayan, lakin erməni ifaçısını bəyənən xalq artistinin adına utanc olduğunu qeyd edib.

Məsələ ilə bağlı müğənninin mövqeyini öyrənmək mümkün olmayıb. Belə ki, o, telefon zənglərinə cavab vermir. Sosial şəbəkədə isə heç nə olmamış kimi məşhur "A ya jivu krasivaya kak ya xoçu" mahnısını paylaşıb.

Bununla belə, az sonra bəlli olub ki, müğənni mətbuatda dərc edilən yazıların ardınca erməni ifaçısının paylaşımlarına yazdığı şərhləri silib. Eyni zamanda "İnstagram"dakı "brilliant_dadashova" adını dəyişərək "brilliant_dadashova_official" edib. Sənətçi həmin şərhləri istifadə etdiyi profildən yazmadığını göstərməyə çalışıb. Bundan sonra erməni ifaçısı Varujan da sosial şəbəkədə profilini bağlı edib. Şahbazyanın B.Dadaşovanın istəyi ilə bu cür addım atdığı ehtimal olunur. Varujan B.Dadaşovanı izləyənləri siyahısından da çıxarıb.

Onu da qeyd edək ki, ictimaiyyətdə xalq artistini tənqid edənlərlə yanaşı, ona dəstək olanlar da tapılıb. Bəziləri müharibənin sənətə, mədəniyyətə aidiyyəti olmadığını əsas gətirərək, onu qınayanları özünü tənqid ediblər.

**Əməkdar artist Baloğlan Əşrəfov "Yeni Müsavat"a açıqlama verərək qeyd etdi ki, sənəti heç nəyə qarışdırmaq olmaz:** "Amma o millətin ki insanları mənim ana-bacılarıma, körpələrimə aman vermir, onları güllələbaran edir, onların sənəti mənim üçün nəinki maraqlıdır, o millətdə adam tanımaq istəmirəm - hətta dünyada çox məşhur olsa belə. Bəlkə də məni bu sözlərimə görə qınayacaqlar, lakin təriflayə bilmərəm. Mənim dayım oğlu gənc yaşında müharibəyə getdi, ermənilər onu öldürdü. Onun adına kənddə məktəbimiz də var. Bunları görə-görə necə tərifləyə bilərəm?"

**Sənətçi ermənilərlə dostluq edən həmkarları haqda danışmaq istəmədiyini bildirib:** "Onlar mənim hörmət etdiyim müğənnilər, çoxu sevdiyim insanlardır. O haqda heç danışmaq istəmirəm".

**Xalq artisti, qarmon ifaçısı Aftandil İsrafilov isə qeyd etdi ki, erməni qarmon ifaçıları daim Azərbaycan musiqisindən və musiqiçilərindən bəhrələnib:** "Azərbaycan musiqisi bütövlükdə erməni xalqı üçün dərman kimi olub. Onlar bizim musiqilərimizdən bəhrələniblər. Hətta sovet dövründə bir erməni İrəvandan yanıma gəlmişdi ki, ona qarmon ifaçılığını öyrədim. Amma öyrətmədim, bir qədər yol göstərdim, o da getdi. Yeni onlar qarmon ifaçılığını bizdən öyrəniblər. İstər muğam, istərsə də digər rəqslərimizi öyrənib sonra da ifa edirlər".

**QAT sədri Akif Nağı isə müharibənin sənətə, mədəniyyətə aidiyyəti olmaması ilə bağlı fikirlərlə razılaşmadığını bildirdi:** "Onda hər kəs öz yaxasını kənara çəkəcək, siyasətçilər, QHT nümayəndələri, sənətçilər deyəcək ki, bu məsələ bizə aid deyil. Bu, nə deməkdir?! Cəmiyyətdə istənilən sahənin nümayəndəsi Azərbaycan vətəndaşıdır. Deməli, Qarabağla bağlı ancaq müəyyən təşkilatlar ortaya çıxıb etiraz etməlidir? Bu nə mövqedir?"

**Akif Nağı qeyd etdi ki, xalq artisti Brilliant Dadaşova qalmaqala aydınlıq gətirməlidir:** "Onlar bu cür işlərlə gizlincə məşğul olurlar. Zaman-zaman ortaya çıxanda özlərinə bəraət qazandırmağa çalışırlar. Qətiyyən yol verilməzdir! Xüsusən də 2 yaşlı körpənin qətlə yetirildiyi bir vaxtda. Belə bir məqamda erməni sənətçisi ilə yazışmaq, bir-birilərinə "sevgi" nümayiş etdirmək Azərbaycan vətəndaşına yaraşmayan hərəkətdir. Ermənilərin törətdikləri bütün vəhşiliklər heç vaxt unudulmamalıdır. Ermənilər torpaqlarımızdan rədd olub getməlidirlər ki, biz düşünək ki, onları bağışlamaq olar, ya yox. Yoxsa ki, torpaqlarımız işğal altındadır, üstəlik, özlərini heç günahkar saymır, bizimkilər də onlarla iş birliyi, xoş münasibət qururlar. Tamamilə biabırçılıq, rüsvayçılıqdır. Və cəmiyyət tərəfindən bu cür olaylar birmənalı şəkildə qınanılmalıdır".

Qeyd edək ki, ictimaiyyətdə bu cür olay ilk dəfə deyil. İki il bundan əvvəl xalq artisti Flora Kərimova da bu cür qalmaqal yaşamışdı. Müğənni Bakı ermənisi olan Boka (əsl adı Arkadyeviç Davidyandır) haqda xoş sözlər dediyi üçün tənqidlərlə üzləşmişdi. Xalq artisti Ramiz Novruzun stilist qızı Şəfəq Novruzovanın erməni həmkarı Georgi Kota qarşı açıq-aşkar, çəkinmədən nümayiş etdirdiyi sevgisi uzun müddət müzakirələrə səbəb olmuşdu.

**Maraqlıdır, torpaqlarımızın işğal altda qaldığı, müharibə şəraitində yaşadığımız bir dövrdə düşmənlə təmas qurmaq, onunla dostluq münasibətində olmaq nə dərəcədə doğrudur?**

**Psixoloq Azad İsazadə məsələyə bu cür münasibət bildirdi:** "Ümumiyyətlə, ictimaiyyətdə bir düşmən obrazı var. İstər bizdə, istəsə də qarşı tərəfdə. Bizdə düşmən obrazı ermənidir. Bu, mühüm bir problemdir və onu hansısa şəkildə prinsipial olaraq həll etməliyik. Aydındır ki, nə vaxtsa, bəlkə də yaxın gələcəkdə bu düşmən obrazı ortadan götürmək lazım olacaq. Çünki istər-istəməz Ermənistan qonşu dövlətdir. Beləliklə, ya düşmən obrazını azaltmaq, ya da aradan götürmək lazımdır. Bu məsələ sözsüz ki, dövlət səviyyəsində həll olunmalıdır. Başa düşülür ki, nə vaxtsa biz psixoloqlar, sosioloqlar, o cümlədən mədəniyyət xadimləri bu düşmən obrazının üzərində işləyib ya onu silməli, ya da ki, şişirtməliyik. Son 20-30 ildə bu düşmən obrazı bizdə çoxalıb. Əgər nə vaxtsa bu obrazı ortadan götürəcəyiksə, onda yavaş-yavaş onu ortadan qaldırmalıyıq. Ermənilər üçün türk düşmən obrazı 100 ildən artıqdır ki, var. Və onlar bu obrazla yaşayırlar. Buna baxmayaraq, ermənilər Türkiyəyə gedir, orda istirahət edir və ya biznes əlaqələri qururlar. Siyasətçilər cürbəcür sülh platformaları yaradırlar. Bəzən Azərbaycan rəsmi olaraq o platformaları dəstəkləyir. Yəqin ki, burda da məsələni birmənalı həll etməməliyik".

❑ **Xalidə GƏRAY**



## İcra başçılarının son payızı - "əlvida, vəzifə!.."

Prezident İlham Əliyev icra başçılarına 4 ay vaxt verərək fəaliyyətlərində dönüş yaratmalarını tələb etdi; büdcə pullarına və rayonlara ayrılmış dotasiyaya göz dikən icra başçıları gedəcək...

**Prezident İlham Əliyev iyulun 12-də Nazirlər Kabinetinin geniş müşavirəsində yaxın aylarda komandada ciddi kadr islahatlarının başlayacağı barədə xəbərdarlıq edib. Prezident çıxışında ölkə iqtisadiyyatına özəl sərmayələrin artırılmasının vacibliyi haqda danışıb, bu məsələdə təkcə mərkəzi icra orqanlarının deyil, yerli icra orqanlarının da üzərinə məsuliyyətin qoyulduğunu xatırladıb.**

**Prezident çıxışında deyib:** "Özəl sərmayənin cəlb edilməsi üçün təkcə mərkəzi icra orqanları məsuliyyət daşımırlar, yerli icra orqanları da, mən bunu demişəm, bir daha demək istəyirəm ki, daha fəal olmalıdırlar. Xüsusilə bölgələrdə investisiyaların cəlb etmək üçün icra başçıları gərək fəal olsunlar. Bəzi yerlərdə bu fəallıq, nəticələr var, amma bəzi yerlərdə bu fəallıq yoxdur, biganəlik var".

**İlham Əliyev onu da bildirib ki, bəzi hallarda yerli icra orqanları investorlara kömək etmək əvəzinə problemlər yaradırlar, nəticədə özəl investisiyalar iqtisadiyyatdan yayınır.** "Bunlara son qoyulmalıdır. İlin sonunda - dekabr ayında Prezident Administrasiyası və İqtisadiyyat Nazirliyi mənə məlumat, siyahı verməlidir ki, hansı rayonda nə qədər özəl sərmayə cəlb olunub. Hər bir icra başçısının işinə, o cümlədən bu göstəriciyə görə qiymət veriləcək. Mən müşavirələrin birində də demişəm ki, icra başçılarının fəaliyyətinə, o cümlədən bu göstəriciyə görə qiymət veriləcəkdir. Bir daha deyirəm ki, dekabrın 15-də mənə geniş arayış təqdim edilsin və ondan sonra həm yüksək qiymət veriləcək, həm də cəza tədbirləri görüləcək", deyə, prezident xəbərdarlıq edib.

Prezidentin əksər rayon icra başçılarının fəaliyyətsizliyindən narazı olması barədə bir neçə gün əvvəl "Yeni Müsavat" da yazmışdı. "İcra başçıları təlaşda" sərlövhəli yazıda bildirilirdi ki, iki-üç rayon istisna olmaqla, əksər icra başçıları prezidentin bölgələrə investisiya cəlb edilməsi ilə bağlı tapşırığı yerinə yetirə bilməyib. Fərqlənən rayon icra başçıları isə yalnız şəxsi əlaqələr hesabına Rusiyanın vilayətləri ilə əməkdaşlıq müqavilələri imzalayıb, qarşılıqlı biznes mühitini canlandırmağa çalışıblar. Əksər icra başçıları ənənəvi "kabinet siyasətindən" əl çəkməyiblər.

Mərkəzi hakimiyyətin ümidini doğrultmayanlar əsasən aran və sərhəd rayonlarıdır. Onlar rayonların iqtisadi potensialına baxmayaraq, ötən aylar ərzində heç bir irəliləyişə nail ola bilməyiblər. Rayona sərmayə cəlb etmək, yeni iş yerləri açmaq, yerli əhalinin problemlərinə daha həssas və çevik münasibət göstərmək əvəzinə, bəzi rayonlarda əksinə, narazılıqlar da artıb. Bu isə iqtidarın yaxınlaşmaqda olan seçki ilində qarşıya qoyduğu siyasi və iqtisadi strategiyaya ziddir.

Aydındır ki, prezidentin konkret vaxt qoyaraq icra başçılarına maksimum 4 ay vaxt verərək fəaliyyətlərində dönüş yaratmalarını tələb etməsi düşünülmüş xətdir. Dövlət başçısı hakimiyyət üçün çox mühüm olan 2018-ci ilə dövlətə heç bir xeyir gətirməyən, əksinə, yenə də büdcə pullarına və rayonlara ayrılmış dotasiyaya göz dikən icra başçılarının yola davam etməyəcəyini açıq şəkildə ifadə edib. Bildirilir ki, Yevlax, Balakən, Ağcabədi, Beyləqan, Ağdam, Ağstafa, Bərdə, Biləsuvar, Göyçay, Neftçala, Saatlı, Salyan, Şamaxı, Şəmkir və Astara rayonlarının icra başçılarının adları "qara siyahı"da ilk sıradadır. İndi prezidentin açıq mətnlə dediyi müddətdə ya rayonlarda əsaslı dönüş yaradılmalı, ya da "əlvida vəzifə" barədə düşünülməlidir.

4 ay isə o qədər də uzun müddət deyil...

❑ **"YM"**



# Oğlunu buraxın, generalı tutun...

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Bir adam düşünün ki, oğlu avtoşluq edib adam öldürsün, amma bütün imkanlarından istifadə edib, iki ildən sonra onu azadlığa buraxdırsın. Sonra avtoşluq edən oğula daha bahalı maşın, daha yüksək imkanlar versin. Yaşıl işıq yandırsın ona hər yerdə. O da həmin sürətlə bu dəfə gedib bir avtobus sürücüsünü döysün. Səs-küy yayılsın, adamı işdən çıxarsınlar, oğulu da tutsunlar.**

Kinonun ağlamalı hissəsi isə bundan sonra başlasın. Cem Yılmaz demiş, "suvama" bölümü. Qosqoca general desin ki, üç övladımın üçünü də prezidentin ayağı altında qurban verməyə hazıram. Nə atalıq, nə general qüruru var ortada. Bir ataya bu sözü dedirtmək üçün hansı şərtlər yaradılmalıdır, mən bilmirəm. Amma adam istər-istəməz düşünür ki, bu sözü deyən atanın oğlu məhz xuliqan olmalıdır, qaniçən, qəddar böyüməlidir. Avtobus sürücüsünü hikkə ilə 8 dayanacaq təqib etməli, içəridəki sərnişinlərin həyatını heçə sayıb eqosunun arxasınca düşməlidir. Atasının bir təhlükə zamanı qurban verirəm deməyə çəkinmədiyi oğul da yadların həyatını o cür qurban verməyə özündə haqq, içində güc tapmalıdır.

Mən o oğulu qınamıram desəm... Ciddi şəkildə. Hər uşaq valideynlərinin əsəridir. Generalın işdən çıxarılmasına ona görə haqq verirəm. Oğul tərbiyə edə bilməyən adam öz rütbəsinin məsuliyyətini necə dərk edə bilər? Əslində isə tipik azərbaycanlı mənzərəsidir. Psixoloqlar demiş, yaşadığımız hər şey uşaqlıq travmalarının nəticəsidir. General müsahibə verib ki, mən 6 yaşımda atamı itirmişəm, öz gücümə oxumuşam. Hətta fəhləlik etmişəm. Və bunu deyəndə öz şanlı keçmişi ilə qürur da duyur. Haqlıdır. Amma bir yerə qədər. Əgər zəhmətlə nələrəsə nail olubsa *(ki, Azərbaycanda çox nadir hallarda bunun örnəkləri olur)* bunu övladına da öyrətməli idi. Nəyə görəsə özü çətin həyat yolu keçmiş insanlar övladlarına münasibətdə çox bəsit təfəkkürdə olurlar. Onlara elə gəlir ki, balaları həmin çətin yolu keçməməlidir. Əksinə, yaşıl işıqları özləri yandırırlar o uşaqların qabağında. Həm də haqsız yaşıl işıq. Məsələn, özünün maşını 40 yaşında olubsa, oğluna yaşı 16 olan kimi maşın alır. Özü günü 2 manata fəhləlik edibsə, oğlunun cibinə gündəlik 2 min manat xərclik basır. *(Bəlkə də daha çox. Evdə bişməyib, qonşudan gəlməyib. Nə bilək?)* 16 yaşında maşın sürən, cibində minlərlə manat pul olan, adam öldürüb, ikicə il sonra eyni qansızlığa meyl edən oğlanda günah yoxdur axı. Günah onun atasındadır. Əsər və onu yaradan... Məsələ bu qədər bəsitdir...

Bizdə azərbaycanlılar oğullarının avtoşluq etməsi, qız tovlaması, lap elə saysız-hesabsız kef məclisləri qurması ilə qürur duyurlar. Alt şüurda belə bir təsəlli olur: "Kişidi də. Bunları etməsə ayıb olar". Mən əminəm ki, hadisə yayılmasa, səs-küy qopmasa general öz oğlunun qəbahətini yüz faiz bir bəhanə ilə qapadacaqdı. Mən əminəm ki, son günlərin əsas "qəhrəmanı" Novruzəli Orucov da oğlunun bu əməllərindən xəbərdar olub. Ya uşağın anası, ya da yaxın ətrafı onu balasının bu qudurğanlıqları barədə xəbər verəndə, başını bulayıb, içində aşıb-daşan qürur hissinin müşayiəti ilə, bəlkə də yalandan hirsli səs tonunu da qataraq "kopoğlu" deyib. Məsələ də beləcə qapanıb. Sonrası? Bay-bay kreslo...

O boyda hay-həşir qopub. Kreslo gedib işinin dalınca, oğul türmədə, qohum-qardaş təlaşda. Üz döndərən kim, vay-şüvən qoparan, yas tutan kim. Bu qalmaqalda şanlı generalımız avtobus sürücüsünə zəng edib ki, bundan sonra müsahibə verməsin, səsin də çıxmasın. İndi siz bildinizmi niyə adam 3 uşağını qurban verməyə hazırdı? Yığdığı milyonlara görə. İtirə biləcəklərinə, əlindən alınacaqlara görə. Yayıla bilən hər əlavə informasiya "pul balışını" daha da nazildə bilər axı. Can şirin şeydir, amma deyəsən, var-dövlət ondan da şirindir...

Adam elə təkcə bu müsahibəsinə görə suçludur. Sonra sürücüyə zəng edib, göz dağı verdiyinə görə. Ən əsası ilə elə oğul böyütdüyünə görə. Odur ki, oğlunu buraxın, generalı tutun. Gerçək suçlu azadlıqdadır.

# "Vəzifəli şəxslər, icra başçıları prezidentin çıxışından nəticə çıxarmalıdır"

## Vahid Əhmədov: "Rayon icra hakimiyyəti orqanları başa düşməlidirlər ki..."

**İyulun 12-də Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. İclasda prezident İlham Əliyev ilin ilk 6 ayında ölkəmizin istisadiyyatında müşahidə olunan tendensiya barədə bütün sahələrdəki durumu əks etdirən geniş çıxış edib.**

Prezident çıxışında inkişafla yanaşı bir sıra rayonlarda məhsuldarlığın azlığından da danışıb, rayonların rəhbərlərinə xəbərdarlıq şəklində tapşırıq verib. Ekspertlərə görə, prezidentin bu fikirləri rayonların rəhbərliyinə əslində xəbərdarlıqdır və bir sıra icra başçıları ilin sonunda vəzifələrini itirə bilərlər. Çünki ölkə başçısı 6 aydan sonra - dekabrda onlardan hesabat tələb edəcək. İşində dönüş yaratmayanlar üçün qarşıda cəmi 6 ay vaxt qalıb desək, yanılmarıq.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov "Yeni Müsavat"a bildirdi ki, prezidentin Nazirlər Kabinetinin iclasında giriş və yekun nitqi zamanı ölkə iqtisadiyyatındakı vəziyyətlə bağlı açıqladığı faktlar, rəqəmlər inkişaf prosesinin getdiyinin göstəricisidir:** "Cənab prezident istisadiyyatın bütün sahələrinin inkişafını qarşısına hədəf qoyduğunu bir daha əyani şəkildə nümayiş etdirmiş oldu. Ölkə başçısının çıxışından və tapşırıqlarından hər bir vəzifəli şəxs, o cümlədən rayonların icra hakimiyyətləri nəticə çıxarmalıdır. Son zamanlar kənd təsərrüfatına olan diqqət digər sahələrə olan diqqətdən daha yüksəkdir. Çıxışından da bir daha göründü ki, kənd təsərrüfatına diqqəti birincisi cənab prezident yüksək səviyyədə saxlayır. Prezident Administrasiyası bu işlə çox ciddi məşğuldur. Kənd Təsərrüfatı Nazirliyinin qaldırdığı bütün məsələlər sərəncamlar və yardımlar verilməklə, vəsaitlər ayrılmaqla həll olunur. Belə bir vəziyyətdə bu sahədə heç bir problem olmamalıdır.



Mən diqqət edirəm və görürəm ki, kənd təsərrüfatı məhsullarının ixracatı artıb. Hansısa yerlərdə problemlər meydana çıxırsa, məncə, bu, artıq yerli icra hakimiyyəti orqanlarının problemidir. Çünki ölkəyə kifayət qədər texnika alınıb gətirilib və gətirilməkdə də davam edir. Əksər rayonlarda texnika ilə əlaqədar mərkəzlər yaradılıb. Yerli icra hakimiyyəti orqanları işləri elə qurmalıdır ki, fermerlər problem yaşamasınlar. Taxılçılıq sahəsinə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən də diqqət böyükdür. Bəzi yerlərdə ortaya çıxan problemlər çox güman ki, rayon rəhbərliyinin fəaliyyətinin yetərli olmamasından qaynaqlanır. Rayon icra hakimiyyəti orqanları başa düşməlidirlər ki, kənd təsərrüfatının inkişafı onların fəaliyyətindən çox asılıdır.

Əgər hansısa məsələni öz gücləri hesabına həll edə bilmirlərsə, mərkəzə müraciət eləməlidirlər. İnkar etmək olmaz ki, yaxşı işləyən icra hakimiyyətləri var. Elələri var ki, işə can yandırır, işlərini düzgün qura biliblər. Amma elə icra hakimiyyəti orqanları da var ki, rayonun inkişafı, kənd təsərrüfatının dirçəldilməsi üçün insanların yaşayışı ilə maraqlanmırlar. Onlar ölkə başçısının tapşırığından ciddi nəticələr çıxarsalar işin xeyrinə olar".

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycanda qısa zamanda necə zəngin olmaq olar?

## Rəşad Həsənov: "Ölkədə ilkin kapitalı olan insanların çox qısa müddətdə uğur əldə etmək şansı yaranıb"

**Mediada tez-tez müxtəlif milyonçuların qeyri-adi həyat hekayələrinə rast gəlinir. Yoxsul bir gənc ikən qısa müddətdə varlanan insanlar haqqında oxumaq həm də oxucuda bir stimul yaradır. Hər kəs qısa zamanda necə zəngin olacağını düşünür.**



Bəziləri hesab edir ki, bu yalnız Amerika kimi inkişaf etmiş iqtisadiyyatı olan ölkələrdə mümkündür. Lakin bəzi faktlar zəngin olmağın istənilən ölkədə mümkün olduğunu deməyə əsas verir. Azərbaycanın dünya səviyyəsində rəsmi milyonçusu olmasa da, ölkədə milyonları olan insanlar kifayət qədərdir. Təbii ki, həmin pulları leqal, yoxsa qeyri-leqal yollardan gəlməsi də başqa bir müzakirə mövzusudur. Ancaq kasıb bir ailənin övladı ikən ölkənin milyonçusuna çevrilmə təcrübəsi ölkəmizdə də yaşanıb.

**Bəs görəsən, qısa zamanda necə zəngin olmaq olar? Nəzəri olaraq Azərbaycanda bu mümkündürmü?**

**Sualımızı cavablandıran iqtisadçı ekspert Rəşad Həsənov vurğuladı ki, ümumiyyətlə, yeni yaranmaqda olan iqtisadiyyatlarda imkanlar geniş olur:** "Nəzərə alsaq ki, Azərbaycan sovet hökumətinin çökməsi ilə bazar iqtisadiyyatına keçdi. 70 il planlaşdırılmış iqtisadiyyatla yaşayan Azərbaycan əhalisi biznes mühitinə hazır deyildi. Bu isə müəyyən bacarıqları olan insanların qısa müddətdə parlamasına şərait yaradırdı. Bu baxımdan, ilk illərdə Azərbaycanda sürətlə inkişaf edən, maliyyə imkanlarını artıran biznesmenlər ortaya çıxdı. Sonradan bu proses daha da dərinləşdi. Lakin 2000-ci illərdən sonra yeni bir trend formalaşmağa başladı. Məmur biznesinin geniş yayılması, administrativ resurslardan istifadə edərək iqtisadi mühitə birbaşa müdaxilə şərti ilə özü üçün imkanları artırmaq cəhdləri nəticəsində qısa müddətdə ölkədə milyonerlərin yox, milyarderlərin yaranmasının müşahidə etdik. Onların böyük əksəriyyəti, xüsusilə də dövlət qurumlarında təmsil olunan məmurlar və ya onların himayə etdikləri şəxslər idi. Ümumiyyətlə götürdükdə Azərbaycan kimi ölkələrdə bu tendensiya daha çoxdur. Dünyada da buna bənzər hallar müşahidə olunur. Bu, qısa müddətdə varlanmağın əsas yollarından hesab olunur".

**İqtisadçının sözlərinə görə, hazırda yaranmış imkanlara baxsaq, ölkə üçün yeni iqtisadi çağırışlar formalaşıb:** "Hökumət ölkədə zərurətdən biznes mühitinin liberallaşması üçün şərait yaradır. Faktiki olaraq bir sıra hallarda kapital çatışmazlığı səbəbindən böyük əksəriyyət real sektorda təmsil oluna bilmir. Azərbaycanda ilkin kapitalı olan insanların çox qısa müddətdə uğur əldə etmək şansları yaranıb. Azərbaycan iqtisadiyyatının hazırkı şəraitini nəzərə alsaq, böyük sektorlar, subsektorlar işlənməmiş vəziyyətdədir. Bu sektorlarda kifayət qədər boşluq var. Rəqabət mühiti kifayət qədər zəifdir. Bu baxımdan, hər hansı bir sahədə normal təşəbbüsü ortaya qoyan və kapital təminatı olan şəxslərin qısa müddətdə varlanma imkanları var".

**R.Həsənov ölkədə zənginlər arasında qeyri-rəqabətli mühitdə, haqsız yollarla milyarder olmuş insanların üstünlük təşkil etdiyini vurğuladı:** "Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da müəyyən kateqoriya insanlar var ki, onların uğur hekayələrinin, biznesdə parlamalarının əsas səbəbi dayanmadan çalışması, təşəbbüskar olması, eyni zamanda qarşıya çıxan problemlərlə yorulmadan mübarizə etməsi nəticəsində olur. Ancaq bu kimi hallar çox azdır. Bizim gördüyümüz əksər milyarderlər qeyri-rəqabətli mühitdə haqsız yaradılmış individual imkanlardan istifadə edərək bu imkanları əldə ediblər".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017

**Azərbaycan oxucusuna Ramiz Əmirli adı tanışdır. Macarıstanda yaşayan həmyerlimiz, Macar-Azəri Birgə Cəmiyyətinin sədri. Bu günə qədər "Yeni Müsavat" onunla həm yaşadığı ölkədə, həm də Azərbaycanda xeyli söhbət edib. Ramil Səfərovun Azərbaycana ekstradisiya prosesini bütün detalları ilə bilən, bu haqda danışan həmyerlimiz bugünlərdə yenidən Azərbaycandadır. Bu dəfə çox ciddi iqtisadi layihələrin izi ilə.**



# "Mübarizə aparmaq lazımdır ki, hər şey daha yaxşı olsun"

## Azərbaycanla Macarıstan arasında böyük iqtisadi əməkdaşlığın təməlini qoyan adam "Yeni Müsavat"ın qonağı oldu

**"Avropa gələcəkdə mühacirlərin cibinə pul, əlinə də bilet verərək deyə bilər ki, qayıdın vətəninizə"**

*"Yeni Müsavat" qəzetinin redaksiyasına qonaq gələn R.Əmirli ilə həm bu layihələr, həm də Macarıstan-Azərbaycan münasibətləri, miqrasiya problemləri ətrafında danışdıq.*

***- Ramiz bəy, Vətənə yenidən xoş gəlmisiz. Neçə vaxtdır Azərbaycana gəlmirdiz?***

- Xoş gördük sizi. İl yarımdır Azərbaycana gəlmirdim.

***- Tez-tez gəlirsiz Azərbaycana, səhv etmirəmsə...***

- Əlbəttə. Elə olur ki, ildə 3-4 dəfə gəlirəm. İş olanda lap tez-tez gəlib gedirəm.

***- Budafəki səfərinizin məqsədi nədir? Şəxsi, işgüzar.. ?***

- Əvvəla, cənab prezidentin sərəncamı əsasında aqrar sənayenin inkişafına xüsusi diqqət ayrılır. Macarıstanda aqrar sahə üzrə ən inkişaf etmiş firmanın - "Babolna Tetra" firmasının sahibi Budai Zoltan cənabları ilə Azərbaycana gəldik. Bizi bura dəvət edən Azərbaycanda ən böyük inqubator firmasının sahibi olan "Səfalı Broyler"in sahibi Murad Sadıqov cənablarıdır. Onsuz da Macarıstanla Azərbaycan arasında aqrar sahədə son zamanlar daha sıx əməkdaşlıq yaranıb. Son zamanlar Macarıstandan Azərbaycana damazlıq heyvanlar gətirilir. Taxılçılıq sahəsində, müxtəlif qarğıdalı növləri Azərbaycana gətirilir, əkilib-becərilir. Yəni onlar daha səmərəli növlərdir. Son zamanlar damazlıq yumurta üçün də yeni qapı açılıb. Avropada toyuqçuluq sahəsində ən böyük firma Macarıstanın "Babolna" firmasıdır. Onun sahibi mənim ən yaxın dostlarımdan biridir. Murad Səfərovun şəxsi dəvəti ilə bura gəldik və çox uğurlu bir səfər alındı. İlk günümüzdə də "Babolna" firması ilə "Səfalı Broyler" arasında illik müqavilə bağladıq. Yəni, hər həftə, dörd gündən bir bir maşın, 280 min ədəd damazlıq yumurta Macarıstandan Azərbaycana gətiriləcək. Bilirsiniz ki, bütün toyuqçuluq fabriklərinin hamısının öz inkubatorları yoxdur. Özləri inkubatordan çıxarılmış cücələri satın alıb, saxlayıb, böyüdüb satırlar. Odur ki, biz də bu sahədə iki ölkə arasında iqtisadi bir əməkdaşlıq nümunəsinə imza atdıq. Bu, çox böyük addım idi. Ola bilər ki, gələcəkdə burda ortaq toyuqçuluq ferması da aça bilərik. Amma bu, gələcəyin planıdır.

***- Azərbaycanla Macarıstan arasındakı işgüzar-iqtisadi əlaqələrin səviyyəsi barədə nə deyə bilərsiz? Ümumi mənzərə necədir?***

- Avropa ölkələri arasında Azərbaycanla ən sıx iqtisadi əməkdaşlığı Macarıstan dövləti edir. Və dediyim kimi, bitkiçilik, toxumçuluq, heyvandarlıq, quşçuluq sahələrində hər iki dövlət arasında sıx əməkdaşlıq var. Dövlətlərarası müqavilələr əsasında bu işlər görülür. Bugünlərdə Azərbaycanda adını deməyəcəyim böyük bir firmaya iki istixana tikilməsi üçün Macarıstanın Exim Bankından 18 milyon avro vəsait ayrılıb. Bunun özü Azərbaycan üçün böyük bir sərmayə deməkdir. İstixanaların tikilməsinə başlanıb. Azərbaycan-Macarıstan münasibətləri bir çox sahələrdə inkişaf edəcək.

***- Prosesi davam etdirmək üçün daha hansı planlarınız var?***

- Mənim yeganə fikrim budur ki, macar biznesmenləri vətənə cəlb edim, sərmayə qoysunlar. Ölkəmiz birdən-birə neft krizisinə düşdüyünə görə çətinlik çəkməməlidir. Bunun çıxış yollarından biri də aqrar sənayenin inkişafıdır. Bu sahə üzrə Avropanın ən yaxşı mütəxəssisləri isə elə Macarıstandadır. İnşallah, Macarıstanda olan dostlarımı bura dəvət edəcəm. Başqa planlarımız var. Bitkiçilik sahəsində bura sərmayə qoymaq istəyənlər də var. Bir ay-ay yarım ərzində o layihəni də həyata keçirəcəm. Bu əlaqələr təkcə iqtisadi yox, bir çox sahələrdə də inkişaf edəcək.

***- Sizinlə 2015-ci ildə Macarıstanda görüşəndə yaşadığınız ölkədə insanlar qaçqınlara münasibətdə olduqca sərt davranır, küçələrə çıxaraq onların gəlişinə etiraz edirdi. O vaxtdan bu vaxta Macarıstanda qaçqınlarla bağlı durum dəyişibmi? Qaçqın problem həll olunubmu?***

- O gündən bu günə çox dəyişib. Həmin vaxt yadınızdadırsa, küçələrdə də qaçqınlar vardı, düşərgələrdə də. Biz sizinlə gedib düşərgələrdəki qaçqınları da gördük. Bu problem artıq öz həllini tapıb. Hazırda bir neçə yerdə qaçqın düşərgəsi qalıb. Hökumətimiz isə qaçqınların bir hissəsini öz ölkəsinə geri qaytarıb, bir hissəsini isə getmək istədiyi Avropa ölkəsinə. Orda qalan müddətdə də onlara qayğı göstərilib. Bir sözlə, Macarıstanda qaçqın problem həll olunub.

***- O vaxtdan bu vaxta azərbaycanlıların Avropaya axın etməsi də sürətlənib. Macarıstan yenidən tranzit ölkə statusundadır. İndi Avropaya getmək üçün Macarıstanı dayanacaq seçənlərin durumunda, statistikasında nə kimi fərqlər var? Mənzərəni bizim üçün təsvir edə bilərsizmi?***

- Sizin bu sualınız mənim ürəyimi ağrıdır. Çünki son zamanlar ölkəmizdən Avropaya axın çoxalıb. Seçilmiş ölkələrdən biri də Macarıstandır. Mən özüm ürək ağrısı ilə çox dostlarımın, tanışlarımın xahişi ilə kimlərisə qəbul edib, ordan yola salmışam. Bu, arzuedilməz bir haldır. Niyə gedirlər, səbəbi nədir? Amma son zamanlar axın güclüdür. Gələn 10 nəfərdən 9-u geri dönmür. Bu, çox düşündürücü mənzərədir.

***- Gələnlər daha çox imkansızlıqdan Avropada yaşamağı seçirlər, ya ciddi səbəbləri olur?***



**Ramiz Əmirli:** "Yeganə fikrim budur ki, macar biznesmenləri Vətənə cəlb edim, sərmayə qoysunlar"

- Daha çox imkansızlıq. Açığı, mən heç kimdən eşitmədim ki, hansısa siyasi tərəfi var, ya məni incidirlər. Sadəcə olaraq, hamısı imkansızlıqdan şikayətlənir. Kimsə balasının gələcəyi, kimsə ölkədə maddi baxımdan yaşamağın çətin olmasına görə bura gəlməyi seçir.

***- Bəs indi macar cəmiyyətində durum necədir? Qaçqınların ölkəni tərk etməsindən məmnundularmı?***

- Bilirsiz, macarlar açıq-aydın deyirdilər ki, dünyanı bu hala salan böyük dövlətlər niyə çaxnaşma salıb, sonra o vətəndaşların Avropaya axınına səbəbkar olurlar? Bunu kim edirsə, qoy onlar da qarşısını alsınlar. Çox eqoistik yanaşmadır, amma reallıq budur. Macarıstan dövləti, onların siyasətçiləri gedib Suriyada çaxnaşma yaratmayıb ki? Bunu yaradanlar var, qoy onlar da bunun zəhmətini çəksinlər. Zəlzələ olarsa, təbii fəlakət yaranarsa, ondan zərər çəkənlər başqa. Amma indi isə daha çox Almaniya, Hollandiya, Norveç, İsveç, İsveçrə kimi ölkələrdir. Onlar vətəndaşlarına daha çox maaş berən ölkələrə üz tuturlar. Gələnlər daha çox bu ölkələrə gedirlər və Macarıstandan tranzit kimi istifadə edirlər.

***- Azərbaycandan sizə ayda nə qədər müraciət olunur? Hər halda, azərbaycanlılar Macarıstanda sizin yaşadığınızı bilir, cəmiyyətin sədrisiz, tanınmış şəxssiz. Yardım, məsləhət, qarşılamaq üçün nə qədər müraciət edirlər?***

- Çoox. Vətənə düşdüyüm gün axşamtərəfi məni heç tanımadığım adamlar axtardı. Mühacirət etmək istədiklərini dedilər, yardım istədilər. Mən o məsləhət istəyənə dedim ki, burda 1000-1200 manat pulla dolana bilməyən ailə heç Avropada da dolana bilməyəcək. Sən Avropanın dilini, adət-ənənəsini bilmisən. Gedib Almaniyada bir düşərgə kimi yerə girəcəksən, illərlə ordan buraxmayacaqlar. Ta ki, hər halda, məmnundular. Artıq Macarıstanda qaçqınlıq hiss olunmur. Macarıstan Avropanın cənnət ölkələrindən biridir, ölkə vətəndaşları firavan yaşayırlar.

***- Macarıstan azərbaycanlıların mühacirət üçün seçdiyi ölkələrdən deyil. Səbəb təkcə müavinətin verilməməsidir?***

- Macarıstandan sığınacaq almaq çətindir. Siyasi baxımdan qəbul etmirlər. Deyirlər ki, siyasi baxımdan Azərbaycanda heç bir problem ola bilməz. Çünki demokratik, stabil bir ölkədir. Başqa bir tərəfdən, Macarıstanda minimum əmək haqqı 300-400 avrodur. Sığınacaq almaq istəyən insanların seçimi dilini öyrənənə qədər. Gələcəkdə belə siyasət də ola bilər: orda yaşayan mühacirlərin cibinə pul, əlinə də bilet verilərək deyilə bilər ki, qayıdın öz vətəninizə. Yəni bunu da nəzərə almaq lazımdır. Bu məsələ zaman-zaman həmin ölkələrdə müzakirə də olunur ki, gələn qaçqınların ölkəsində stabil vəziyyətdirsə, onları göndərmək lazımdır. Bu, hər zaman baş verə bilər.

***- Avropada yaşayan azərbaycanlı mühacirlərin durumu necədir? Sizin tanıdıqlarınız çoxdur və mənzərəni daha yaxşı görürsüz.***

- Mənim Avropada yaşayan dostlarım çoxdur. Amma inanın ki, onların danışığından, vəziyyətlərindən xoşbəxtlik yağmır. Gənclərimiz, insanlarımız elə bilməsinlər ki, burdan çıxanda bütün problemlər həll olunacaq.

***- Ramiz bəy, iki il öncəki Budapeşt səfərimizdə sizdən götürdüyüm müsahibə 50 mindən artıq oxunmuşdu. Mövzu isə Ramil Səfərovla bağlı idi. Mənə təəccüblü gəlmişdi ki, cəmiyyət üçün Ramil Səfərov mövzusu hələ də maraqlı və mübhəmdir. Onunla bağlı hər detail diqqətlə izləyirlər.***

- Təbii. Ramil Səfərov, Mübariz kimi qəhrəmanların önündə baş əyirik. Verdiyim o müsahibə xeyli oxundu. Amma onunla bağlı danışılacaq o qədər mövzu, sirlər var ki, bəlkə də milyonlarla insan oxuyar. Amma bunu etmək olmaz. Ramillə də dünən görüşüb danışdım, yenicə oğlu olub, onu təbrik etdim. Uşağa da Macarıstandan hədiyyə gətirdim. Axşam hiss etdim ki, Ramil özünü çox xoşbəxt sayır. Oğul onunçün dağ boyda bir arxa oldu. Ramil mənə dedi ki, vaxtilə türmədə yastığı qucağıma qoyub düşünürdüm ki, ilahi, görəsən, nə vaxtsa qucağımda yastıq yox, cocuq nəfəsi duyacammı? Artıq bir qızım, bir oğlum var, iki nəfəs duyuram.

***- Hər gəlişinizdə Azərbaycanda nə kimi dəyişikliklər görürsüz?***

- Hər gəlişimdə insanların üzündə, ümumən cəmiyyətdə bir məyusluq görürəm. Bakı şəhərinin gözəl olmadığını demək olmaz. Amma baxanda bütün binalar bir-birinə bənzəyir. Boz, daşdan üz çəkilmiş şəhərdir. Rəngbərənglik yoxdur. Adicə Avropada şəhərə baxırsan, sanki rəssam əllə çəkib. Təkcə şəhərin gözəlliyi də şərt deyil. Birinin qapısını döyüb içəri girəndə də gərək ailə sənin ürəyini açsın. İnsanların şəraiti, üzündəki enerji ilə. Hər halda, biz inkişaf edirik. Mübarizə aparmaq lazımdır ki, hər şey daha yaxşı olsun.

❑ **Sevinc TELMANQIZI**



# Tağı müəllimin dörddə biri

Zamin HACI
zaminhaci@gmail.com

## “Ə, bir-bir!”

**(Azərbaycan metrolar sözü)**

**Məndən milli jurnalistikamızda ən sevdiyin yazı tipini soruşsalar birinci yerə “Filankəs qəzetimizə açıqlama verdi: - Sizə açıqlama vermirəm!” tipli məqalələri qoyardım. Ləzzət edir. Bunu birinci düşünüb tapan (bəlkə də “qanmadan icad edən” daha uyğundur) jurnalistə və qəzetə Pulistər mükafatı verilməlidir. (Bu, ABŞ-da ən yaxşı qəzetçilərə verilən Pulitser mükafatının Azərbaycan variantıdır).**

Elə dünən Metro Tağının adından yayılan bəyanat da bu tipdə idi. Yəqin xəbəriniz var, hətta hiddətdən bəlkə mitinqə çıxmısınız, icazəsiz olduğu üçün polis tərəfindən mitinq aşkar edilib götürülmüşdür - keçmiş MTN generalı Akif Çovdarov məhkəmədə ifadəsində Tağı müəllimin 3 milyon dollar yağmalanması boyunu izah edərkən onun çoxsaylı mal-mülkünün siyahısını da açıqlayıbdır. Buraya milyonlarla dollar dəyəri olan, bəzisi xaricdə yerləşən evlər, saraylar, sexlər-zadlar daxil imiş. Hətta Tağı müəllim metro turniketlərinə elə bir mikrosxem pərçimləyibmiş ki, hər 4 jetondan birinin pulu şəxsi cibişdanına gedirmiş. (Bəlkə də bu kəşfinə görə Tağı müəllimi xaricdə kompüter firmasına-zada müdir qoyardılar, biz isə incidirik, durduğu yerdə burcuduruq, qulağının dibində dızıldaşırıq).

Uzun sözün qısası, indi mətbuat belə başlıq qoyub ki, Tağı Əhmədov Çovdarovun ittihamına cavab verdi. Açıb oxuyursan, görürsən yazılıb: “Tağı müəllim dedi ki, əl çəkin məndən, qoyun işimi görüm”.

Nə gözəl izahatdır... Yaxın gələcəkdə milli mediamız dövlətin dəstəyi ilə lap inkişaf edəcək, o zaman cavab yerinə elə üç nöqtə qoyulacaq. Örnək üçün, belə: “Korrupsioner məmur pulları necə oğurladınız sualımıza bir nöqtə, iki vergüllə cavab verdi”. Yaxud: “İcra başçısı bizə üç barmağın konfiqurasiyasını göstərdi. Urra!”

Hazırda Tağı müəllim dövlət universitetlərindən birinin kafedra müdiri, ya da dekanı kimi bir şey olmalıdır, güman edirik “imkan verin işləyim” deyərkən bunu nəzərdə tutub. Ancaq indi universitetlər yay tətilinə çıxmışdır. Ola bilsin Tağı müəllim tətildən səmərəli yararlanır, hər 4 tələbədən 1-ni necə yolmağın elmi mikrosxemlərini hazırlayır.

Bir söhbət də var ki, cəhənnəmə gedən özünə yoldaş axtarır. Dəxli yoxdur, cəhənnəmə istər metro ilə, istər avtobusla, istər Boinq-lə, lap istəsən piyada get - bu iş yoldaşlı olanda maraqlıdır. Çovdarov isə penisentiar xidmətin dustaq maşınıyla getməkdədir, ona həmsöhbət daha vacibdir. Yəni, Çovdarov şər ata da bilər. Ancaq indiki halda onun Tağı müəllimə ittihamları şərə yox, “subutalnı-dokumentalnı” əhvalata daha çox bənzəyir, çünki harda neçə dollarlıq binası var, hansı ölkədə mülk alıb, mikrosxemi nə cür düzüb-qoşub və sairə - bunları əliylə qoymuş kimi danışıb.

Əlbəttə, Tağı müəllim rejimə sədaqətli adamdır, AYB üzvü kimi yazdığı şeir-meirləri də elə “Tağı Sadiq” imzasıyla basır. Bu üzdən, yüz dənə Çovdarov mırıldasın, min dənə jurnalist dızıldasın - Tağı müəllimə gözün üstdə qaşın, yer altında daş-qaşın, Dubayda oynaşın (axırıncını qafiyə üçün yazdım, mənası yoxdur) var deyən olmayacaqdır. Təsadüfi deyildir ki, bu boyda zıppıltının açıldığı məqamda hansısa sayt Tağı müəllimin Yasamala icra başçısı qoyulacağını yazmışdı. Niyə də qoyulmasın? O boyda istedad universitet kimi dar yerdə batıb gedir. Meydan vermək lazımdır. Qoy başçı, gör Yasamalda hər 4 binadan 1-i necə cibə gedir. Hər 4 küçədən 1-ni pullu edər.

Yazını Tağı müəllimin şeirlərindən birindən 4 sətirlə (alan varsa sətrin 1-ni satıram - Z.H.) bitirirəm. Məndə olan məlumata görə AYB sədri Anar müəllim bu şeiri xüsusən bəyənir, yeni üzvlərə əzbərdən oxuyur, tövsiyə edir:

“Naz ilə yeridik birgə cüt qoşa
Yaydan çıxan oxum dəymişdi daşa
Xalqımın mərd qızı sən xoşbəxt yaşa
Sadiqi bəlaya salırsan gözəl".

Bəlkə də oxun daşa dəydiyi yer, Sadiqin bəlaya düşməsi Çovdarovun aldığı 3 milyona işarədir. Prokurorluq vaxtında anlasaydı... Hardan... Orda şeir yazan prokuroru işdən çıxartmışdılar. Poeziyaya laqeyd idarədir.

“Birgə, cüt, qoşa” sözlərinin israfçılıqla istifadəsi isə Tağı müəllimin poeziyada da hərdən yeyintiyə yol verdiyini göstərir. Ancaq bu, heç bizim tema deyil - tənqidci Nizami Cəfərov araşdırsın.

# “Rusiya əbədi tərəfdaşımız deyil!..”

**Azərbaycan-Rusiya münasibətləri təzadlı xarakterini saxlamaqda davam edir. Bunun da qayəsində sözsüz ki, ən əvvəl Dağlıq Qarabağ məsələsi, daha doğrusu, rəsmi Kremlin əlində bənzərsiz imkanlar ola-ola, münaqişənin həllinə real töhfə verməmək istəməməsi dayanır.**




## Bakının “Ağ evi”ndən Moskvaya “Ağ Ev” ismarışı

### Kremlin Azərbaycanı öz orbitinə qaytarmaq cəhdləri həmişə əks-effekt verəcək, əgər...; Rusiya üçün rəsmi Bakının etibarını qazanmağın tək yolu Qarabağdan keçir

Səbəblər barədə zaman-zaman yazmışıq. Məsələ ondadır ki, Rusiya Azərbaycanla bağlı əsas hədəfinə nail olmayıb. Söhbət ölkəmizin Putinin Avrasiya layihələrinə qoşulması və geridönməz şəkildə Rusiya orbitinə qayıtmasından gedir. Lakin Azərbaycan işğalçı Ermənistanla eyni siyasi-hərbi birliklərdə təmsilçiliyi mümkün saymır və Qarabağ şərtini irəli sürür. Rusiya isə belə görünür, Azərbaycanla bağlı strateji istəyinə Qarabağ konfliktini dondurmaqla nail olmaq niyyətindədir. Buna da rəsmi Bakı, Azərbaycan ictimai rəyi heç vaxt razı olmaz. Kremldə də yəqin ki, bunun fərqindədirlər.

Maraq toqquşmasına gətirən ikinci mühüm faktor əlbəttə ki, energetika sahəsidir. Daha dəqiqi, Avropaya ünvanlı və Rusiyadan yan keçən neft-qaz kəmərləri, kommunikasiya xətləri məsələsidir ki, bu sahədə də Azərbaycan istəsə də, istəməsə də, getdikcə Rusiya üçün daha güclü rəqibə çevrilməkdədir. Çünki Moskva həm də Avropa qaz bazarında özünə yeni konkruent görmək istəmir - o ki ola Azərbaycan timsalında.

***

Doğrudur, iki ölkə arasında silah ticarəti sahəsində yüksək səviyyəli əməkdaşlıq var və davam edir. Bu da daha çox Bakının balans siyasəti yürütməsi ilə bağlıdır. Hər halda, Azərbaycan eyni silahları başqa ölkələrdən də ala bilər. Bununla belə, Kreml yenə məmnun görünmür və vaxtaşırı Azərbaycana qarşı demarşlar edir - özü də həm də təcavüzkar Ermənistanın vasitəsilə.

O üzdən Moskva və Bakı rəsmiləri nə qədər bəyan eləsələr ki, Azərbaycan və Rusiya strateji tərəfdaş ölkələrdir və münasibətlər yüksək səviyyədədir, əslində belə deyil və bu kimi bəyanatlar da ilk növbədə daxili auditoriyaya hesablanıb. Fakt odur ki, münasibətlərdə gizli gərginlik yaşanır və ara-sıra hətta özünü qabarıq şəkildə büruzə də verir.

Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) ləğvi məsələsində bunu bir daha müşahidə elədik. Yaxud Alxanlı faciəsi günü Rusiya XİN-in erməni əsilli Rusiya vətəndaşlarının Bakı aeroportunda guya incidilməsi ilə bağlı etiraz bəyanatını yada salmaq olar. Azərbaycan prezidenti İstanbulda 22-ci Dünya Neft Konqresində iştirak etdiyi və ABŞ-ın dövlət katibi Reks Tillersonla mühüm görüşlər keçirdiyi zaman isə Rusiya işğalçı Ermənistanla birgə “sərhəd pozucuları” ilə mübarizə birgə təlimlər adı altında Dağlıq Qarabağa hərbi qüvvə yeritdi.

Doğrudur, Bakının etirazından sonra Rusiya FTX-si məsələyə düzəliş elədi. Amma mahiyyət dəyişmir: əksər müstəqil müşahidəçilər əmindilər ki, rus əsgərləri həqiqətən də ilk dəfə olaraq təlim adı ilə Azərbaycanın qanuni ərazilərinə, qanunsuz şəkildə keçiblər. Yeri gəlmişkən, rəsmi Bakının tam haqqı çatırdı ki, Rusiyaya etiraz notası təqdim eləsin.

***

Bunlar şəksiz ki, Kremlin Bakıya heç də xoşməramlı olmayan və strateji tərəfdaşlıqla uzlaşmayan qeyri-dost gedişləri idi. Bu qəbildən siqnalları əlbəttə ki, rəsmi Bakı müşahidə edir və nəzərə alır. Prezident İlham Əliyevin srağagün birinci yarım ilin iqtisadi yekunları ilə əlaqədar hökumətin toplantısında etdiyi çıxışda bu siqnallara cavab notlarını da görmək olar. Belə ki, ölkə başçısı çıxışının bir yerində məxsusən ABŞ-Azərbaycan əlaqələrinə toxunaraq deyib ki, bu əlaqələr yeni bir mərhələyə qədəm qoyub.

Bakıda keçirilmiş 24-cü Beynəlxalq Neft və Qaz Sərgisinə ABŞ prezidenti Donald Trampın ünvanlandığı məktubun əhəmiyyətindən danışan prezident ABŞ dövlət katibi ilə bir neçə gün öncə İstanbulda keçirdiyi görüşü də yüksək qiymətləndirib. **Sitat: “Bu il 24-cü Xəzər neft-qaz sərgi və konfransı keçirilib. Bu tədbir dünya miqyasında enerji sektorunda seçilmiş tədbirlərdən biridir. Bunun ən gözəl göstəricisi ondan ibarətdir ki, tədbirə ABŞ prezidenti cənab Tramp məktub göndərib. Mənə ünvanlanan məktub əlbəttə ki, Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətini artırır, eyni zamanda ABŞ tərəfindən Azərbaycanın icra etdiyi uğurlu enerji layihələrinə göstərilən növbəti dəstəkdir. Əlbəttə ki, belə xoş münasibət Amerika-Azərbaycan əlaqələrinin uğurlu inkişafı üçün yeni zəmin yaradır. Bir neçə gün bundan əvvəl Amerikanın dövlət katibi ilə İstanbulda görüşüm bir daha bizim strateji əlaqələrimizi təsdiqlədi və bu gün Amerika-Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyur”.**

***

Ölkə başçısının açıqlamasında diqqət çəkən ən mühüm detallardan biri əlbəttə ki, onun Azərbaycan-ABŞ münasibətlərinin inkişafda olmasını xüsusi qeyd eləməsidir. Rusiya ilə ABŞ arasında isə hazırda böyük gərginlik yaşanır və bu gərginlikdə bəllidir ki, Ağ Evin yeni administrasiyası, özəlliklə də neft biznesindən dövlət katibliyinə gəlmiş Reks Tillersonun “xidməti” məxsusidir.

Sadalanan gəlişmələr fonunda Bakının Vaşinqtonla əlaqələrinə dinamik impulsun verilməsi sözsüz ki, Kremli məmnun sala bilməz. Lakin Azərbaycanın öz həyati maraqları var və onu Rusiya maraqlarına qurban vermək fikrində deyil. Yəni “qırmızı xətt” məsələsi. Bu mənada prezidentin son xəfif mesajı situasiyaya tam adekvat görünür.

Yeri gəlmişkən, Alxanlı faciəsinə də Rusiya strateji tərəfdaşlıq münasibətlərinə adekvat sayılacaq reaksiya vermədi. Qeyd edildiyi kimi, hətta həmin gün Rusiya XİN-dən Azərbaycanın ünvanına ermənilərlə bağlı hədələyici tonda açıqlama gəldi. Bu və digər səbəblərdən Bakı da son vaxtlar verdiyi bəyanat və açıqlamalarda, görüşlərdə vurğunu ABŞ-la münasibətlərin güclənməsinə salmaqla, D. Trampın məlum təbrik məktubunu xatırlatmaqla haqlı olaraq Rusiyaya incə mesajlar göndərir ki, “Rusiya Azərbaycan üçün heç də əbədi və alternativsiz tərəfdaş deyil”.

***

Yekun yerinə qeyd edək ki, Bakı həqiqətən də Moskvadan incikdir və buna haqqı çatır. Ola bilsin daha bir səbəb odur ki, Rusiya Qarabağ məsələsinin həllinə kömək eləməmək bir yana, işğalçı Ermənistanın lokal hərbi əməliyyatlarla cəzalandırmağa da imkan vermir. Azərbaycan isə Rusiyadan bahalı silahları heç də vitrinə qoymaq üçün almır.

❑ Analìtik xìdmət

YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017

**Qarabağda müharibə riskinin artdığı, ikinci Qarabağ savaşının hər başlana biləcəyi barədə siyasi, hərbi ekspertlər tərəfindən xəbərdarlıqlar, proqnozlar verilməkdədir. Təkcə Azərbaycanda və işğalçı ölkədə deyil, münaqişə ilə yaxından maraqlanan tanınmış əcnəbi ekspertlər də Qarabağda hər gün artan müharibə ehtimalından danışırlar.**



# Hərbi ekspertdən yeni müharibə anonsu

## Üzeyir Cəfərov: "Ermənistan üçün bu dəfə daha fəlakətli nəticələr olacaq"

Məsələn, rusiyalı hərbi ekspert Pavel Felgenhauer bildirib ki, Qarabağda hələlik müharibə yoxdur, amma bu ehtimal getdikcə daha da güclənir: "Hazırda hər iki tərəf aktiv şəkildə savaşa hazırlaşır. Əgər hər iki tərəf hazırlaşırsa, o zaman yekunda toqquşma mütləq olacaq. Konfliktə təsir edən daxili və xarici faktorlar var. Hər iki tərəf intensiv şəkildə öz gücünü artırır. Genişmiqyaslı toqquşmaların qarşısını almaqdan ötrü nəsə etmək lazımdır. Genişmiqyaslı müharibəni başlamaq üçün təsadüfi olmayan, məqsədyönlü fəaliyyətlər tələb olunur. Tərəflərdən hansısa biri qərar verməlidir ki, başqa variant yoxdur və uğur qazanılması üçün heç olmasa lokal zərbə endirilməlidir. Qarabağda atəşkəslə bağlı edilən çağırışlar kifayət deyil. Biz Qarabağ münaqişəsinin kompromis yolu ilə həllinə müəyyən siyasi səbəblərin izn vermədiyini görürük. Situasiya kompromislər və ciddi de-eskalasiya olmadan dəyişməyəcək. Genişmiqyaslı müharibəyə doğru aparan geridönülməz proses baş verir. Tərəflər hələlik ciddi hərbi fəaliyyətləri başlamağa hazır deyil. Bu, çox yaxşıdır, amma bu, savaşın qarşısını almaq üçün yetərli deyil".

Maraqlıdır ki, son vaxtlar daha çox rusiyalı politoloqlar və hərbi ekspertlər Qarabağ problemi və müharibənin başlayacağı halda açıqlamalar verir. Diqqətçəkən məqam isə ondan ibarətdir ki, bu cür açıqlamaların əksəriyyətində Ermənistanın ciddi zərbə alacağından bir qayğı, narahatlıq duyulduğu sezilir.

**Bu barədə hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, son vaxtlar rusiyalı tanınmış politoloqların və hərbi ekspertlərin Dağlıq Qarabağ savaşının başlayacağı ilə bağlı açıqlamalarının intensivləşməsində həm siyasi məqsədlər var, həm də verilən bir sıra açıqlamalar Ermənistanın maraqlarına hesablanıb:** "Biz onsuz da gizlətmirik ki, torpaqlarımızı işğaldan azad etmək üçün nə lazımdırsa onu edəcəyik. Artıq rusiyalı ekspertlər də görürlər ki, təmsil etdikləri ölkə Dağlıq Qarabağ probleminin həllində maraqlı deyil, məsələni süni şəkildə uzatmaqla məşğuldur və bu prosesin sonunda Ermənistan ağır zərbə alacaq. İyulun 12-də rast gəldim. Erməni mətbuatı yazır ki, çox müəmmalı şəkildə Rusiya xarici işlər naziri Sergey Lavrov Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin 11 iyulda Avstriyada keçirilən görüşündən əvvəl orada peyda olub və erməni nazir Edvard Nalbəndyanla görüşüb. Şübhəsiz ki, Lavrov Nalbəndyanı təlimatlandırıb. Bu faktın özü də bir daha deyir ki, Rusiya imkan versə, bəlkə də Azərbaycanla Ermənistan öz aralarında Qarabağ məsələsini danışıqlarla həll edərdi. Rusiyanın problemin həllində maraqlı görünmədiyi artıq birmənalıdır. Belə bir vəziyyətdə isə əlbəttə ki, ikinci Qarabağ savaşının istənilən an başlaması qaçılmazdır. Yay o qədər tarıma çəkilib ki, ox istənilən an yaydan çıxa bilər".



**"Ali Baş Komandan İlham Əliyev iyulun 12-də Nazirlər Kabinetinin iclasında çıxışı zamanı Alxanlı hadisəsindən danışan zaman bildirdi ki, Zəhranın və nənəsinin qisası alındı. Prezident onu da dedi ki, Ermənistan itkilərini həmişə gizlədir. Ölkə prezidentinin bu açıqlaması onu deməyə əsas verirmi ki, Azərbaycan ordusunun Ermənistana cavab zərbəsinin səbəb olduğu itkilərin miqyası işğalçı ölkənin rəsmi açıqladığı rəqəmlərdən daha çox olub" sualına Üzeyir Cəfərov belə cavab verdi:** "Həm Ali Baş Komandanın dediklə-ri, həm də Azərbaycan Müdafiə Nazirliyinin yaydığı görüntülər onu deməyə əsas verir ki, Zəhranın və nənəsinin qisası çox ciddi şəkildə alınıb. Müdafiə Nazirliyinin yaydığı görüntülərdə Azərbaycan ordusunun Ermənistanın işğal olunmuş ərazilərdəki taborunun dayaq məntəqəsinə zərbəsi nümayiş olunur. O zərbənin çoxlu sayda erməni hərbçisini məhv etdiyi və yaraladığı şübhəsizdir. Lakin Ermənistan tərəfi bir nəfərin öldüyünü, iki nəfərin ağır yaralandığını etiraf elədi. İyulun 12-də isə Ermənistan iki hərbçisini itirdiyini açıqladı. Biz dəqiq bilmirik ki, həmin iki ölü sözügedən dayaq məntəqəsinə zərbə endirilən zaman ölənlərdir, yoxsa onlar sonradan atışma zamanı öldürülənlərdir. Ermənilər itkilərinin sayını həmişə gizlədirlər və indi də gizlətdikləri şübhəsizdir. Azərbaycan tərəfi isə itkiləri olanda gizlətmir".

### Müharibə riskinin artması uzun müddətdir üz-üzə oturmayan müxalifət liderlərini görüşdürdü

**Hərbi ekspert vurğuladı ki, Ermənistan son zərbəmizin onlara neçə hərbçi itkisinə başa gəldiyini dəqiq açıqlaması da bilməlidir ki, zərbələrin davamı olacaq:** "Azərbaycan ordusu hər gün cavab atəşi ilə bir neçə Ermənistan əsgərini məhv etməlidir ki, Ermənistan siyasi-hərbi rəhbərliyinin ağlı başına gəlsin. Hələlik onlar öz havadarlarına arxalanırlar, amma bu, uzun çəkməyəcək. Müharibə bu dəfə qaçılmazdır, ötənilki aprel savaşından daha şiddətli savaş və Ermənistan ordusu üçün daha fəlakətli nəticələr olacaq".

İkinci Qarabağ savaşının başlayacağı ehtimalının güclü olması Azərbaycanda iqtidara müxalifətdə olan tanınmış partiyaları da hərəkətə gətirməyə başlayıb. Əldə etdiyimiz xəbərə görə, iyulun 11-də Vətəndaş Həmrəyliyi Partiyasının qərargahında Azərbaycanın tanınmış müxalifət təşkilatlarının rəhbərlərinin görüşü olub. Toplantıda Qarabağ məsələsi ilə bağlı yaranmış vəziyyət, hər an başlama ehtimalı olan müharibə və belə vəziyyətdə atılmalı olan addımlar, müxalifətin davranışları və digər məsələlər müzakirə edilib. Azərbaycanın ərazilərinin işğaldan azad olunması üçün hərbi əməliyyatların vacibliyi və bu əməliyyatlara hər kəsin dəstək verməsinin şübhəsiz olacağı bildirilib. Görüşdə VHP sədri Sabir Rüstəmxanlı, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı, AXCP sədri Əli Kərimli, KXCP sədri Mirmahmud Mirəlioğlu, ADP sədri Sərdar Cəlaloğlu, AXP sədri Pənah Hüseyn, Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri Hacıbaba Əzimov və Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər iştirak ediblər.

❑ Etibar SEYİDAĞA

# Talançılar çetesinin varidat deposu



Xalid KAZIMLI

**11-12 il öncə mühakimə olunan Rafiq Əliyev ("Azpetrol" şirkətinin sabiq prezidenti) məhkəmədə ifadə verərkən belə bir fikir işlətmişdi ki, məmurlar arasında bir deviz var: "Dövlətin malı dənizdir, onu yeməyən dovşandır".**

O zaman bu ifadə ajiotaja səbəb olmuşdu. Bu, yeni-yeni vüsət almaqda olan büdcə talançılığının miqyasını göstərməsə də, ümumi tendensiyadan, əlində dövlət malını dağıtmaq imkanı olan məmurların düşüncəsindən xəbər verirdi.

Fəqət ataların məşhur məsəli də vardı: "Tutulmayan oğru, xandan, bəydən doğru".

Heç kəsə heç nə sübut etmək mümkün deyildi. Əslində xeyir-şər məclislərində üzbəüz oturan şəxslər eyzən bu mövzuda danışır, situasiyaya dair bilgilərini detallarına qədər bir-birinə deyirdilər. Beləliklə, kimin adamının kim olduğu, kimin harada nəyi neçəyə aldığı, hansı obyekti kimin əlindən zorla və ya "halallıqla" qoparıldığı, oliqarx övladlarının ölkəyə hansı marka maşınlar gətirdiyi, eləcə də vəzifəli, imkanlı adamların varidatı, şəxsi həyatları barədə informasiyalar ictimaiyyət arasına sel kimi axırdı.

Ümumi mənzərə 18-ci əsrdə yaşamış rus ədibi Karamzinin "Rusiyanı bir sözlə necə ifadə etmək olar" sualına verdiyi cavab kimiydi: "Oğurlayırlar".

Ancaq kiminsə adını çəkib "oğru" adlandırmaq olmurdu. Hətta paytaxtın mərkəzində meşə zolağını doğratdırıb yerində iaşə müəssisəsi açmağa çalışan generalın adının çəkilməsi az qala bir neçə adamın həyatı bahasına başa gələcəkdi. O qovğanın qəhrəmanlarından biri olan jurnalist Aqil Xəlil bu gün mühacirətdədir, digər "qəhrəman" - general Çovdarov isə həbsdədir.

Məhz indi sandıqlar açılır və onun içindəki pambıqlar ortaya tökülür.

İndi Çovdarov özü dövlət büdcəsinin talanması mexanizmi, talan nəticəsində depolanmış varidatın miqyası barədə danışır. Bu, onun yaddaşında şifahi şəkildə qalan, varidat deposu barədə tam olmayan məlumatlardır.

Çovdarov Bakı Metropoliteni İdarəsinin sabiq rəisi Tağı Əhmədovun topladığı sərvətdən, eləcə də o sərvətin toplanması yollarından danışıb.

General-müttəhimin ifadəsi ictimaiyyət arasında ajiotaj doğurub. Əslində bunlar aşağı-yuxarı bəlliydi, hamı bilirdi ki, sabiq metro rəisi milyonçudur, amma heç kəs ağlına gətirməzdi ki, onun ölkə daxilində və bir neçə ölkədə bu qədər daşınmaz əmlakı, banklarda nağd pulu ola bilər.

Əlbəttə, hazırda başqalarını talançılıqda ittiham edən təhlükəsizlik generalının özünə qarşı daha ağır ittihamlar var. Başqalarını büdcə oğurluğunda günahlandırırlarsa, onun özünü səlahiyyət həddini aşaraq dövlət adından qanunsuz həbslər aparmaqda, iş adamlarından xərac tələb etməkdə, dövlət büdcəsini talamaqda və sair ağır cinayətlərdə ittiham edirlər.

Başqa sözlə, oğruların bir-birinin üzünə durması, bir-birinin paxırını açması mərhələsi başlayıb.

Belə anlaşılır ki, imkanı çatan hər kəs dövlətdən oğurlayırmış. Bu, onları qane etməyəndə əlində səlahiyyəti daha çox, oğurlamaq imkanı daha az olanlar oğurlamaq imkanı böyük, amma səlahiyyəti zəif olanların əlindən oğurladıqlarının bir hissəsini almağa çalışırmış.

Bu gün cəmiyyəti əndişələndirən əsas məsələlərdən biri olan "harın övladların pəstəhaları" probleminin qaynağı məhz o talan olunmuş milyonlardır. Xalqın cibindən çıxarılmış böyük pullar hesabına bahalı maşınlar alan, lüks həyat tərzi keçirən harın gənclər xalqa qənim kəsilmişdilər.

Artıq onların bir xeylisinin müxtəlif vaxtlarda qəza törətmiş, insan öldürmüş-yaralamış olması faktları üzə çıxır. Bəlli olur ki, onlar vəzifəli və imkanlı atalarının hesabına məsuliyyətdən yaxa qurtarıblar, ancaq başlarına gələn hadisə onlara dərs olmayıb, elə o cür də davam edirlər.

Hazırda talançıların yolunması prosesi də gedir.

"Rabitə işi"ndə təqsirləndirilən idarə rəisləri haqqında tez-tez bu kimi xəbərlər çıxır: "İdarə rəisi dövlətə vurduğu ziyanı tamamən ödəyib - 6 milyon"; "Müttəhim taladığı pulu dövlətə ödədi" və s.

Təsəvvür edin, adam dövlətdən milyonları oğurlayıbmış və oğurladıqları villa, bahalı maşın şəklində xalqın, dövlətin gözü qarşısında sərgiləyə-sərgiləyə, cəzasız qalacağına tam əmin olaraq gəzirmiş. Əgər onların banda başçısı buraxdığı strateji səhv üzündən ilişməsəydi, demək, bu talançılar dəstəsi əmin-arxayın şəkildə öz işlərinə davam edəcəkdilər.

Bəyənmədiyimiz sovet dövründə beləlerini tutub güllələyirdilər. Hazırkı Çində hələ də o cürdür: xalqın, dövlətin milyonlarını mənimsəyənləri mühakimə edib asırlar. Bizdə isə hətta əlində milyon tutulmuş talançıların bir çoxu adicə məsuliyyətə cəlb edilməyib.

YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017



# Sağlığında özünə qəbir qazdıranlar

## Dini ekspertlərə görə, İslam bunu yasaq eləmir, ancaq...

**Məşhur meyxanaçı Ağamirzənin özü üçün qəbir yeri alması və oranı hazır etməsi son günlər cəmiyyətdə müzakirə mövzusuna çevrilib. "Xəzər xəbər"ə danışan meyxanaçının dediyinə görə, həmin yeri qazdırıb, içini lazımi qaydada hördürüb, üstünə isə torpaq tökdürüb.**

Meyxanaçı açıqlamasında bildirib ki, hər bir insanın son yeri məhz məzardır: "Bir neçə il qabaq yaxın bir adamımız rəhmətə getmişdi. Elə bir soyuq hava idi ki, qapını açıb bayıra çıxmaq olmurdu. O vaxt özlüyümdə qərar qəbul etdim ki, bunu hazır qoymaq lazımdır. Bu məzarın üstünü açan kimi hər şey hazırdır orda, bir dənə mən çatmıram".

Onun sifarişini qəbul edən qəbirqazan əvvəlcə təəccüblənsə də, öz işini 2 günə təhvil verib. Ailəsi, qohumları, tanıyan-bilən hər kəs şairi bu əməlinə görə qınasa da, sonradan ona haqq qazandırıblar, hətta onun hazır qəbrinə şərik çıxmaq istəyənlər də olub: "Əvvəllər qardaşlarım da razı deyildilər. İndi o deyir mənimdir, bu deyir mənimdir. Allah nə zaman məsləhət bilsə, bu qəbir özümün olacaq".

Meyxanaçının açıqlaması insanlarda da sual doğurub. Görəsən, İslam dini insanın sağlığında özünə qəbir yeri alıb, məzar qazdırmasını doğru hesab edirmi?

**İlahiyyatçı Hacı Şahin Həsənli "Yeni Müsavat"a açıqlamasında bu sualı cavablandırdı. O qeyd etdi ki, İslam dinində insan sağlığında özünə qəbir də qazdıra bilər, hətta kəfənini də hazır edə bilər:** "Bu insanın ölümə hazırlığı kimi dəyərləndirilirsə, din buna müsbət yanaşır. Sadəcə olaraq, din qəbirin təmtəraqlı olmasının, qəbir daşlarının bahalı olmasının, israfçılığa yol verilməsinin əleyhinədir. Ancaq sadə bir qəbir hazır olarsa, insan sağlığında özünə kəfən alarsa, bunlar dini nöqteyi-nəzərdən məqbuldur. Din bu məsələyə mənfi yanaşmır".

**İlahiyyatçı bildirdi ki, qəbrin içinin daşla hörülməsi də İslami qaydalara zidd deyil:** "Dinimiz qəbrin daşla hörülməsini qadağan etmir. Əslində dinimiz qəbrin üzərinə bahalı mərmərlərdən daşların qoyulmasının əleyhinədir. Qəbir mümkün qədər sadə olmalıdır, axirəti insanların yadına salmalıdır. Qəbir qazılarkən bu qaydalara riayət olunmalıdır".

**Hacı Şahinin sözlərinə görə, İslam dini ölümü xatırlamağı bir fəzilətli əməl hesab edir:** "Hədislərdə də qeyd olunur ki, insan hər gün axirətini yad etməlidir. Təbii ki, burada incə bir məqam var. İnsanlar ölümü yad edərkən dünyadan təcrid olunmamalıdırlar, yaşamaqdan soyumamalıdırlar. Əksinə, ölümü yad etmək insanı düz yaşamağa, əxlaqi prinsiplərə riayət etməyə təşviq etməlidir. Ölümü xatırlamaq bəyənilən əməldir, ancaq bu ifrat həddə olmamalıdır. Bəzən insan axirətə o qədər yönəlir ki, dünya həyatından imtina edir, tərki-dünyalığa yönəlir. Bu yanlışdır. Ölümü yad etmək insanın dürüst yaşamasına gətirib çıxararsa, o zaman bu çox bəyənilən və fəzilətli bir əməldir".

**Dini məsələlər üzrə ekspert Kənan Rövşənoğlu da qeyd etdi ki, insanın sağ ikən özünə qəbir qazdırması İslam ənənələrində də var:** "Buna iki istiqamətdən yanaşmaq mümkündür. Biri iqtisadi-sosial baxımdan ki, insan yaşlananda ailəsinə çətinlik yaratmamaq üçün, iqtisadi baxımdan sıxıntı yaşatmamaq üçün sağ ikən qəbir yeri alır. Hətta kəfəni də alıb hazır qoyur ki, dünyasını dəyişdikdən sonra ailəsi bu məsələlərdən ötrü çətinlik çəkməsin. Məsələnin dini tərəfi də var. Böyük İslam alimləri olub ki, sağlıqlarında özlərinə qəbir qazıblar, hətta girib qəbrində uzananlar da olub. Onlar bir növ axirəti unutmamaq, sonunda torpağın altına gedəcəyi hissini yaşamaq üçün bunu ediblər. Mövlanada da var ki, hərdən qəbiristanlığa gedin. Oradakı hər məzar bir susmuş tarixdir. O susmuş tarixləri dinləyin. Qəbiristanlıq insanlar üçün hər zaman bir ibrət yeri olub ki, hər kəs sonunda torpağın altına gedəcək. O baxımdan, sağlığında özünə qəbir yeri alıb, məzar qazdırmaq, hətta oraya girib uzanmaq belə bir növ özünü tərbiyə, dünyanın keçici olduğu düşüncəsini beyninə yerləşdirmək baxımından ibrətlik bir əməkdir".

❑ **Nərgiz LİFTİYEVA**

# "Exchange"lərin "bəxtini bağlayan" səbəblər: MBNP niyə susur?

## Ekspert: "VDM işlətməyə maraq göstərən insanlar olsa da, bu sahədə kütləvi aktivlik yarandığını görmürük"

**Məlum olduğu kimi, bu ilin aprelində Milli Məclisin qərarı ilə valyutadəyişmə məntəqələri fəaliyyətini bərpa etdi. Qərar verildi ki, bundan sonra valyutadəyişmə məntəqələrinə nəzarəti Maliyyə Bazarlarına Nəzarət Palatası həyata keçirsin. Daha öncə isə Azərbaycanda valyutadəyişmə məntəqələri fəaliyyət göstərərkən tənzimləyici funksiyasını Mərkəzi Bank həyata keçirirdi.**

Yeni qanuna görə, valyutadəyişmə məntəqəsi açmaq üçün lisenziya almaq istəyən şəxslər 500 manat məbləğində rüsum ödəyəcəkdi. Qanun qəbul edilərkən "Exchange" sahiblərinin 50 min manat depozit qoyması məsələsi mübahisə doğurdur və bu maddə qanundan çıxarıldı. Lakin həmin məbləğin və digər şərtlərin müəyyən edilməsi Maliyyə Bazarlarına Nəzarət Palatasına tapşırılıb. Artıq üzərindən 2 aydan çox vaxt keçib. Lakin paytaxtın mərkəzi küçələrində bir dənə də olsun "Exchange" gözə dəymir.

**"Yeni Müsavat"a danışan iqtisadçı ekspert Natiq Cəfərli hazırda prosesin Maliyyə Bazarlarına Nəzarət Palatasından asılı olduğunu bildirdi:** "Valyutadəyişmə məntəqələri üçün illik 500 manat lisenziya haqqı normal məbləğdə qəbul olunsa da, depozitlə bağlı 50 min manat təklif olunurdu. Müzakirələr nəticəsində qanunvericilikdən 50 min sözü çıxarıldı, ancaq müvafiq icra strukturunun müəyyən etdiyi depozit miqdarı yazıldı. Burada müvafiq icra strukturu Maliyyə Bazarlarına Nəzarət Palatasıdır. Palatanın mövqeyi və depozitin həcmi haqqında hansı cür qərar verəcəyi, çox təəssüf ki, bu günə qədər nə mətbuata, nə də iş adamlarına açıqlanmayıb. Qanunvericilikdə olan müddəaya görə, Palata istədiyi məbləği təyin edə bilər. Əslində bu çox səhv bir qərar idi, təsbit olunmalı idi, heç bir manipulyasiyalara yol verilməməli idi. 50 min manat çox böyük vəsait idi, onu qanundan çıxartdılar. Amma təəssüf ki, qanunvericilikdə bəlli bir depozit miqdarı öz əksini tapmadı. İndi qərar verən orqan istədiyi depozit miqdarını təyin edə bilər. 5 min manat da təyin edə bilər, 100 min manat da... Ona görə də valyutadəyişmə məntəqələrinə marağın olmamasının əsas səbəbi bunun hansı formada həyata keçiriləcəyinin naməlim olmasıdır.




VDM işlətməyə maraq göstərən insanlar olsa da, bu sahədə kütləvi şəkildə aktivlik yarandığını görmürük. Təəssüf ki, bu günə qədər Palatanın bununla bağlı mövqeyinin necə olacağını da bilmirik. Məlum deyil ki, nə qədər bir depozit miqdarından söhbət gedir, həmin depozit sonradan iş adamına geri qaytarılacaqmı, hansı şərtlər daxilində geri qaytarılacaq. İş adamı sonradan o depozitdən necə istifadə edə bilər. Bu məsələlərlə bağlı çox sayda suallar var. Həmin suallara aydınlıq gəlməyincə, depozitin miqdarı kifayət qədər aşağı olmayınca, bu sahəyə maraq artmayacaq".

**İqtisadçının sözlərinə görə, bu yerli vətəndaşların şənbə və bazar günləri, bayram günləri, iş günləri saat 18:00-dan sonra valyutadəyişmə imkanlarını çətinləşdirir:** "Xarici turistlər üçün müəyyən çətinliklər yaradır. Çünki bəlli banklar ancaq şəhərin mərkəzində istirahət günləri və digər günlər axşam saatlarında öz şəbəkələrini çalışdırırlar. Bu isə tələbatı ödəmək qabiliyyətində deyil. Palata iş adamlarında yaranan suallara aydınlıq gətirməlidir. Çox şəffaf şəkildə depozitlər və onun həcmi ilə bağlı məsələyə aydınlıq gətirməlidir. Heç bir iş adamı "Exchange" açmaq istəyərkən, 50 min manatı bəri başdan depozitə qoyub, ondan istifadə hüququndan məhrum olmaq istəmir. Çünki bu böyük bir məbləğdir. Valyutadəyişmə məntəqələri vətəndaşlar üçün yeni iş yerlərinin açılması imkanı, həm də rahat gəlir mənbəyi deməkdir. Bundan əlavə, turistlər üçün valyuta əməliyyatlarının rahat həyata keçirilməsi imkanları deməkdir. Təəssüf ki, bununla bağlı bəlli bir yol xəritəsi yoxdur deyə, iş adamları maraq göstərmək istəmir".

**Yeni açılacaq VDM-lərin maliyyə bazarına təsirinə gəlincə, N. Cəfərli bunun maliyyə sabitliyində elə də böyük rol oynamadığını qeyd etdi:** "Mən valyutadəyişmə məntəqələrinin bağlanmasını yanlış qərar hesab edirdim, bu gün də elə hesab edirəm. O zaman da maliyyə sabitliyinin pozulması ilə valyutadəyişmə məntəqələri arasında heç bir əlaqə yox idi. Ardıcıl baş verən devalvasiyalardan sonra bir ajiotaj yaranmışdı. Təbii ki, insanların valyutaya tələbatı da artmışdı. Artan tələbatı ödəmək üçün vətəndaşlar VDM-lərə üz tuturdular. O baxımdan, "Exchange"lərdə dollar çatışmazlığı yaşanırdı. Bu da ajiotajı daha da artırırdı. Çünki valyutanın çatışmaması onların günahı deyildi. Onlar banklardan dollar götürə bilmirdilər, həmçinin əhali əlində olan dolları dəyişmək istəmirdi. Maliyyə sabitliyini yaradan və ya onu dəstəkləyən qurum valyutadəyişmə məntəqələri deyil. Ona görə də bu səhv qərarı idi və ölkə boyunca 4000 nəfəri işsiz qoydu. İndi də VDM-lərin açılmasının maliyyə sabitliyi ilə birbaşa əlaqəsi olmayacaq. Əksinə, həm turistlər, həm də vətəndaşlar üçün daha rahat bir şəraitin yaranmasına səbəb olacaq. Qonşu Gürcüstanın mərkəzi Tiflisdə hər addımda valyutadəyişmə məntəqəsi var. Bu o demək deyil ki, Gürcüstanda maliyyə sabitliyi yoxdur. Türkiyədə də hər addımda valyutadəyişmə məntəqələri var. Bunun maliyyə sabitliyi ilə heç bir əlaqəsi yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycanda inflyasiya 14%-ə yaxınlaşır - rəsmi

**Bu ilin yanvar-iyun aylarında Azərbaycanda istehlak məhsullarının və xidmətlərin qiymətləri 2016-cı ilin müvafiq dövrünə nisbətən 13,9%, o cümlədən ərzaq məhsullarının qiymətləri 18,1%, qeyri-ərzaq məhsullarının qiymətləri 12,4%, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 9,4% bahalaşıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin iyun ayında may ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 1,0%, o cümlədən ərzaq məhsullarının qiymətləri 2,5% ucuzlaşıb, qeyri-ərzaq məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 0,1% bahalaşıb.



Ay ərzində unun, qarabaşaq və manna yarmasının, makaron məmulatlarının, mal, qoyun və toyuq ətinin, günəbaxan və qarğıdalı yağlarının, pasterizə olunmamış üzlü südün, çay və qəhvənin, mineral sular və bulaq suyunun, şəkər və şəkər tozunun, kartofun, şirin bibərin, pomidorun, xiyarın, çiyələyin, əriyin, alçanın, gilasın, tütün məmulatlarının qiymətlərində ucuzlaşma, kərə və zeytun yağlarının, kolbasa məmulatlarının, yumurtanın, almanın, limonun, soğanın, çuğundurun, göyərtinin qiymətlərində isə bahalaşma müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

İyun ayında may ayı ilə müqayisədə qeyri-ərzaq mallarından parçaların, mebel və ev əşyalarının, xalça və digər döşəmə örtüklərinin, minik avtomobilləri üçün ehtiyat hissələrinin, zərgərlik məmulatlarının, fərdi və planşet tipli kompüterlərin qiymətlərində bahalaşma, kitabların, telefon aparatlarının, soyuducu və paltaryuyan maşınların, kondisionerlərin, ventilyatorların, şirəsıxanların, elektrik çaydanlarının qiymətlərində isə ucuzlaşma müşahidə olunub. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

İyun ayında əvvəlki aya nisbətən əhaliyə göstərilən ödənişli xidmətlərdən hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətinin, ev və məişət xidmətlərinin, məişət cihazları, zinət əşyaları və saatların təmiri, respublikadan kənara istirahət turlarının qiymətlərində bahalaşma, mebel, ev əşyaları və döşəmə örtüklərinin təmiri xidmətlərinin, kafelər tərəfindən yeməklə təmin edilmə xidmətlərinin qiymətlərində isə ucuzlaşma müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017

# Türkiyədə qiyam cəhdindən 1 il ötür

## Ölkə iqtisadiyyatı, təhsil və ictimai sahədə nələr dəyişdi?..

**Türkiyədə 15 iyul hərbi çevriliş cəhdindən bir il ötür. 2016-cı il iyulun 15-də axşam saatlarında bir qrup hərbçi Ankara, İstanbul və digər iri şəhərlərdə dövlət, ordu və media mərkəzlərinə hücum edərək hakimiyyət çevrilişinə cəhd etdi. Sonradan F.Gülən qrupuna bağlı olduğu iddia edilən hərbçilərin çevrilişinin qarşısı prezident Ərdoğanın çağırışı ilə küçələrə axışan xalq tərəfindən alındı.**



Ancaq hərbi çevriliş cəhdi Türkiyənin müasir tarixində ciddi dönüş nöqtəsi oldu. Çevriliş cəhdindən sonra Türkiyədə həm orduda, həm də digər dövlət qurumlarında, o cümlədən polis, kəşfiyyat (MİT), təhsil və demək olar ki, bütün ictimai və dövlət idarələrində təmizlənmələr aparıldı, çevrilişlər birbaşa və dolayısı ilə bağlantısı olan, FETÖ üzvü olanlar hamısı işdən çıxarıldı və ya həbs olundu. Bir sıra özəl universitetlər qapadıldı, demək olar ki, bütün dövlət və vəqf universitetlərində çalışan camaat üzvləri işdən çıxarıldı və ya həbs olundu. Bu proses hələ də davam edir.

Ancaq ötən müddətdə ən çox diqqət mərkəzində olan mövzulardan biri çevriliş cəhdinin Türkiyə iqtisadiyyatına təsiri oldu. Çünki Türkiyə iqtisadiyyatı bu çevriliş cəhdindən sonra ciddi travma aldı. Hətta bir müddət ağır geriləmə qeydə alındı. Ancaq ekspertlərə görə, hazırda müəyyən qədər dirçəlmə var.

Yeri gəlmişkən, çevriliş cəhdinin olduğu 15 iyul gecəsi İstanbul birjasında 7 faizlik sərt enmə olub. Türkiyə milli valyutası olan lirə çevrilişdən az sonra sürətlə dəyər itirib və 3 lirə 1 dollara bərabər olduğu halda bir ay sonra fərq 3,7 lirəyə qədər artıb. Konkret olaraq çevriliş günü 1 dollar 2,89 lirə olduğu halda bir gün sonra 3,05 yüksəldi. Ümumilikdə isə BBC analitiklərinə görə, 15 iyuldan sonra Türkiyə iqtisadiyyatı 1.8 faizə qədər kiçilsə də, bu ilin əvvəlində iqtisadi artım 5 faizə çatıb.

Hərbi çevriliş cəhdindən sonrakı 5 ay Türkiyə iqtisadiyyatı üçün “qara dövr” hesab olunur. Milli iqtisadiyyatda kəskin böhran əlamətləri müşahidə olunur, milli valyuta dəyər itirib. Xarici sərmayə böyük ölçüdə geri çəkilib, ölkə iqtisadiyyatının bel sütunu olan turizm sahəsində ciddi geriləmə olub, turizm sektoru geriləyib.

Ancaq sonrakı aylarda hökumət iqtisadiyyatı dirçəltmək üçün bir sıra mühüm addımlar atdı. İlk növbədə Türkiyə dost ölkələrdən yatırım cəlb elədi, daha sonra ölkədəki xarici valyuta qıtlığını aradan qaldırmaq üçün prezident tərəfindən “döviz” (valyutadəyişmə) kampaniyası başladılıb və böyük miqdarda dollar lirəyə dəyişdirildi.

Bundan başqa, hökumətin kiçik və orta sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılması, iş adamları üçün yeni kredit xətlərinin açılması və sair kimi mühüm addımları nəticəsində Türkiyə iqtisadiyyatı 15 iyuldan sonra yaranmış acınacaqlı dövrü artıq arxada qoyub. Türkiyə iqtisadiyyatı 2016-cı ili son illərin ən aşağı göstəriciləri ilə başa vursa da, artıq mart ayından iqtisadiyyatda artım nəzərə çarpır. Qeyd edək ki, Türkiyə regionda ən böyük istehsal və ixrac gücü olan ölkələrdən biridir. Təxminən 2 milyon şirkətin çalışdığı ölkənin son illərə qədər 140 milyard dollardan artıq xarici ticarət dövriyyəsi olub.

Hər nə qədər hərbi çevrilişlərin Türkiyənin mövcud sosial-siyasi həyatına sərt təsirindən bəhs olunsa da, daha əvvəl baş vermiş 4 hərbi çevrilişdən sonra müəyyən geriləmələrin ardınca Türkiyə iqtisadiyyatı böyük bir irəliləyiş əldə edib. Ancaq iqtisadiyyatda hələ də ciddi problemlər qalır. Turizm hələ də canlana bilmir, xarici turist sayı hələ də çox aşağı səviyyədədir. Digər tərəfdən, ölkə bütövlükdə hələ də hərbi çevriliş cəhdinin yaratdığı mənfi ab-havadan çıxa bilmir.

Türkiyədə çevrilişdən sonra yaranmış vəziyyətin gərginliyinin davam etməsinin daha bir göstəricisi OHAL, yəni Fövqəladə Vəziyyət rejiminin davam etməsidir. OHAL qərarları ilə bu günə qədər yüzlərlə şirkət, ali və orta təhsil müəssisəsi, media orqanları, telekanallar qapadılıb, onminlərlə insan işini itirib və bu proses hələ də davam edir. 2016-cı il iyulun 20-də elan edilən OHAL (fövqəladə vəziyyət) qərarı son bir ildə ölkədə çox ciddi qərarlara imza atıb. Bu qərarlar iqtisadiyyat sahəsi ilə yanaşı, təhsil sahəsinə də ciddi təsir göstərib. Ötən il sentyabrın 1-dən başlayaraq bu günə qədər Türkiyədə 23 427 nəfər elmi işçi və universitet müəllimi FV qərarı (OHAL) ilə işdən azad edilib. 23 iyul 2016-cı il tarixli Qanun Hökmündə Qərarnamə (KHK) ilə Türkiyədə “camaat”a bağlı olduğu hesab edilən 15 vəqf universiteti (özəl) bağlanılıb. Bu qərar nəticəsində 2808 nəfər təhsil işçisi işsiz qalıb. Qapatma qərarı ilə təxmini rəqəmlərə görə, 65 min tələbə universitetlərin bağlanması nəticəsində başqa universitetlərə köçürüldü. 1 sentyabr 2016-cı ildə qəbul olunmuş 672 saylı KHK ilə Türkiyənin 96 universitetindən 2346 elmi işçi və müəllim işini itirdi, sonrakı aylarda qəbul edilmiş qərarlarla işini itirmiş ali təhsil işçilərinin sayı ümumilikdə 117 universitetdə 5247 nəfərə çatıb. Proses hələ də davam edir, son olaraq bir neçə universitetdə aparılan əməliyyatlar nəticəsində FETÖ üzvü olan 100-dən artıq elmi işçi və müəllim işini itirib.

Qeyd olunan vəziyyət Türkiyədə hərbi çevrilişdən sonra iqtisadiyyat və təhsil sistemində olan vəziyyəti əks etdirir. Ümumilikdə isə uğursuz qiyam cəhdindən sonra Türkiyədə KHK ilə ordu, dövlət və ictimai qurumlardan 83 min nəfərdən artıq insan işdən çıxarılıb. Bunlardan 30 minə yaxını Təhsil Nazirliyindən (əsasən müəllimlər), polis orqanlarından 18 min 697 nəfər, Səhiyyə Nazirliyindən 5526, Diyanət İşləri Başqanlığından isə 1826 nəfər işini itirib.

Çevrilişdə əsas ittihamçı rolunda olan Türkiyə ordusundan isə hərbçilər, kursantlar və digər xidmət işçiləri ilə birlikdə 16 400 nəfər işini itirib və ya həbs olunub. Bundan başqa, ümumilikdə 1325-dən artıq ictimai təşkilat qapadılıb. Eləcə də 5 agentlik, 16 telekanal, 24 radio, 62 qəzet, 19 jurnal və 29 nəşriyyat da çevrilişlə bu və ya digər şəkildə əlaqəsi olması səbəbilə qapadılıb. Bütün bu qurum və təşkilatlar uzun illər formalaşmış və dövlət içərisində dövlətə dönmüş bir camaatın ifşası prosesi olmaqla yanaşı, bütövlükdə Türkiyə tarixində ciddi bir ictimai travmaya səbəb olub və nəticələri hələ uzun illər cəmiyyəti narahat etməkdə davam edəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU**



# “Azərbaycanın Ermənistandakı ”İsgəndər" raketlərini vura biləcək silahları var"

## Rusiya nəşrinə müsahibə verən Zakir Həsənov: “Sözlərimə görə tam məsuliyyət daşıyıram...”

**“Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar heç bir nəticə vermir, döyüş zonasında gərginlik artır. Azərbaycan problemin sülh yolu ilə həllinə sadiqdir. Lakin bu o demək deyil ki, danışıqlar sonsuzluğa qədər davam edə bilər. Onlar çox uzandı. Danışıqlar naminə danışıqlar bizə lazım deyil”.**

"Trend"in məlumatına görə, bunu "RİA Novosti" agentliyinə müsahibəsində Azərbaycanın müdafiə naziri Zakir Həsənov deyib. Nazir bildirib: “Son illərdə döyüş zonasında, erməni qoşunlarının Azərbaycan qoşunlarının qarşısında yerləşdiyi mövqelərdə gərginlik artan xətt üzrə davam edir. Bunun bir səbəbi var: Azərbaycan torpaqlarının işğalı. Qalanları bunun nəticəsidir. İşğal olunan ərazilər azad edilmir, danışıqlar heç bir nəticə vermir”.

**Nazirin sözlərinə görə, Dağlıq Qarabağda qarşıdurma xəttində vəziyyət qəlizləşir və bu, bəzən lokal döyüşlərə çevrilir.** “Bu, normal haldır. İki düşmən ordu üz-üzə durduğu müddətdə bu baş verəcək. Amma zərbə məqsədyönlü şəkildə dinc sakinlərə vurulursa, bu, artıq cinayətdir”, - deyə Azərbaycanın hərb naziri son Alxanlı vəhşiliyinə işarə edərək qeyd edib.

**Zakir Həsənov işğalçı tərəfin yuxusunu qaçıran açıqlamalar da verib. Məsələn, nazir söyləyib:** “Biz ermənilərin nəyə ümid etdiyini bilirik. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olmaqla, Ermənistan digər ölkələri öz təxribatlarının girovuna çevirir. Onlar bilirlər ki, əgər heç kim situasiyaya müdaxilə etməsə, heç 3 gün davam gətirə bilməyəcəklər. 2016-cı ildə artıq bu, baş verib. Bizi o vaxt dayandırmasaydılar, müqavimət artıq sındırılacaqdı. Düşmənin illər ərzində qurduğu müdafiə xəttini 40 dəqiqəyə keçdik”.

**“Azərbaycan Silahlı Qüvvələri Ermənistanda yerləşdirilən ”İsgəndər" komplekslərinin raketlərini vura biləcək silahlara malikdir". Bunu da Z.Həsənov deyib. O qeyd edib:** “Mən müdafiə naziri olaraq bəyan edirəm ki, biz bu raketləri vura bilərik. Bizdə həmin raketlərin sayı 50 dəfə çoxdur. Sözlərimə görə tam məsuliyyət daşıyıram. Əgər onlar həmin silahı tətbiq etsələr, təsəvvür edin, infrastruktur və hərbi obyektlərə cavab atəşi necə olacaq?!”

**Nazirin sözlərinə görə, dünyada qoşunların yeridilməsinin bir neçə taktikası mövcuddur:** "“İsgəndər” yaxşı raketdir. Lakin bir neçə məsələ var. Birincisi, “İsgəndər”in bir çox növü var. İkincisi, həmin “İsgəndər” hansı vəziyyətdədir? Üçüncüsü, bu “İsgəndər”i kim idarə edir? Dördüncüsü, onu tətbiq etməyi bacaracaqlarmı? Biz hərbçi kimi, hər zaman ən pis varianta baxırıq, buna hazırıq. Sizə yuxarıda bəhs etdiyim raketlər Rusiyadan alınmayıb, amma keyfiyyətcə geri qalmır. Sizə deyə bilərəm ki, vəziyyəti modelləşdirib döyüş atışları həyata keçirmişik. Nəticə əladır! Bu gün əminik ki, yaşayış məntəqələrimizi və Silahlı Qüvvələrimizi müdafiə edə biləcəyik".

Xatırladaq ki, az öncə işğalçı Ermənistanın müdafiə naziri Vigen Sərkisyan Rusiya nəşrinə müsahibə vermişdi. Müsahibə zamanı Sərkisyan ölkəsinin “İsgəndər” raketlərinə malik olmasından lovğalandığını gizlədə bilməmiş, hətta Azərbaycanı hədələmişdi də. Erməni nazir onu da bildirmişdi ki, guya bu komplekslər öz torpaqlarını azad etmək istəyən Azərbaycan üçün güclü çəkindirici faktor olacaq: “Odur ki, Azərbaycan tərəfi hər hansı hərbi qərarı verməzdən öncə iki dəfə düşünməli olacaq”.

Ancaq indi - Azərbaycan müdafiə nazirinin dediklərindən belə qənaət hasil olur ki, Vigen Sərkisyanın arxayınçılığına heç bir əsas yoxdur. Diqqət edildisə, Zakir Həsənov onu da vurğulayıb ki, Ermənistana cavab zərbəsi endirəcək raketlər Rusiyadan alınmayıb, amma keyfiyyətcə geri qalmır. Bu, həm də o anlama gəlir ki, müharibə variantında Azərbaycan Rusiya silahlarından bir elə asılı olmayacaq.

❑ **Hazırladı: Siyasət şöbəsi**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017




# Erməni və havadarlarına son xəbərdarlıq: "Azərbaycan sakitləşməyəcək!.."

## Danışıqların davamını istəyənlər öncə işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılmasını təmin etməlidir; politoloq: "Ermənistan baş verənlərdən nəticə çıxarmasa, ona qarşı ən sərt tədbirlər qaçılmaz olacaq..."

**Prezidenti İlham Əliyev 2017-ci ilin birinci yarısı ilə bağlı Nazirlər Kabinetinin son toplantısındakı çıxışında növbəti dəfə Azərbaycanın Qarabağ məsələsi ilə bağlı prinsipial mövqeyini bütün dünyaya bəyan etdi.**

Əslində dövlət başçısının bu mövqeyi ilk növbədə Azərbaycan və Ermənistanı danışıqlar masası arxasına gətirmək istəyən çevrələrə yönəlib. Azərbaycan prezidenti son bəyanatı ilə işğalçı Ermənistana və onun havadarlarına mesaj verdi ki, mövcud şərtlər daxilində danışıqlar masasına qayıtmağın heç bir mənası yoxdur və irəliləyiş yalnız ərazilərin işğalına son verildiyi halda mümkün olacaq. Ölkə rəhbəri xatırladıb ki, münaqişənin həlli ilə bağlı təzyiqlər artanda Ermənistan hər zaman təxribata əl atır.

**İlham Əliyev bildirib ki, bunu illər öncə Ermənistan parlamentində baş verən terror aktı, 2014-cü ildə Paris danışıqlarından sonra cəbhədə vəziyyətin gərginləşməsi, həmçinin 2016-cı ilin aprelində təmas xəttində törədilən təxribatın qarşısının ordumuz tərəfindən layiqincə alınması da təsdiqləyir. Ötən ay törədilən təxribat nəticəsində Azərbaycan ordusunun bir hərbçisinin şəhid olduğunu, lakin Azərbaycan Silahlı Qüvvələrinin düşmənə layiqli cavab verdiyini deyən prezident İlham Əliyev bir neçə gün öncə Füzuli rayonunun Alxanlı kəndində törədilən təxribatın qurbanı olan balaca Zəhranın və onun nənəsinin qətlə yetirilməsini hərbi cinayət kimi qiymətləndirib, bunun Ermənistan siyasi rəhbərliyinin üzünü və erməni faşizminin eybəcər sifətini nümayiş etdirdiyi deyib:** "Bu cinayət cavabsız qoyulmadı. Ordumuz düşmənə sarsıdıcı zərbələr endirdi, Zəhranın və nənəsinin qanı yerdə qalmadı".

**Dövlət başçısı qeyd edib ki, bu ilin əvvəlində Dağlıq Qarabağdakı separatçı rejimin keçirdiyi qondarma referendum dünya birliyi və beynəlxalq birliklər tərəfindən tanınmayıb:** "Bununla da beynəlxalq aləm Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını bir daha bəyan edib. Bundan əlavə, ötən ilin aprel ayında Ermənistanın danışıqların bərpası ilə bağlı irəli sürdüyü şərtlər heç bir nəticə verməyib. Dünən Azərbaycan və Ermənistanın xarici işlər nazirləri görüşüb. Azərbaycan tərəfindən heç bir şərt qəbul olunmadan danışıqlar bərpa edilib. Beləliklə, işğalçı ölkə məcbur olaraq danışıqlar masasına qayıdıb". Prezident qeyd edib ki, ötən ilin aprelində baş verən hadisələrdən sonra Ermənistanın danışıqların bərpası ilə bağlı irəli sürdüyü şərtlər heç bir nəticə verməyib.

Ölkə başçısının bu sözləri ATƏT-in Minsk Qrupunun həmsədrlərinə də bir mesaj sayıla bilər ki, onlar fəaliyyətsizliklərinə son verib hərəkətə keçsinlər, işğala son verməsi üçün Ermənistana təzyiq etsinlər. Bu fikirlər həm də danışıqların prezidentlər səviyyəsində davam etdirilməsi təşəbbüsləri qaldıranlara yönəlik mövqe sayıla bilər.

Qeyd edək ki, Azərbaycan prezidenti bundan öncə İstanbula səfəri zamanı qardaş ölkənin lideri R.T.Ərdoğan və ABŞ-ın dövlət katibi Reks Tillersonla görüşündə də rəsmi Bakının Qarabağ məsələsində dəyişilməz mövqeyini onların nəzərinə çatdırmışdı. Türkiyə prezidenti Azərbaycanla eyni mövqedə olduğunu bir daha bəyan etdi, ABŞ-ın dövlət katibi isə sözsüz ki, bir daha Bakının güzəştsiz Qarabağ siyasətindən hali oldu və həmsədr ölkənin bunu nəzərə alması gərəkdir.

**Bu arada digər həmsədr ölkədən növbəti Qarabağ açıqlaması gəlib. Fransanın Ermənistandakı səfiri Jan-Fransua Şarpantye bildirib ki, rəsmi Paris Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair mütəmadi danışıqların aparılmasının tərəfdarıdır.** "Bizim yanaşmamız belədir: biz dövlət başçıları arasında birbaşa və mütəmadi dialoqun aparılmasının tərəfdarıyıq. Buna görə xarici işlər nazirləri arasında bu yaxınlarda keçirilən görüşü alqışlayırıq. Dəfələrlə söyləmişik ki, münaqişənin hərbi yolla həlli yoxdur. Münaqişə ancaq danışıqlar yolu ilə, mütəmadi dialoq vasitəsilə nizamlana bilər", - deyə səfir qeyd edib (APA). Diplomatın sözlərinə görə, yalnız xarici işlər nazirləri arasında görüşlərlə kifayətlənmək lazım deyil, dövlət başçılarının görüşünün təşkil edilməsi zəruridir. "Sonuncu görüş buna kömək edə bilər və növbəti görüşlərin baş tutması üçün fəal işləmək lazımdır" - səfir vurğulayıb.

XİN rəhbərlərinin son görüşü sözsüz ki, simvolik məna kəsb edirdi, bunu hər kəs bilir. Əsas məqsəd Azərbaycanın işğalçı Ermənistana Alxanlı qətliamının qarşısında sarsıdıcı zərbələr vurmasını əngəlləmək, gərginliyi səngitməkdir. Ancaq bir görüşlə gərginliyin aradan qaldırılmasının mümkün olmayacağını həmsədr ölkələr, cümlədən ATƏT rəhbərliyi yaxşı anlayır. Odur ki, xarici işlər nazirlərinin BMT Baş Assambleyası çərçivəsində bir araya gətirilməsinə cəhdlər göstərilir. Eyni zamanda prezidentlər səviyyəsində görüşün baş tutması üçün imkanlar axtarılır. Lakin reallıq budur ki, indiki şərtlər cinayətkar Ermənistan rəhbərliyi ilə görüşü istisna edir, çünki uşaq qatili olan Serj Sərkisyanın mövqeyində hər hansı dəyişiklik yoxdur. Elə Azərbaycan prezidentinin Alxanlı qətliamını törədən Ermənistan rejiminin hərbi cinayət törətdiyini deməsi, Ermənistan siyasi rəhbərliyinin üzünü və erməni faşizminin eybəcər sifətini nümayiş etdirdiyini bildirməsi bir çox ünvanlara xitabdır.

Ekspertlər də danışıqların perspektivini görmür.

**Politoloq Elçin Mirzəbəyli bildirdi ki, prezident Qarabağ münaqişəsi ilə bağlı dövlətimizin mövqeyini kifayət qədər açıq və birmənalı ifadə edib:** "Azərbaycan danışıqların bərpası üçün heç bir ön şərti qəbul etməyib, Ermənistan aprel döyüşlərinin nəticələrini, silahlı qüvvələrimizin ən müasir hərbi texnika və silah-sursatla təmin olunmasını və digər amilləri həzm edib və danışıqlar masasına oturub. Yəni düşmənin Alxanlıda törətdiyi vəhşi cinayətə verilən tutarlı cavab bizim danışıqlar öncəsi mövqelərimizi möhkəmləndirib. Həm də bu cavab zərbəsi Ermənistanın hərbi kontingentinə vurulub. Bununla da Azərbaycan həm işğalçıdan nə qədər fərqləndiyini, həm mənəvi, həm də hərbi potensial baxımından üstün olduğunu ortaya qoyub. Prezident bir daha bəyan etdi ki, Azərbaycan işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilər. Zənnimcə, hər şey tamamilə aydındır. Bu mesaj işğalçı ölkəyə və işğalın davam etməsində məsuliyyət daşıyan dairələrə ünvanlanıb".

**Ekspertin sözlərinə görə, prezidentlərin görüşünün təşkil olunması həmsədrlərin təşəbbüsüdür:** "Lakin xarici işlər nazirlərinin görüşündən də bəlli olur ki, bu barədə hər hansı razılıq əldə olunmayıb. Əldə olunan razılıq növbəti görüşün bu ilin sentyabrında BMT Baş Assambleyasının 72-ci sessiyası çərçivəsində keçirilməsi ilə bağlıdır. Çox güman ki, prezidentlərin görüşü barədə məsələ Baş Assambleyanın 72-ci sessiyası çərçivəsində keçiriləcək görüşdə müzakirə olunacaq. Son hadisələrdən sonra belə bir görüşün keçirilməsi bir çox məqamlara aydınlıq gətirə bilər. Vəziyyət əvvəlkindən çox fərqlidir. Ermənistan intensiv olaraq təxribatlar törədir, mülki şəxsləri, qadınları, uşaqları qətlə yetirir və təbii ki, belə olan şəraitdə Azərbaycan öz vətəndaşlarının təhlükəsizliyini qorumaq üçün istənilən addımı atacaq. Yeni vəziyyət yeni yanaşmalar tələb edir. Əgər Ermənistan baş verənlərdən nəticə çıxarmayacaqsa, o zaman işğalçıya qarşı sərt tədbirlərin həyata keçirilməsi qaçılmaz olacaq. Azərbaycan isə sakitləşməyəcək. Dövlət başçısının səsləndirdiyi fikirlərdə də bu açıq-aşkar görünür. Düşünürəm ki, Ermənistan da, həmsədr ölkələr də bu reallığı tam olmasa da müəyyən qədər başa düşüblər".

**Bu ərəfədə Dağlıq Qarabağ sərhədlərində rus-erməni sərhədçilərinin birgə təlim keçirməsi nə məna daşıyır? İranın hücumu iddiası diqqəti Rusiyadan yayındırmağa xidmət edir, yoxsa başqa niyyət var? Rus qoşunu hansısa adla Dağlıq Qarabağa girə bilərmi?**

**E.Mirzəbəyli:** "Əgər söhbət sərhədçilərin birgə təlimindən gedirsə, Rusiya tərəfi bu məsələ ilə bağlı verilən açıqlamada müvafiq düzəlişlər edib. İranın hücumu ilə bağlı yayılan məlumatlara isə heç psixi xəstəliyi olan insanları da inandırmaq mümkün deyil. Ermənistanla bağlı məsələdə rəsmi Tehranın mövqeyi Moskvadan bir o qədər də fərqlənmir. Fərq yalnız verilən bəyanatlarda nəzərə çarpır. Azərbaycan torpaqlarının işğalında və işğalın davam etməsində Rusiyanın iştirakı kimsəyə sirr deyil. Rusiyanın işğal altında olan Azərbaycan torpaqlarına açıq şəkildə müdaxiləsi isə münaqişənin ekskalasiyasına səbəb ola bilər. Bu isə təkcə Cənubi Qafqazın deyil, bütün Qafqazın və daha geniş ərazinin regional və qlobal güclərin birbaşa iştirakına zəmin yaradan münaqişə ocağına çevrilməsi deməkdir. Hazırda çoxsaylı münaqişələrlə üz-üzə qalan, dərin böhran keçirən Rusiyanın indiki reallıqlardan daha uzağa gedə biləcəyini düşünmürəm. Dünya Rusiyanın tarix boyu yararlandığı bəsit siyasi texnologiyaların kontrtexnologiyalarını çoxdan sınaqdan çıxarıb. SSRİ-nin süqutuna aparan yolda bu prosesin bir çox elementlərinə rast gəlmək olar. Artıq müharibələr vasitəsilə böhrandan çıxmaq zamanı geridə qalıb və əks effekt verir".

**Politoloq Arzu Nağıyev isə dedi ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin görüşlə bağlı bəyanatları hələ bu görüşün baş tutacağı demək deyil:** "Bildiyiniz kimi, Azərbaycan və Ermənistan Xarici işlər nazirləri Avstriyada görüşdülər və yenə də müsbət bir nəticə əldə edilmədi. Hətta görüşdən sonra verilən bəyanatlar göstərdi ki, tərəflər yenə də öz fikirlərini dəyişməyiblər, Ermənistan təkidlə status-kvonun saxlanmasına çalışır, Azərbaycan isə ərazi bütövlüyü çərçivəsində istənilən addımı atmağa hazır olduğunu bəyan edir. Son Alxanlı hadisəsi də bu görüşə heç də müsbət təsir etmədi. Əsas məqam ondan ibarət oldu ki, Ermənistanı təxribatçı kimi qəbul etdilər və bir daha təcavüzkar olduğunu bildirirlər. Məhz belə bir vəziyyətdə prezidentlərin görüşünü baş tuta biləcəyi inandırıcı deyil. Azərbaycan prezidenti cənab İlham Əliyev də dəfələrlə bəyan edib ki, görüşlər ancaq görüş naminə keçirilə bilməz. Yəni Azərbaycan tərəfi təbii ki, istənilən danışığa qatılmağa hazırdır, lakin şərtlərin nədən ibarət olduğu bəlli deyil".

**Politoloq onu da xatırlatdı ki, ATƏT-in Minsk Qrupu son bəyanatında ermənilərin təxribata əl atdıqları və dinc əhaliyə qarşı vəhşilik etdiklərini bəyan edib, lakin bunun müqabilində hansı addımların atılacağını bildirmədi:** "Onların təmsil etdikləri dövlətlərin rəhbərliyi Ermənistana təzyiq mexanizmini işləməli və bunu bəyan etməlidirlər, bir sözlə, ikili standartlar artıq Azərbaycanı razı sala bilməz. Düşünmürəm ki, Azərbaycanı bu bəyanatlarla sakitləşdirmək mümkün olsun. Danışıqlardan real işə keçməyin vaxtı çoxdan çatıb. Hakimiyyəti zəbt edən hansısa səhra komandirlərindən ibarət bir qrupla, erməni quldurları ilə nə qədər danışıqlar aparmaq olar? Hətta görüşün keçirilməsi ilə bağlı böyük güclər tərəfindən təkidli tələblər olsa belə, Azərbaycan öz bəlli mövqeyindən çıxış edəcək".

Beləcə, Azərbaycan prezident, Ali Baş Komandan səviyyəsində mövqeyini bir daha bəyan etdi və işğalçıya növbəti dəfə düşünmək, doğru seçim etmək üçün şans verdi. Hər halda, düzgün nəticə çıxarılmayacağı halda, Azərbaycan ordusu öz sözünü deyəcək və körpə qatillərini müdafiə üçün artıq hər hansı bəhanə keçərli deyil. Alxanlıda qadın və uşağın qətlindən sonra dünya bir daha Ermənistanın iç üzünə bələd oldu.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017

**Bu günlərdə oğlu avtobus sürücüsünü döydüyü üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini Novruzəli Orucov prezidentin sərəncamı ilə vəzifəsindən azad olundu. Qeyd edək ki, Novruzəli Orucovun oğlu bundan əvvəl avtomobillə piyadanı vuraraq ölümünə səbəb olmuşdu. Məhkəmənin qərarı ilə o, 4 il azadlıqdan məhrum edilsə də, 2 il sonra şərti olaraq azadlığa buraxılmışdı.**

# Ölkədə məmur övladlarının harınlığı niyə azalmır?

## Sosioloq və psixoloq səbəblərdən danışır



Novruzəli Orucov bugünlərdə verdiyi müsahibəsində də bildirdi ki, oğlu ilk dəfə cinayət hadisəsi törədəndə prezident ona xəbərdarlıq etmiş, amma xidmətlərini nəzərə alaraq işindən azad etməmişdi. Son olaraq oğlunun 85 saylı avtobus sürücüsünü döyməsi isə ölkə başçısının qəzəbinə səbəb oldu və o, tutduğu vəzifədən azad edildi.

Təbii ki, Novruzəli Orucov qudurğan övladına görə işindən azad olunan ilk məmur deyil. Onlardan biri də Xəzər Dəniz Gəmiçiliyinin sabiq rəis müavini Mübariz Mədətovdur. Onun oğlu Xalid Mədətov içkili vəziyyətdə "Galendawagen" markalı avtomobili ilə qəza törətmişdi. Hadisə zamanı xalq artisti, tar ifaçısı Ağasəlim Abdullayevin həyat yoldaşı və nəvəsi həlak olmuşdu. Hadisədən bir qədər sonra Mübariz Mədətov işindən kənarlaşdırıldı.

Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərov da övladının güdazına gedən məmurlar sırasındadır. Belə ki, 2013-cü ilin yanvar ayında nazirin oğlu Vüqar Ələkbərov İsmayıllı rayon sakinlərini təhqir etmişdi. Bu isə rayon sakinlərinin kəskin etirazına səbəb olmuşdu. Daha sonra etirazçılar nazir oğlunun "Çıraq" otelni və avtomobilini yandırmışdılar. Hadisədən bir qədər sonra Füzuli Ələkbərov vəzifəsindən azad edildi. Həmçinin İsmayıllı rayonun icra başçısı olan qardaşı Nizami Ələkbərov da işdən çıxarıldı.

Sabiq deputat Ayaz Orucov da oğlu başqa avtomobildə olan qızlara sataşması və onlara silahla atəş açmasından sonra bir daha vəzifəyə gətirilmədi.

**Bu kimi nümunələrin sırasını genişləndirmək də olar. Ölkə başçısı dəfələrlə bu cür olaylarla bağlı xəbərdarlıqlar edib, dövlət məmurlarının davranış qaydalarına əməl etməsi məsələsinə toxunub:** "Mən dövlət məmurlarının davranış normaları ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm və bir daha demək istəyirəm. Hər bir dövlət məmurunu işə təyin edəndə verdiyim tapşırıqlar arasında bunlar da var ki, məmur təvazökar olmalı, xalqa xidmət etməli, xalqla bir yerdə olmalı, özünü xalqdan yuxarı tutmamalıdır. Ancaq buna baxmayaraq, bəzən hələ də görürük ki, həm məmurlar özlərini apara bilmirlər, kobud səhvlər buraxırlar və həm də ailə üzvləri hesab edirlər ki, onların xüsusi imtiyazı var. Azərbaycanda heç kimin heç bir imtiyazı yoxdur. Mən demişəm ki, o dövlət məmuru öz ailə üzvlərini idarə edə bilmirsə vəzifədən çıxarılacaq və belə də oldu. Azərbaycanda xuliqanlıqla, özbaşınalıqla məşğul olanlar cəzalandırılır və cəzalandırılmalıdır. Heç kimə heç bir güzəşt edilmir və mənim son qərarlarım onu bir daha təsdiqləyir, hamı nəticə çıxarsın".

Maraqlıdır ki, hətta prezidentin bu cür xəbərdarlıqlarına rəğmən ölkədə məmur övladlarının harınlığı azalmır, əksinə, bəzən çoxaldığının şahidi oluruq. Bəs səbəb nədir? Bu problemin kökündə hansı amil dayanır?

**Sosioloq Əhməd Qəşəmoğlunun sözlərinə görə, bu barədə müxtəlif səbəblər axtarmaqla lazımi nəticəyə gəlmək mümkün olmayacaq:** "Konkret olaraq elmin tövsiyələri var. Cəmiyyətdə bu cür hadisələr baş verəndə bunun elmi əsaslarını axtarmaq lazımdır. Hər halda, cəmiyyətdə bu cür qudurğanlıq davranışları get-gedə artır, insanlar bir-birilərinə maddiyyatla yanaşır, bu da ardınca problemlər yaradır. Birmənalı olaraq kəskin şəkildə bunun qarşısını almağın yollarını axtarmaq lazımdır. Təsəvvür edin ki, sel gəlir, oturub fikirləşirlər ki, bu sel niyə gəlir? Bu da sosial bəla, seldir gəlib. Dərhal qarşısını almağın yolu bundan ibarətdir ki, bununla bağlı elmi əsasların fəaliyyət proqramı hazırlanmalıdr. Orda da nəzərdə tutulmalıdır ki, kompleks işlər necə görülməli, maarifləndirmə işləri necə aparılmalıdır, qanunvericilikdə necə olmalıdır, ziyalılar, mətbuat bu məsələdə nə kömək edə bilər və sairə. Ümumiyyətlə, ölkədə maddi dəyərlərin get-gedə daha aktiv rol oynamasının qarşısı təcili SOS siqnalı şəkildə alınmalıdır. Bunun üçün də ortada ciddi humanitar siyasət olmalıdır. Təəssüf ki, bu məsələ hər dəfə elə danışılır, amma lazımi diqqət verilmir. Çünki elə düşünürlər ki, məsələ öz-özünə həll olunacaq. Bu isə mümkün deyil. Cəmiyyətin özünün qanunauyğunluqları var, bunları idarə etmək lazımdır. Bu sahədə isə hələ ki bizdə iş yoxdur".

Sosioloqun fikrincə, əgər mənəvi dəyərlərə maraq artsa, onda avtomatik olaraq təhsilə də maraq artacaq.

**Psixoloq Azad İsazadə də problemin kökündə dayanan amillərdən söz açıb:** "Ümumiyyətlə, özünü dikbaş göstərmək bizə xasdır. Cənub Şərq ölkələrində, istər İtaliya, istərsə də İspaniyada bu cür dikbaşlıq var. Biz də rəngli maşınları, bərbəzəyi, xüsusən də özümüzü göstərməyi çox sevirik. Bircə fərq bundadır ki, İtaliya, İspaniyada qanun hansısa formada bu prosesləri tənzimləyir. Bizdə isə bu problemin kökündə bir amil dayanır: bu da cəzanın olmamasıdır. Son zamanlar bu cəzalar artıq başlayıb və düşünürəm ki, bu, digərlərinə artıq təsir göstərəcək. Amma cəza vermək daim olmalıdır ki, kampaniya xarakteri daşımasın. Cəzalandırılma olmadıqda bu cür halların yenidən təkrarlanmasına və ya gələcəkdə daha ağır qanun pozuntularına gətirib çıxara bilər. Ona görə də cəza olsa yəqin ki, bu hər kəsə dərs olacaq. Məsələn, hansısa mexanikin oğlu sabah düşünəcək ki, əgər generalın oğlu cəzalandırılırsa, deməli, məni də cəzalandırarlar".

❑ Xalidə GƏRAY

# Marşrut avtobuslarında istidən "yanan" sərnişinlər od püskürdülər



## "Bir ayağımız çöldə gedirik..."

**Bakıda yay fəslinin ən böyük problemlərindən biri də sərnişin avtobuslarında sərinləndirmə sisteminin olmamasıdır. Yay aylarında nəfəskəsici istidə marşrut avtobuslarında sözün həqiqi mənasında qovrulan sərnişinlər illədir ki, bu dözülməz zülmdən qurtula bilmirlər. Hər yay gələndə kondisionersiz avtobuslar mövzusu mətbuatın gündəmindən düşmür.**





Onu da bildirək ki, paytaxt ərazisində bir neçə istiqamətdə yeni avtobuslar xəttə buraxılsa da, vəziyyətə ümumi nəzər yetirdikdə aydın olur ki, bu problem həllini tapmayıb. Mərkəzi küçələrdə, insanların sıx yerləşdiyi ərazilərdə müşahidə aparsaq, köhnə, sərinləndirmə sistemi olmayan avtobusların daha çox olduğunu görərik.

Sərnişin avtobusu dayanacaqlarına baş çəkib vəziyyəti işıqlandırmağa çalışdıq.

Günorta saat 14:30 radələridir... Havanın temperaturu 40 dərəcəyə yaxınlaşır. Bu saatlarda marşrut avtobuslarından istifadə edən sərnişinlər istidən əziyyət çəkirlər. Hətta onlar arasında vəziyyəti pisləşən yaşlılar da var. Nizami rayonu ərazisindən keçən 30, 44, 81, 35 saylı marşrut avtobuslarının sərnişinləri çıxılmaz vəziyyətdə olduqlarını deyirlər: "Hər yay gələndə marşrutlarda sərinləşdirici sistemin olmamasından əziyyət çəkirik. Əvvəllər interval dərdi çəkirdik, indi də sərinlik dərdi... Hər il bir neçə kondisionerli avtobusu xəttə buraxırlar, nədənsə biz görmürük. Ancaq mərkəzi küçələrdə rast gəlirik. Bu qara camaatı da nəzərə alsalar yaxşı olar. Marşrutların çoxunun pəncərələri işləmir. Bu zaman sürücülər məcbur olub qapıları açırlar. Cavan uşaqlar da sərinləmək üçün qapının ağzına yığışırlar. Bu isə təhlükə deməkdir. Kim ölə, kim qala... Dəfələrlə sürücülərə xəbərdarlıq etsək də, qulaqardına vururlar. Bir sözlə, bu sahədə özbaşınalıq, nəzarətsizlikdir".

Xatırladaq ki, bu il yay mövsümü ilə əlaqədar Bakı Nəqliyyat Agentliyi daşınma xidməti ilə məşğul olan şirkətlərə xüsusi xəbərdarlıq məktubu göndərib. Qeyd olunub ki, avtobusun havalandırma və sərinləndirmə sistemi yoxdursa, qapını açıq vəziyyətdə idarə etmək qadağandır.

Bu sözlər ötən ilin yay aylarında Bakı Nəqliyyat Agentliyi tərəfindən verilən vəd idi. Qeyd edilirdi ki, bu ilin may ayının 25-dən sentyabrın 15-dək kondisioner sistemi olmayan avtobuslar xətdə qalmayacaq. Kondisioner sistemi olmayacağı təqdirdə avtobusların xətlərə buraxılmayacağı bildirilirdi.

Xatırladaq ki, ötən il Bakıda fəaliyyət göstərən 2010 avtobusdan cəmi 251-də kondisioner olub. Artıq yayın ikinci ayıdır, hələ də bu problem həllini tapmayıb. Marşrut avtobuslarının 70-80 faizi kondisionersizdir.

Köhnə avtobusların xətdən yığışdırılması məsələsi gündəmə gələndən sonra sahibkarlar əl-ayağa düşüblər. Onlar işlətdikləri marşrut xəttini əldən çıxarmamaq üçün yeni avtobus almağa məcburdurlar. Ya işləməlisən, ya da işləmək istəyən sahibkara təhvil verməlisən...

**50 nömrəli sərnişin avtobusunun dispetçeri Münasib Əliyev köhnə avtobusların yenisi ilə əvəzlənəcəyindən danışdı:** "Gərək xəttə buraxılan avtobusları öz maliyyəmiz hesabına dəyişdirək. Biz də bilirik ki, sərnişinlər üçün istidə çətindir. Bu marşrut avtobusları Qarabağ Əlillər Cəmiyyəti və şəhid ailələrinin balansındadır. 16 marşrut avtobusumuz var. Bakı Nəqliyyat Agentliyi də bizi xəbərdar edib. Lakin xətdə işləyən avtobusları hələlik yenisi ilə əvəz etmək gücümüz yoxdur. Daha iri və kondisioner olan avtobuslar gətirmək istəyirik. Bu istiqamətdə işlər aparırıq. Bir il ərazində 2-3 marşrut almaq fikrimiz var".

**Məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyinin rəhbəri Mayis Ağayevin fikirlərini aldıq. O, problemin aradan qaldırılması üçün nəqliyyat vasitələrinin yenilənməsinin vacibliyini vurğuladı:** "Hazırda paytaxtda sərnişindaşımada istifadə edilən avtobusların 25-30 faizində qoyulan tələblərə uyğun sərinləndirmə və havalandırma sistemi mövcuddur. Sərinləndirmə və havalandırma sisteminin olmaması BNA-ni narahat edən məqamlardandır. Həm sərinləndirmə, həm də havalandırma qurğuları, sərnişinlərimizin rahatlığı və təhlükəsizliyi baxımından vacib olan digər tələblərin yerinə yetirilməsi üçün mütləq şəkildə nəqliyyat vasitələri yenilənməlidir".

**M.Ağayev hazırda xətdə olan 2100 sərnişin avtobusunun 500-də kondisioner olduğunu bildirdi:** "2100 avtobusun 25-30 faizində kondisioner var, dəqiq desək 500 avtobusda kondisioner var. Qalanlarını xətdən çıxarsaq, ictimai nəqliyyatda yaranacaq xaotik vəziyyəti düşünmək elə də çətin deyil. Çünki məsələlərə real yanaşmaq lazımdı. Bu gün daşıyıcının yeni nəqliyyat vasitəsi almağa imkanı yoxdur. Əksəriyyəti heç əsaslı təmir edə bilmir. Düzdü, biz onlara müəyyən qədər vaxt vermişik ki, nəqliyyat vasitələrini əsaslı təmir eləsinlər, istehsalat bazalarını normal vəziyyətə gətirsinlər. Amma ümumi problemin həlli üçün utilizasiya yeganə çıxış yoludur".

❑ Məğrur MƏRD
❑ Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017




**Cümə söhbətləri**

# İnsan hisslərini necə tərbiyə etməlidir?

**Bismilləhir-Rahmənir-Rahim!**
**Əziz İslam dinimizin xüsusi önəm verdiyi məsələlərdən biri - hikmətdir. Əgər mübarək mətnlərə nəzər salsaq, görərik ki, istər Allah Kitabında, istər Peyğəmbər (s) və Əhli-Beytin (ə) çatdırışlarında ən diqqətçəkən və mahiyyətinə varılması tövsiyə olunan mövzulardan biri - məhz hikmətli söz, hikmətli nəsihətdir.**

**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**



## Hikmətin təzahürü

Əmirəlmöminin Həzrət Əli (ə) hikmət mövzusu ilə bağlı buyurur: **“Hikmət - qəlbdə bitən və dildə bar verən bir ağacdır”.** Həzrət Əli (ə) məntiqində hikmətin bitmə, ərsəyə gəlmə mənbəyi - qəlbdir. Hikmətin meyvəsi - insanın tələffüz etdiyi sözlərdir. Burada sözlər qəlb hikmətinin nümayəndələri, təzahür vasitəsi qismində çıxış edir.

Dinimizdə hikmətlə bağlı ən çox adı hallanan şəxsiyyət Həzrət Loğmandır. Allah Təala Qurani-Kərimdə Həzrət Loğmana aid 1 səhifə yer ayırmışdır və bu mübarək şəxsiyyəti bəşəriyyətə tanıtdırmışdır. Bu tanıtdırmada əsaslı yeri nə tutur? Görürük ki, Həzrət Loğmanı səciyyələndirən ən mühüm xüsusiyyət qismində onun malik olduğu hikmət təqdim edilir.

İmam Museyi-Kazımdan (ə) nəql edilən hədisdə Həzrət Loğmanın hikməti barədə gözəl açıqlama verilir: **"Loğmana dedilər: “Sənin hikmətinin özəyi nədir?” Dedi: “Bildiyim şey barədə soruşmaram və mənə aid olmayan şey üçün özümü zəhmətə salmaram”".**

Gördüyümüz kimi, burada Həzrət Loğman 2 mühüm xüsusiyyəti vurğulayır: insana onsuz da məlum olan mövzuların üzərində lüzumsuz yerə dayanmamaq və insanın maraq dairəsini ona aid olan mövzularla məhdudlaşdırmaq. Əslində burada biz rasionallıqla yanaşı, insanın əxlaqi və mənəvi keyfiyyətlərinin tərbiyə edilməsini, onun əqli yönəmlərinin ən lazımlı surətdə tətbiqini müşahidə edirik.

## İnsan xislətlərinin yaxşısı

Hikmət daşıyıcısı olaraq Həzrət Loğmanla bağlı dinimiz çoxlu misallara yer ayırmışdır. Həzrət Loğmanın oğluna nəsihətlərindən birində oxuyuruq: **“Oğlum! Hikmət öyrən ki, hörmətli olasan. Çünki hikmət dinə yönəldir, qulu azad insanların müqabilində şərafətli edər, yoxsulu dövlətlilərdən daha uca edər, kiçiyi böyükdən qabağa salar”.**

Digər bir hədisdə görürük ki, bir gün Həzrət Loğmanın oğlu ondan soruşur: “Atacan! İnsan xislətlərindən hansı yaxşıdır?” Cavabında Loğman buyurdu: “Din”. Daha sonra oğlu sual etdi: “Atacan! Əgər insan 2 şeyə malik olmaq istəsə, onda nəyə malik olsa yaxşıdır?” Cavabında buyruldu: “Din və mal”. Həzrət Loğmanın oğlu davamında soruşur: “Əgər insan istəyə ki, 3 şeyə malik ola, onlar hansıdır?” Cavabında eşidir: “Din, mal və həya”. Oğul soruşur: “Bəs 4 şeyə malik olmaq istəsə?” Həzrət Loğman buyurur: “Din, mal, həya və gözəl əxlaq”.

Hədisdən görürük ki, insanın dünyada malik ola biləcəyi ən faydalı kateqoriya qismində ilk əvvəl din çıxış edir. Din - insan həyatının bütün sahələrini ən optimal surətdə tənzimləyən gerçək bir sistemdir və buna malik olma insan həyatını vücudiləşdirir. İnsanın dini, imanı, dünyagörüşü olmasa, həyatının mənası itmiş olur və o, əbəs yerə yaşamış olur.

Həzrət Əlidən (ə) nəql edirlər: “Həqiqətən, ən üstün din - Allah yolunda dostluq və düşmənçilik etməkdir”. Əgər insan Allahın bəyəndiyi insanlara, kamal bildiyi şeylərə məhəbbət, Allaha asi olan ünsürlərə, Allahın naqis bildiyi şeylərə nifrət bəsləmirsə - onun imanı dürüstlükdən çox-çox uzaqdır. Əsil müsəlman deyil o kəs ki, Allahın gözəl bildiyi şeyləri sevməsin və çirkin, eybəcər bildiyi işlərdən çəkinməsin. Mömin o kəsdir ki, öz hisslərini Allah bəyənən kimi tərbiyə edir. Bir qəlbdə ki, İmam Hüseynə (ə) və uğrunda şəhid olduğu dəyərlərə məhəbbət və Yezid lənətliyə, onun üçün dəyər olan şeylərə nifrət olmaya - burada imandan söhbət gedə bilməz.

## Həyanın zirvəsi nədir?

Hədisin davamında görürük ki, insanın mövcudiyyətindən ən gözəl surətdə bəhrələnməsi üçün dinlə yanaşı, müəyyən əmlaka da malik olma tövsiyə edilir. Yəni imkana sahib olma insanın düzgün yaşam tərzinə xeyli yardım edir. İslam - tərki-dünyalıq dini deyil. İslam bir dindir ki, insana bəyan edir: “Sənin həyatının hər bir məsələsi Allaha bəndəliyə çevrilə bilər. Hər bir mövzu səni Allaha yaxınlaşdıra bilər”.

İslam insanın mal-dövlət qazanmağını nəinki pis bilmir, hətta halal qazanc dalınca getməyi ibadətdən hesab edir, insanın həyatının zəruri işlərindən bilir. İslam dini insanın mal-dövlət sahibi olmasını, imkanlı olmasını rəğbətlə qarşılayır, insanı zəhmətə hərtərəfli təşviq edir. Amma dinimiz sərvətin insan üçün hədəfə çevrilməsinə yol vermir. Mal-dövlət - yalnızca insanın normal yaşayıb öz vəzifəsini həyata keçirmək üçün bir vasitədir.

Burada ən mühüm cəhət - əldə edilən sərvətin halal mənşəli olmasıdır. Həzrət Peyğəmbərimizdən (s) nəql edirlər: **“Kiminsə mal-dövləti haradan qazanmaq barədə qorxusu olmasa, Allah da onu cəhənnəmə haradan aparmaq barədə çəkinməz”.**

İnsan fərqinə varmasa ki, mal-dövləti nə yolla əldə edir: rüşvətlə, oğurluqla, kiminsə haqqını basmaqla, zülm etməklə, yoxsa zəhmətlə - onda Allahın ələmli cəzasına hazır olmalıdır. Dinimiz alın təri ilə, halal ticarətlə sərvət qazanmağı necə bəyənirsə, malının mənşəyi barədə fərq qoymamağı da bir o qədər pisləyir.

Həzrət Loğmanın nəsihətləri ilə bağlı nəql edilən hədisdə diqqət yetirilən sonrakı mühüm mövzu kimi həya göstərilmişdir. Həzrət Əlidən (ə) bu mövzuda nəql edilir: **“Həya - bütün yaxşılıqların açarıdır”.**

Dinimizin nəzərində hər nə ki, yaxşılığa aparır - yolu həyadan keçir. Həzrət Peyğəmbərdən (s) nəql edirlər: **“Hər dinin öz təbiəti var, İslamın da təbiəti - həyadır”.**

Həya - insanı uğura, səadətə aparan mübarək vasitədir. Həya - toplumların xoşbəxtliyinə səbəb olan amildir. Diqqət yetirsək, lənətlik iblis öz mənfur niyyətlərini həyata keçirmək üçün hər zaman ilk növbədə həyanı hədəf seçir. Həya - iyrənc proqramların reallizəsinə mane olan bir güclü amildir. Həyası itən toplumların yaxşılıqları itər, bərəkəti əldən gedər.

Həyanın da müxtəlif dərəcələri olur. Həzrət Əli (ə) buyurur: **“Həyanın zirvəsi - insanın öz-özündən həya etməsidir”.**

Bir var insan həya edir ona görə ki, onu görən, eşidən olar. Bir də var heç kəsin onun əməlindən xəbəri olmayan bir şəraitdə insan öz həyasını, iffətini qorusun. Allah Təala cəmi iman əhlini gerçəkdə həya sahiblərindən qərar versin!

## Gözəl əxlaq günahları əridər

Hədisin davamında görürük ki, 4-cü mühüm kateqoriya kimi, insanda gözəl əxlaqın olması təqdim edilir. Bununla bağlı İmam Cəfər Sadiqdən (ə) nəql edirlər: **“Gözəl əxlaqdan ləzzətli həyat yoxdur”.**

Dinimizin nəzərində gerçək gözəllik insanda əxlaqın mövcudiyyətindən keçir. Əxlaq olmayan yerdə nəsə zahirən gözəl görünə bilər, amma həqiqətdə eybəcərdir.

Burada gözəllik məfhumunun fəlsəfəsi açıqlanır. Həqiqi kamalın, həqiqi gözəlliyin təcəssümü - Uca Allahdır. Və deməli hər nə ki, Allaha doğru aparır - gözəldir, hər nə ki, Allahdan uzaqlaşdırır - eybəcərdir. Və ləzzət konsepsiyası məhz bu bünövrə - Allaha yaxınlaşmaq və Allahdan uzaq düşmək üzərindədir. Allahla əlaqədar olmayan hər bir ləzzət - ötəri və aldadıcıdır. Allahın rizayətindən qaynaqlanan ləzzət isə dayanıqlı və möhkəmdir, əslində həqiqidir. Beləliklə, gözəl əxlaq insanı həqiqi ləzzətə gətirib çıxarır.

İmam Cəfər Sadiqdən (ə) nəql edilən digər hədisdə bildirilir: **“Günəş buzu əridən kimi, gözəl əxlaq da günahları əridər”.**

Bu məsələnin kökündə də Allahın razılığı durur. İnsanın əxlaqı gözəlləşdikcə, onun günahdan çəkinməsi və gözəl əməllərə doğru cazibəsi güclənir. Nəticədə bu keyfiyyətlər onun qəlbində möhkəm yer tutur və mənfilikləri çıxarır - günah insandan bilmərrə uzaqlaşır.

Mübarək hədisin davamında Loğmanın oğlu atasından soruşur: **“Atacan! Bəs birdən bir kəs istəyə dünyada 5 sərmayəyə malik olsun. Nə etməli?” Həzrət Loğman buyurur: “(Bunlar) - din, mal, həya, gözəl əxlaq və səxavətdir”.**

Ümumiyyətlə, hədisin təqdimatında Loğmanın oğlunun elmə qarşı böyük rəğbətini, bilik əldə etmək üçün böyük həvəsini müşahidə edirik. Əslində bu cür təqdimatda elmə qarşı aclıq, doymamaq - bir dəyər kimi bəyan edilir. Bütün kəşflər, ixtiralar, açılışlar məhz bu mübarək “doymamazlığın” məhsuludur. İslam ümumilikdə gözü-könlü toxluğu təqdir edir, dəyər bilir, amma elmə, biliyə qarşı “gözüac olmağı”, canatmanı dəstəkləyir.

Hədisin təhlilinə gəldikdə, dinimiz halal mal əldə etməyi təşviq etdiyi kimi, mal-dövlətin yaxşı yerlərə, gözəl istiqamətlərə məsrəf edilməsini də son dərəcədə dəstəkləyir. İslamın nəzərində insan camiəyə, digər insanlara xidmət etməli, fayda verməli, yardım əlini uzatmalıdır.

Rəsuli-Əkrəmdən (s) nəql edirlər: **“Ən səxavətli insan - öz canını və malını Allah yolunda bəxş edəndir”.**

Özünün, ailəsinin, qohum-qonşusunun, bütün ehtiyaclı insanların ehtiyaclarını ödəyən, insanlara diqqət göstərən adam - Allah yolunda ehsan edəndir. Müxtəlif mənbələrdə Allah Təalanın bu ehsanların müqabilində 10 dəfə, 18 dəfə, hətta bəzi yerlərdə 700 dəfə mükafatlandıracağı bəlli edilmişdir. Özü də şərt deyil ki, gözəl əməl və ehsanlar məhz pul şəklində insana qayıtsın. Özünə, valideynlərinə, övladına şəfa, müşküllərinin həlli, bəlaların sovuşması - ən müxtəlif formalarda Uca Rəbb Öz bəndəsinə çox-çox artıqlaması ilə ödəyir gözəl səxavətin, ixlaslı ehsanın müqabilini.

## İlahi aşiq olmağın yolu

Loğmanın oğlu daha sonra atasına sual edir: **“Atacan! Əgər insan istəsə 6 sərmayəsi olsun, daha nə etməlidir?” Həzrət Loğman cavabında bildirir: “Oğulcan! O insan ki, bu beş sərmayəyə malikdir - din, mal, həya, gözəl əxlaq, səxavət - o, bilirsən nə olar?! O adam təqi olar, nəqi olar, vəli olar, şeytandan uzaq yaşayar bu dünyada!”**

Hədisdən bəlli olur ki, göstərilmiş keyfiyyətlərə malik olma, yeni keyfiyyətlərə yiyələnməyə səbəb olar. İnsan təqi olar, təqva yiyəsi olar - nəsəbindən, dilindən, əmlak vəziyyətindən, nəsli-nəcabətindən, məqamından asılı olmayaraq, insanı həqiqi dəyərə mindirən bir sifətə malik olar. İnsan nəqi olar - bütün mənfiliklərdən, eybəcərliklərdən təmizlənmiş olar. İnsan vəli olar - Allah aşiqi, gözəlliklər pərəstişkarı olar, ləyaqət və şəxsiyyət sahibi olar, rəzilliklər qarşısında əyilməz. Bu 5 sərmayəyə malik olan insan lənətlik iblisin dağıdıcı proqramlarının kortəbii icraçısına çevrilməz, eybəcərliklərin, rəzillik bütlərinin qulu olmaz.

Həzrət Loğmanın sadaladığı sərmayənin həqiqi sahiblərini, Kərbəla meydanında hər bir şeyini qurban vermiş, Allah yolunda ən böyük səxavətlilik, təqilik, nəqilik, vəlilik təzahür etmiş insanları yad etmək hidayət baxımından çox mühümdür. Allah Təala cəmi insanları hidayət yolunda qərar versin, Kərbəla şəhidlərinin, İmam Hüseynin (ə) yolunda olanlardan qərar versin, inşəallah!

**Allahım! Bizi dünya və axirətdə Həzrət Peyğəmbər (s) və Əhli-Beytlə (ə) birgə qərar ver!**

**Allahım, ümmətin qarşısında duran problemlərin həllini, müsəlmanların həqiqi ixlas sahibi olmasını, xəstələrin şəfa tapmasını, ehtiyacların müşküllərinin həllini, işğal altında olan torpaqların azad olunmasını, əsirlərin əsirlikdən qurtulmasını, 12-ci İmam Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et!**

YENİ MÜSAVAT
N 147 (6761) 14 iyul 2017

**“Qarabağ” Gürcüstan çempionuna Bakıda 5:0 hesabı ilə qalib gələrək növbəti mərhələyə adladı. Əgər fövqəladə bir hadisə baş verməzsə, məsələn, iyulun 18-də “Samtrediya”nın əvəzinə meydana..." Barselona"kimi klub çıxarsa, “Qarabağ”ın mərhələ keçə biməyəcəyini bəlkə də güman kimi yazmaq olar. Çünki belə möcüzələri adətən kataloniyalıların klubu bacarır...**





# "Qarabağ" "Barselona" ilə oynasa...

## “Samtrediya”, Tiflis “Dinamo”su və Kote Maxardze...

“Samtrediya”nın baş məşqçisi George Tsetdzade “hələ hər şey itirilməyib” deməsini bir gürcü zarafatı kimi qəbul etmək lazımdır, həm də elə azərbaycanılar da arada belə situasiyada zarafatla deyirlər: “Nəylə Alış?”..

***

Gürcüstan çempionunun Bakıda belə zəif oyun göstərəcəyini, doğrusu, gözləməzdim. Amma bu, yaxşı nostalji oldu. Hələ SSRİ çempionatı dövrü Tiflis “Dinamo”su ilə “Neftçi”nin Bakıdakı oyunları yada düşdü. Bu qarşılaşmalar həmişə maraqla izlənirdi. Yeri gəlmişən, dünyamızın düz vaxtı Azərbaycanda təkcə Kiyev “Dinamo”suna deyil, Gürcüstanın da eyni adlı klubuna azarkeşlik edənlər az deyildi. Bunlar əsasən Gürcüstanla xırda ticari əlaqəsi olanlar, ya da Tiflisdə qohum-əqrəbası yaşayanlar idi. Klub səhv etmirəmsə, 1981-ci ildə Kuboklar Kubokunu aldıqdan sonra daha da populyarlaşmışdı. SSRİ-dən bu mötəbər kubok gürcülərdən başqa, iki dəfə Kiyev “Dinamo”suna qismət olub. Vəssalam...

***

SSRİ-nin dörd bir tərəfində, harda gürcü varmışsa, orda Tiflis “Dinamo”su varmış sən demə. Çünki bizə baxmayın, deyilənə görə, *(bəlkə də indi rəvayət kimi görünər)* gürcülər... "Dinamo"dan başqa *(1987-ci ildə Quriyanın “Lançxuti” deyilən bir klubu da SSRİ çempionatında bir sezon oynadı, Kutasi “Torpedo”su da üç sezon yüksək liqada oynayıb)* komandaya azarkeşlik etməzmişlər.

Gürcülərlə qarşılaşma “Ararat” kimi “ölüm-dirim” məsələsi olmurdu, bu səbəbdən də heç-heçənin daha çox qeydə alındığını xatırlayıram. Tiflisdəki qarşılaşmalara “Araz” radiosundan qulaq asmaq olardı, o da məhəllədə əl radiosu tapsan...

***

“Samtrediya”nın baş məqçisi etiraf edib ki, indi Azərbaycan futbolu onun ölkəsindən daha yaxşı inkişaf edib. Amma Gürcüstan futbolu keçmiş SSRİ-də Azərbaycandan daha güclü hesab olunurdu, ona görə sovetlərin əsas komandasına Qafqazdan elə əsasən gürcülər cəlb olunurdu. İnsafən, Tengiz Sulakvelidze, Aleksandr Çivadze və Ramaz Şengeliya kimi futbolçular SSRİ millisində heç də pis oynamırdılar. Biz də onları “bolet” edərdik, qafqazlıyıq axı...

***

“Qarabağ”ın oyununda iki şərhçimizin hərdən eyni vaxtda danışması bir də nəyi xatırlatdı? “Vnimani-vnimani! Qovorit i pokazıvayet Tibilisi”... Kote Maxaradzenin bu tilsimli səsini hərdən “Youtube” kanalından tapıb dinləyin, izaholunmaz nostaljidir... Levitanın müharibə dövründə əzəmətli səsi hansı rolu oynayıbsa, Maxaradze və Ozerov kimi şərhçilər futbolda o yerə layiqdirlər...





Niyə gürcü şərhçilərin ruscası bu qədər qulağa yatımlı olurdu, bu sirri hələ də bilmirəm...

***

Bu qarışıq hisslərlə “Qarabağ” 3-cü qolu vurduqdan sonra rahatladım, amma sonra gürcülərə yazığım gəldi. Bu futboldur, mötəbər turnirdir, çox top vurmaq lazımdır ki, növbəti oyunda rahat meydana çıxa biləsən. Amma çempiona 5 cavabsız qol!? “Samtrediya”da nəyi bəyəndim? Əsl gürcü komandası olmasını. Aydındır, balaca büdcəsi olan klubun bahalı oyunçu almaq lüksu yoxdur. Amma yəqin səbəb yalnız pulda deyil. Start heyət elan olunanda sonluqda ancaq bir familiya (Bakar Balde) qulağıma yad gəldi, qalanlarının soyadı ənənəvi “dze” və ya “şvili” ilə sonuclanırdı. Heyətin güclü olmadığını matçın hesabı da deyir, amma “Samtrediya”nın əsl gürcü klubu olduğunu heç kim inkar da bilməz.

“Samtrediya”nın daha bir nəzərəçarpan cəhəti uzun ötürmələrdən istifadə etmələri idi. Müasir futbolun bəlasına çevrilən “tiki-taka”ya (topa qısa ötürmələrlə nəzarət) bir ara “Qarabağ”ın oyunlarında da rast gəlinirdi. İndi bir oyunu dəqiq xatırlayıram: 2015 Avroliqa sezonunda İngiltərənin “Totenhem” klubu ilə səfər oyunu. Peşəkarlar və statistiklər bəlkə razılaşmazlar, amma o oyunda “Qarabağ” qısa ötürmələrdə kobud səhvlərin ucbatından uduzdu. Bu qısa ötürmələr futbolun baxımlılığını öldürür.

“Samtrediya”nın uzun ötürmələrdən daha çox istifadə etməsi ağır məğlubiyyətin qarşısında gözə çarpmadı bəlkə də. Amma top rəqibdə olanda meydanın mərkəzini bəzən iki-üç ötürmə ilə keçmələri gürcülərin (ürəklə belə demək olar) aktivinə yazılmalıdır.

Gürcülər hesaba görə oynamadılar, hamısı “dze” və “şvili”dir deyə xüsusi kimisə fərqləndirmək də olmur. Amma gürcülərin fiziki cəhətdən tez yorulduqları da hiss olundu. Bu da, zənnimcə, həm də mentalitetdən qaynaqlanır. Təəccüblənirsiz ki, futbolun mentalitetə nə dəxli? Deyim. Gürcülər Qafqazda tənbillikləri ilə ad çıxarıblar. Toplumun qanında sanki bir tənbəlik geni var. İllər öncə Batumidə şahidi olmuşam. Batumiyə gəlmiş prezident Saakaşvili əsəbi tonda yerli televiziyada danışırdı, məmurları danlayırdı. Gürcü qarsondan soruşdum ki, kişi niyə əsəbləşib? Dedi, bunları danlayır ki, niyə dəniz kənarındakı tikililər hələ də yarımçıqdır... Şəhəri gürcü məmurlar ustaları tökmüşdülər dəniz kənarına. Guya nəsə besetkalar quraşdıracaqdılar. Maraq üçün şəhərdə qaldığımız beş gündə hər gün ora getdik. Ustalar tənbəl-tənbəl bir mıx vurub düşür, bir saat oturub siqaret çəkir, söhbət edir, sonra yenidən nərdivana dırmanıb bir mıx vururdular... Əlbəttə, gürücülərin də zəhmətkeşləri çoxdur. Amma toplum kimi məndə tənbəl təəssüratı yaratdı. “Samtrediya”ya bu mənada doğrudan da bir-iki legioner lazımdır ki, hücumçular üçün daima top daşısın, 90 dəqiqə meydanda qaçsın. Matçın sonlarına yaxın baş məşqçi sanki klubu “yatmağa” qoymamaq üçün konkret oyunçulara hansı rəqibin üzərinə getməsini hətta əli ilə nişan verməli olurdu.

“Samtrediya” öz meydanında Bakıdakından daha yaxşı oynamağa, qol vurmağa, hətta minimal hesabla da olsa, qalib gəlməyə çalışacaq. Baş məşqçinin optimizmi əslində belə başa düşülə bilər...

***

“Qarabağ”a da təşəkkür düşür ki, rəqibin zəif olmasına baxmayaraq, oyunu “öldürmədilər”. Qurban Qurbanovun bu jesti alqışlanmalıdır. Klubun təbii olaraq zəif rəqibə daha çox qol vurmaq istəyini qoyaq bir kənara. Axıradək oynamaq seçimi, məncə, ən əvvəl stadiona toplaşmış minlərlə azerkeşə hörmət demək idi. Hesabdan asılı olmayaraq oynamaq. “Qarabağ” əslində birinci hissədə oyunun taleyini həll etmişdi (3:0). İkinci hissədə qismən arxayın oyun göstərə bilərdi. Amma “Qarabağ” sonadək oynadı və azarkeşləri daha 2 qolla sevindirdi.

***

“Qarabağ” gözləniləndən yaxşı oynadı. Çempionatdakı tətil futbolçulara təsir edib, xətlər arasında əlaqələr tez-tez qırılır, ötürmələrdə hələ çox səhvlər var.

***

“Qarabağ” fövqəladə bir hadisə baş verməsə, iyulun 18-dən sonra növbəti mərhələyə hazırlaşmalıdır. Növbəti rəqib isə dostumuz gürcülər olmayacaq...

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 147 (6761) 14 iyul 2017



## Evli kişilərin daha çox yaşadığı təsdiqləndi

Araşdırmalara əsasən, evli kişilər subaylarla müqayisədə daha çox yaşayırlar. Britaniyalı alimlər bunun bir neçə səbəbini müəyyən ediblər. Adətən kişilər öz səhhətlərinə qarşı kifayət qədər etinasızdırlar. Qadınlar isə əksinə, öz orqanizmlərinə qarşı daha diqqətlidirlər. Bu səbəbdən də məhz qadınlar öz həyat yoldaşlarının səhhətində bir problem gördükdə onları həkimin qəbuluna yazılmağa məcbur edirlər.

Bundan əlavə, qadınlar həyat yoldaşlarını vaxtı-vaxtında dərman içməyə və həkimlərin göstərişlərinə əməl etməyə də məcbur edirlər. İnfarkt və ya insult almış ailəli kişilər xəstəxanaya daha tez çatdırılırlar. Bu da onların həyat yoldaşlarının operativliyinə görə baş verir.

## İtini reklam edir, əvəzində biznesi güclənib

Tayvandda yaşayan "Syao Pi" ləqəbli it dünyanın sevimlisi olub. O, başında müxtəlif meyvə şəkilləri ilə poza verir və bununla da sosial şəbəkədə populyarlıq qazanıb. Sahibi onun hər fotosunu facebookda paylaşdığı üçün onu izləyənlər də səbirsizliklə hər yeni fotonu gözləyirlər. 111 min nəfər qeyd edib ki, onlara heyvanın akkauntu xoş gəlir.

Lenta.ru saytının xəbərinə görə, 7 yaşlı heyvanın sahibi meyvə və tərəvəz satır. İtin fotolarını paylaşmaqla satıcı öz məhsullarının satışını artırmaq məqsədi güdüb.

# Toy səyahətinə çıxdı, amma yanında əri yoxdur

BBDO agentliyinin Pakistandakı ofisinin əməkdaşı Huma Mobin toydan sonra "bal ayı"na Yunanıstana əri Arsalansız, tək yollanıb. Milli.az bildirir ki, o, facebook-dakı səhifəsində Yunanıstanda tənha keçirdiyi istirahətin "ağrı-acılı" olduğunu göstərən fotolarını paylaşıb.



Huma və Arsalan yeddi ay əvvəl evləniblər. Onların yay ayları üçün planlaşdırdıqları "bal ayı" baş tutmayıb, çünki Arsalan Yunanıstana vizanı vaxtında rəsmiləşdirə bilməyib. Səyahətin turunun pulu ödəndiyindən Huma Yunanıstana təkbaşına yollanıb.

# Havası çatışmayan sərnişin təyyarənin pəncərəsini açdı

Çində yayımlanan "South Chine Morning Post" qəzetinin xəbərinə görə, Hangzhou şəhərindən Çendguya uçuşa hazırlaşan "Xiamen" hava yolu şirkətinə aid bir təyyarədə qəza çıxış qapısının açılması ilə sərnişinlər ciddi panikaya düşüblər. Təyyarə havaya qalxmaq istəyəndə yaşanan bu hadisənin səbəbkarı isə sərnişinlərdən biri olub. Bəzi sərnişinlər gördüklərini sosial mediada paylaşmaq üçün cib telefonları ilə baş verənləri çəkiblər. Bu şəkli paylaşan sərnişinlərdən biri isə aşağıdakıları yazıb: "Bir sərnişinin qəza qapısını açdığını ilk dəfə idi ki, görürdüm. Bizə dedi ki, sadəcə, təmiz hava almaq istəyir... Ümid edirəm, uçuşumuz çox da təxirə salınmayacaq".

Hər hansı bir zərər vermədiyi üçün hava yolu şirkəti sərnişin haqda cəza tədbiri görməyəcək. Çünki bu, onun ilk uçuşu olub və etdiyi hərəkət də hər hansı itkiyə, probleme səbəb olmayıb.






## Bu, dünyanın ən uzun dondurmasıdır

Amerikanın Miçiqan ştatındakı Moo-ville Creamery kampaniyası dünyanın ən uzun sandeyini (dondurmadan hazırlanan desert) hazırlayıb. Bununla da "Ginnesin rekordlar kitabı"na düşüb. Rekord desert 1110 metr uzunluğunda olub. Onun hazırlanmasına 3200 litr dondurma, 360 litrə yaxın şokalad siropu, 7200 ədəd gilas sərf olunub. Onu 1.5 gün müddətində 250 nəfər könüllü hazırlayıb. Bundan 3 ay öncə isə dünyanın ən uzun dondurmasını Miçiqan ştatındakı qonşu şəhərdə - Ludinqtonda hazırlamışdılar. Həmin vaxt "House of Flavors" şirkəti 910 metr uzunluğunda dondurma hazırlamışdı.

2016-cı ilin may ayında xəbər verildi ki, İtaliyanın Neapol şəhərində dünyanın ən uzun pizzasını hazırlayıblar. Pizzanın uzunluğu 1854 metr idi. Rekordun ərsəyə gəlməsində 250 aşpaz iştirak etmişdi ki, onlar bu işə 6 saat 11 dəqiqələrini həsr etmişdilər.




**QOÇ** - Bu gün yaxın ünsiyyətdə olduğunuz insanların əksəriyyəti problemlərinizin həllində böyük rol oynayacaqlar. Bu, çıxardığınız qərarlardan, atdığınız addımlardan birbaşa asılı olacaq.

**BUĞA** - Müəyyən çalarlarına görə bəxtinizə ziddiyyətli təqvim düşüb. Qarşılaşdığınız proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə yönələcək. Uzaq səfərlərdən imtina edin.

**ƏKİZLƏR** - Saat 16-ya qədər nəzərdə tutduğunuz planların böyük əksəriyyətini həyata keçirməkdə çətinliyiniz olsa da, ailə-sevgi zəminində yeni mərhələyə qədəm qoyacaqsınız. Odur ki, bərk durun!

**XƏRÇƏNG** - Bu təqvimdə bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Hansısa ciddi və riskli işlərə qol qoymamalısınız. Bu günün işini sabaha saxlamayın. Qərarlarınızda qəti olun.

**ŞİR** - Saat 14-ə qədər olan ərəfə istisna olmaqla qalan saatları yüksək əhval-ruhiyyədə başa vuracağınız ehtimal olunur. Göy qübbəsi ürəyinizi sevgisiz qoymamağı tövsiyə edir.

**QIZ** - Maliyyə məsələlərində uğurlarınız mümkündür. Axşamı hər hansı məclisdə keçirməyiniz daxili nigarançılığınızı azaldacaq. Qonşu və qohumlarla münasibətləri məcrasından çıxarmayın.

**TƏRƏZİ** - Bu tarix şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün böyük əhəmiyyət kəsb edəcək. Boş dayanmaqdansa səylərinizi birləşdirib yalnız irəli getməlisiniz. İşıqucu gələn bütün yollara baş vurun.

**ƏQRƏB** - Günün ümumi görüntüsü işlərinizin normal tərzdə cərəyan edəcəyinə əsas verir. Hər hansı qanqaraçılıq və ya məyusluq ehtimalı yoxdur. Ailə zəminində isə hər şey ürəyinizcə olacaq.

**OXATAN** - Həddindən ziyadə uğurlu ərəfədir. Mövcud sıxıntı və nigarançılığınızı aradan qaldırmaq üçün ətrafınızdakılar sizə yardımçı olacaqlar. Yaşca sizdən böyük olanlara qulaq asın!

**OĞLAQ** - Nəzərdə tutduğunuz əksər sahələrdə irəliləyişə nail olacaqsınız. Həmkarlarınızla ünsiyyətdə obyektiv olun. Öz müsahiblərinizə bacardığınız qədər güzəştə gedin. Mistik düşüncələrdən uzaq olun.

**SUTÖKƏN** - Əgər ixtiyarınızda olan bu ərəfədən zövq almaq istəyirsinizsə, oturaq işləri məhdudlaşdırın. Çünki ulduzlar bürcünüzə olduqca romantik məqamlar bəxş edəcək. Bəxtinizdə pul da var.

**BALIQLAR** - Dünəndən mənfi enerjili Ay bürcünüzdə olsa da, aktivliyinizi artırmalısınız. Bunun öhdəsindən gəlsəniz, ulduzlar yardımçınız olacaq. Sənədləşdirmə işlərinə diqqət yetirin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Əgər köksünüzsə, yaddaşınız sizi aldatmayacaq



Kök insanların beyni daha gec yaşlanır. Bu isə o deməkdir ki, onların alzheymerə (unutqanlıq) yaxalanma riski daha azdır. İngiltərədə aparılan araşdırmada 55 yaşı olan 2 milyon insan iştirak edib. Onların hər birinin son 20 ildəki qidalanma və yuxu rejimləri, tibbi problemləri, qəbul etdikləri dərmanlar və s. nəzərə alınıb. Nəticə göstərib ki, arıq insanların alsheymerə yaxalanmaq riski köklərdən 18 dəfə daha çoxdur. Mütəxəssislər bunun səbəbini kök insanlarda vitamin çatışmazlığı probleminə daha az rastlanması ilə əlaqələndirirlər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100